**Bismillahir-rəhmanir-rəhim**

**Kəlamini növhələri**

**Məhərrəmdən Ərbəinə qədər**

**Hacı Vəliyullah Kəlami Zəncani**

Həzrət Zəhranın (s.ə) pak ruhuna təqdim edilir

Mövla İmam Zamanın (əc) və Əhli-beyt (ə) dostlarının xidmətinə ədəb ərz olunur. Bu şer toplusu aşağıda adları qeyd olunan 21 kitabdan seçilərək, ixlaslı zakirlərə təqdim edilir. Həmçinin kitabların hamısının siyahısını cədvəldə müşahidə edə bilərsiniz:

| Sıra | Kitabın adı | Birinci çap | Şer sayı |
|---|---|---|---|
| 1 | İnqilabi Huseyni | 1359 | 9 ədəd |
| 2 | Aşiqani şəhadət | 1364 | 9 ədəd |
| 3 | Aşinayi məhəbbət | 1369 | 9 ədəd |
| 4 | Çəhardəh məsum (ə) | 1371 | 7 ədəd |
| 5 | Kəlami Kəlami | 1372 | 9 ədəd |
| 6 | Nalehayi Kəlami | 1374 | 8 ədəd |
| 7 | Asari Kəlami | 1375 | 8 ədəd |
| 8 | Munacati Kəlami | 1376 | 7 ədəd |
| 9 | Mubahati Kəlami | 1376 | 8 ədəd |
| 10 | Yadigari Səid | 1379 | 8 ədəd |
| 11 | Səlami Kəlami | 1379 | 6 ədəd |
| 12 | Avayi Kəlami | 1379 | 9 ədəd |
| 13 | Peyami Kəlami | 1380 | 9 ədəd |
| 14 | Nəvayi Kəlami | 1381 | 9 ədəd |
| 15 | İradətnameyi Kəlami | 1382 | 9 ədəd |
| 16 | Ərizeyi Kəlami | 1383 | 5 ədəd |
| 17 | Surudhayi Kəlami Gülçin (1) | 1384 | --- |
| 18 | Zəxireyi Kəlami | 1384 | 9 ədəd |
| 19 | Rəcəzhayi Kəlami Gülçin (1) | 1384 | --- |
| 20 | Misaqi Kəlami | 1385 | --- |

| | | | |
|---|---|---|---|
| 21 | Fehristi mozuyi kitabhayi Kəlami | 1385 | --- |
| 22 | İnqilabi Xomeyni (İnqilabi) | 1360 | 3 ədəd |
| 23 | Kərbəlayi İran (İnqilabi) | 1361 | 3 ədəd |
| 24 | Şəmi şəhadət (İnqilabi) | 1362 | 7 ədəd |
| 25 | Rahiyani Kərbəla (İnqilabi) | 1364 | 9 ədəd |
| 26 | Teşnəgani sirab (farsca) | 1370 | --- |
| 27 | Kəlami dil (farsca) | 1383 | --- |
| 28 | Fehristi mozuyi kitabhayi Kəlami | 1385 | --- |

## Məhərrəmin əvvəli-Həzrət Abbasın (ə) şəhadətinə işarə

**“Mubahati Kəlami” kitabından**

Yenə gəldi mahi Məhərrəmin hamı batdı matəmə ya Hüseyn

Ver icazə adını şiələr yaza qarə pərçəmə ya Hüseyn

*****

Tökülür gözüm yaşı damənə bu nə dərdim olsa dəvasıdı

Hamı qara köynəklə gəzir, hamı yerdə nöhə sədasıdı

Xəbər alsalar kim ölüb, yenə deyərəm ağamın əzasıdı

O ki, dərdi var edir adını ürəyində zəmzəmə ya Hüseyn

*****

Bilirəm edər mələk arzu ola nökər Ali-Peyəmbərə

Demirəm ki, nökərinəm vəli var əlaqəm itrəti-Heydərə

Əli Əsğərə görə əmr elə yaza Əkbər adımı dəftərə

Çox inayət eləmisən mənə odur qaneyəm kəmə ya Hüseyn

*****

Ağacan kimin qapısın döyüm ki, sənin kimi ola zül-kərəm

Kərəmindən eyləmə naümid bu gedanı ey şəhi möhtərəm

Aç o bağlı yolları ilbəil gələ şiələr dola boş hərəm

Bizi məhrəm elə özün buyur açıqdır yol Məhərrəmə ya Hüseyn

*****

Səni and verirəm o hala ki, yerə dadixahını yıxdılar

Su yanında topraqa hamili-ələm sipahını yıxdılar

Dedi gəl harayıma seyyidi mən bipənahını yıxdılar

Aparıb o cəzəbə xiyamidən səni nəhri-Əlqəmə ya Hüseyn

*****

Gözü qanlı baxdı cəmalına dedi ey-şəhi zəmən ağlama

Mühəmmədi Mustafanın nəvəsi, Əbul Həsənin oğlu ağlama

Sənə can dodaqda mən ağlıram başım üstə bari sən ağlama

Durub əllərindən öpənmirəm, odur düşmüşəm qəmə ya Hüseyn

*****

Calanıbdır gərçi su məşkidən, əmisin Rüqəyyə əmin bilər

Yetir ol əmanəti Zeynəbə, özü ahımın əsərin bilər

Ələmimlə məşki Mədinədən necə saxlar Ümmü-Bənin bilər

Mənə nohə kim desə, su sözün oxusun müqəddəmə ya Hüseyn

*****

Quruyubdu gərçi dodaqlarım, mən əzizi-saqi-Kosərəm

Babam əldə su gətirib vəli gözəlim sən içməsən içmərəm

Ağalıq varındı ağasan mənə, Əli oğluyam sənə nökərəm

Bu şərəflə eylərəm iftixar şühədayi aləmə ya Hüseyn

*****

De bacın halal eləsin əgər ona yaxşı qardaş olanmadım

Suyu xeyməyə yetirənmədim qəmi-qüssədən qurtulanmadım
Hələ dərdim artdı gələndə, sən başına əqəlli dolanmadım
Sənədi-cihadimi möhr elə, verim ömrə xatəmə ya Hüseyn
*****
Şəbi-rehlətində atam səni mənə tapşırıb, məni də sənə
Nə gözəldi axər ömridə alasan sınan başı damənə
Gələ Mürtəza şahi la fəta, deyə mərhəba sənə, həm mənə
Bu şikəstə qəlbi nişan o vəliyyi-əzəmə ya Hüseyn
*****
Utanır gözüm gözünə baxa, necə gizlədim bu xəcaləti
Hərəmində saqiyi-itrətəm vəli olmuşam su xəcaləti
Dolu kasədir ala gözlərin, ağla göz yaşıyla yu bu xəcaləti
Ki, bu göz yaşın sənin abiru verib abi-Zəmzəmə ya Hüseyn
*****
Nəzər et Kəlamiyə, ya Hüseyn ki, öləndə nur ala gözləri
Ağa razı olma çıxanda can, nigəran onun qala gözləri
Başına dönüm, başı üstə gəl, görə son nəfəs ala gözləri
Özün istə təziyəsi düşə dəheyi-Məhərrəmə ya Hüseyn

## Məhərrəm ayının daxil olması

**“Kəlami Kəlami” kitabından**

Ey əhli aləm – gəldi Məhərrəm

Saxlar Hüseynə şiələr bu ayda matəm

*****

Zəhra bu ayda – oxşar balasın

Ahilə başa – bağlar qarasın

Məzlum Hüseynin – saxlar əzasın

Yada salar Kərbübəlanın macərasın

Bu qəmdə şiə – matəm qurallar

Bazari şəhrə – pərçəm vurallar

Qəm səhnəsində – möhkəm durallar

Dünyanı va Hüseyn səsilə doldurallar

Yoldan yetişdi – qəm karivanı

Ta etdi mənzil – Kərbübəlanı

Mövla çağırdı – əhli-vəfanı

Axsın gərək aşiqlərin bu çöldə qanı

Əlhəqq Hüseyndir – azadə rəhbər

Əlqanı etdi – səhranı əhmər

Başı kəsildi – qət oldu əllər

Səsləndi başı nizədə Allahu Əkbər

Allah bu ildə - gəldik nəvayə

Yalvarrıq hər dəm – badi səbayə

Xəbər aparsın – Kərbübəlayə

Bizdən salam olsun o ləb teşnə fədayə

Ey şahi-dinə – biət edənlər

Həl min muinə – ləbbeyk deyənlər

Sinə vuranlar – qarə geyənlər

Təndə medali eşqidir bu pirəhənlər

Ya Rəbb behəqqi – əhli-məani

Lütf et bərati – Kərbübəlani

Qəlbdən sevindir – bu aşiqani

Allah yetir sən Neynəvayə bu nəvani

## Teştqoyma növhəsi

**“Nalehayi Kəlami” kitabından**

Yenə dövran dolanıb mahi-Məhərrəm gəldi – qəm gəldi

Sinəzən dəstələr əldə qara pərçəm gəldi – qəm gəldi

Ürəklər bu ayda qan olub vaveyla

Zəhra bağı xəzan olub vaveyla

Hüseyn – can Hüseyn can

*****

Nənələr ildə açar boxçaları ahəstə

Tapşırar oğluna dur, ol ağama dilbəstə

Tikmişəm bir qara köynək sənə mən dilxəstə

Gey onu, sinə vur, mövsimi-matəm gəldi – qəm  gəldi

Özgələr eşqi-Hüseyn qiymətini bilməzlər

Mərifət əhli Məhərrəmdə deyib-gülməzlər

Ey dil, üşşaqi-Hüseyn zindədilər ölməzlər

Mültəci bu qapıya İsayi-Məryəm gəldi – qəm gəldi

Olar elani-əza, şiə cigər dağlarlar

Dildə Abbasın adı, başa qara bağlarlar

Kim danışsa su sözü, təştə baxıb ağlarlar

Eşidər əhli-xirəd, naləyə aləm gəldi – qəm gəldi

Bu əza ilə müxalif ola kim, rüsvadı
Çün Hüseyn məclisinin müştərisi Zəhradı
Anazı səsləyin ey Fatimənin övladı
Bəlkə, Məhdi bura Zəhra ilə bahəm gəldi – qəm gəldi

Ey cavanlar sizi xar olmayasız dünyada
Yandırın lalə edin şəmiləri amadə
Şəmlər söndü bu ayda hərəmi-Zəhrada
Matəmə Ruhul-Əmin qəddin edib xəm gəldi – qəm gəldi

Qəmli səhraya həmin qafilə mehman gəldi – can gəldi
Vədəgahi şühədayə şəhi-xuban gəldi – can gəldi
Kərbəla müftəxər ol dərdlərə dərman gəldi – can gəldi
Həzrəti Xeyru-Nisa Zeynəbə həmdəm gəldi – qəm gəldi

Zeynəbin yandı bu ay qəlbi qəmi-həsrətdə
Əli qardaşdan üzüldü xanımın qürbətdə
İtiribdi balaların neçəsin qarətdə

İddəni şami-qəribanda sayıb kəm gəldi – qəm gəldi

Tutdu qodalə üzün səslədi nalan qardaş – can qardaş
Gəl, yanan xeyməmizə yoxdu nigəhban qardaş – can qardaş
Qəm çəkən Zeynəbin olsun sənə qurban qardaş – can qardaş
Daxi, sənsiz yaralı təngə bu sinəm gəldi – qəm gəldi

Mən deyirdim ki, Hüseyn yaralını soymazlar
Gün evində soyulan peykərini qoymazlar
At çapıblar sinən üstə yenə də doymazlar
Nə bəla başına ey məfxəri-adəm gəldi – qəm gəldi

Şəbi-hicarnidi sən xəstə Hüseyn, mən xəstə
Damənə didədən əşkim tökülür peyvəstə
Mən yanan xeymədə, sən də gözəlim kül üstə
Gözümə görmədiyim səhnə mücəssəm gəldi – qəm gəldi

## Məhərrəm növhəsi – Əli Əsğərin şəhadətinə işarə

**“Munacati Kəlami” kitabından**

Yenə yaran daşdı bəhri-bəla – şahi-Kərbübəla – yası başlandı

Xanım Zəhra saldı başa qara – Seyyidüş-şühəda – yası başlandı
Məhərrəm gəldi əza gəldi
Yerə göylərdən səda gəldi
Ya Hüseyni-məzlum

Çəkib qarə asimanə mələk
Sakinani fəlkə nohəxan oldu
Səmavatə nalə saldı tənin
Qəlbi Fatimənin ləxtə qan oldu
Bu matəmdə yandı qəlbi-Nəbi
Nazdanəsi biaşiyan oldu
Açıb başın yeksər əhli-səma
Xəmsətün-nücəba yası başlandı
Məabirdə səf çəkənlərə bax
Sinəzənlərə bax sinə dağlırlar
Düşüb şiə bəhri-dərdi-qəmə
Məscidə ələmə qarə bağlırlar
Deyir Zəhra: can yaralı bala
Şahi-mülki-vila yası başlandı
Vurur başa Əli aşiqləri

Bu müsibətdə Əli şiələri
Əli səslər: sındı bali-pərim
Odlanıb cigərim nari-möhnətdə
Çıxıb ərşə suzu-ahi Hüseyn
Xeyməgahi Hüseyn yandı qarətdə
Aman ey dil, eylə ahi-nəva
Çün vəliyyi-Xuda yası başlandı
Bu ayda hər kim nəvayə gələ
Ahu-vaya gələ, xaru-zar olmaz
Qiyamətdə etibara çatar
İftixarə çatar əşki-bar olmaz
Ölən vəqtdə sağ-sola dolanıb
Nari-hicrə yanıb intizar olmaz
Gözüm ağla, yarı eylə riza
Çün şəfii-cəza yası başlandı
Bu göz yaşı daim ələnir
Gözdə cilvələnir şami-Aşura
Gəlir yada qüssə xatirəsi
Xeymə mənzərəsi, qorxulu səhra
Rübab ağlır gözdə xuni-cigər

Qəşş edib südəmər, ahu-vaveyla

Deyir: Allah, can verir bu bala

Qaldı haldan-hala yası başlandı

Gecə keçdi, əsdi badi-xəzan

Madəri-nigəran gəldi əfğanə

Öpüb birdən mahparəsini

Şirxarəsini verdi sultana

Oğul getdi şövqü vəslətilə

Tiri-möhnətilə batdı alqanə

Kamandan ox atdı Hərmələ ta

Tifli-məhliqa yası başlandı

Hüseyn basdı bağrına balanı

Atdı ərşə qanı göylər ağlaşdı

Edib təsir ərş əhlinə qəmi

Xeymədə hərəmi-Heydər ağlaşdı

Dedi laylay ey yaralı bala

Səs çəkib o hala ləşkər ağlaşdı

Atasından ucalıb bu nida

Bangi va vəlada yası başlandı

Əl-üz qanlı gəldi xeymələrə

Ta Rübabə verə oxlu qurbanı

Xanım Zeynəb tez çıxdı qabağa

Ərz etdi ağa pozma halın Zəhranın

Əzizim, qəlbim kabab eləmə

Göz yaşın ələmə, sən anam canı

Deyim qoy, geysin qarasın ana

Oğlu batdı qana yası başlandı

## Aman bacının ürəyindən

Əmməcan babam gəlir yana-yana

Boyanıb dodaqları qızıl qana

Mənə rəmzilə deyir ağlamayın

Ki, məbada Əli Əsğər oyana

## Əza elanı

**"Yadigari Səid" kitabından**

Düşdü yenə dillərə qəm nohəsi

Aləmi doldurdu Hüseyn vay səsi

Qarə ələmlər əsər

Rişeyi-küfrü kəsər

*****

Bizləri ey Xaliqi biçuni-çənd
Feyzi-Məhərrəmdən elə bəhrəmənd
Eyləyib üşşaqi-Hüseyn sərbülənd
Boynumuzda onun eşqi kəmənd
Qəbrinə qurban olaq
Lütf elə mehman olaq

Şiələrin qəlbi yenə qəmdədi
Pir-cavan məclisi-matəmdədi
Ömrümüzün həzzi Məhərrəmdədi
Adı Hüseynin qara pərçəmdədi
Bax bu qara pərçəmə
Lərzə salıb aləmə

Qara geyənlər yenə məhzun olub
Aləmin aqilləri məcnun olub
Zeynəbin, Allah qəmi əfzun olub
Fatimənin halı digərqun olub
Hey çağırır can Hüseyn
Ləbləri ətşan Hüseyn

Ey adını şiə qoyan bavəfa

İldə əqəllən geyin on gün qara

Gəl dilə ey saili dərdaşina

Al ağadan təzkireyi-Kərbəla

Nazil edə rəhmətin

Can tək öpək türbətin

Əhli-əza başa qara bağlayın

Sinəzənan sinələri dağlayın

Seyyidi-məzluma əza saxlayın

Əcnəbilər gülsə də siz ağlayın

Göz yaşı tufan edər

Xəsmi hərasan edər

## Məhərrəm ayının əvvəlinin növhəsi

**“Sedayi Kəlami” kitabından**

Ətri gəlir Məhərrəmin hər yerə qara çəkdilər

Fatimə nohə başladı, göylərə qara çəkdilər

Ya Əba Əbdillahil-Hüseyn – Ya Əba Əbdillahil-Hüseyn

Geydi hüseynçilər yenə pirəhəni-əzaların

Əbri-bahar tək dolub gözləri aşinaların

Şəhriləri dolan eşit vay ana vay nəvaların

Mərifət əhli məcsid -o- minbərə qara çəkdilər

Əhli-vilayətin bu ay gülməyəcək dodaqları

Dəstələrin salıb yola kuçələrin uşaqları

Kuyi-şəhadətə gəlir Kərbübəla qonaqları

Cənnət olubdu qəmsəra sərdərə qara çəkdilər

Əsğərə xatir indidən eyləməyin su söhbəti

Xali qədəhlər əldədi saqiyə var xəcaləti

Fatimə mehridir Fərat, oğluna vermir ümməti

Xeymədə gəhvareyi-Əsğərə qara çəkdilər

Səsləyir Sahibəz-Zəman sinəzənani aləmi

Qara libasızı geyin, gəldi Hüseyn Məhərrəmi

Verdi nişan məlkələrə Fatimə qanlı pərçəmi

Ahilə ərşi-əzəmu-əkbərə qara çəkdilər

Qanə Hüseyni az qalır əhli-sitəm boyandıra

Kufə rəiyyəti gəlir xeymeyi-şahi yandıra

Başları nizəyə vura, sinədə at dolandıra

Gör hamı kuyi-bərzənə yeksərə qara çəkdilər

Ah, o zamandan istədi, Şimr kəsə Hüseyn başın

Təllidə Zeynəb ağladı, səslədi dadə qardaşın

Açdı Səkinə başını, tökdü Rüqəyyə göz yaşın

Xeyməsərayi itrəti-Heydərə qara çəkdilər

---

Qarə yel əsdi, batdı gün, qüdsiyan əlaman dedi

Yerdə Hüseyn cənazəsi, nizədə baş azan dedi

Köynəyini apardılar, Fatimə baxdı can dedi

Əhli-Mədinə mərqədi-madərə qara çəkdilər

### Məhərrəmin əvvəlinin növhəsi

**“Kərbəlayi İran” kitabından**

Hər məhərrəmlər – cuş edər qəmlər

Düşmənin kaxin yıxar bu qara pərçəmlər

---

Oldu bu ayda – din evi viran

Batdı alqanə – şahi-məzluman

Öldü ləb teşnə Hüseyn, ta ölməyə Quran

---

Teşnə qurbana – Mustafa ağlar

Fatimə oxşar – Mürtəza ağlar

Vay Hüseynim vay deyib, əhli-səma ağlar

---

Puri-Zəhra bir – imtahan verdi

Qətligah içrə – teşnə can verdi

Olmadı su, gülşəni İslama qan verdi

................................................................................

Ta bu nehzət var – şiə xar olmaz

Haqq bənasında – inkisar olmaz

Məktəbi-sorxi-Hüseyni ləkkədar olmaz

................................................................................

Keçdi ol mövla – can bahasından

Dəydi ox qəlbi – por səfasından

İndi də qanı axır peykan yarasından

................................................................................

İştihab eylir – cümlə fasiqlər

Nehzəti saxlar – zində aşiqlər

Bu Hüseyn bəzmin poza bilməz münafiqlər

................................................................................

Xətti Aşura – xətti Qurandı

Sərbesər bu yol – qırmızı qandı

Xətti sorxi Kərbəla, xətti şəhidandı

................................................................................

Keçdi canından – puri Peyğəmbər

Ta qala baqi – nuri Peyğəmbər

Mubemu icra olar dəsturi Peyğəmbər

Hüseyn, Quran şəhidi

**“Asari Kəlami” kitabından**

Yanan dilim Hüseyncan – yanır mühəbbətində

Mərizinəm gözüm var – o qanlı türbətində

Hüseyn, Hüseyn, Hüseyncan

Hüseyn şəhidi Quran

*****

Bu qəmli neyistanda – nəvayə gəlmişəm mən

Qara geyib yasında – əzaya gəlmişəm mən

İnayət eylə babi – ətaya gəlmişəm mən

Bu əhli eşqi saxla pənahi rəhmətində

Qapında sailəm mən – üzüm qara əlim boş

Yaz adımı mənim də – qara geyənlərə qoş

Düşər dəxil həmişə – dəri təbibə naxoş

Ki var gözü mərizin sənin təbabətində

Əzizi Mustafasan – ürəklərə səfa ver

Ey aləmin təbibi – mərizlərə şəfa ver

Darıxmışıq yaralı – bərati Kərbəla ver

Yanır qülubi-şiə şərari firqətində

Nə vaxt olur opək biz – o qanlı asitanı

Yuyaq bu göz yaşıyla – hərimi aşiqani

Qayıtmırıq bu yoldan – balam Rüqəyyə cani

Qəsəm xülusi eşqə varıq iradətində

Sən aləmə səfasən – nigari bavəfasan

Qəribi şəhri-vəhdət – qülubə aşinasan

Əzizi cani Zəhra – şəhidi Neynəvasan

Tərənnümi əza ver – nəvayi vəhdətində

Hər il Məhərrəm ayı – tutar cahanı qəmlər

Diyari mərifətdə – əsər qara ələmlər

Xamuş olar çıraqlar – yanar yasında şamlar

Dolannıq izzətilə – şüayi tələtində

## Seyyidüş-şühədanın (ə) səfiri

**“Aşinayi məhəbbət” kitabından**

Gəzir Kufəni Müslim, çəkir ah ürəyindən

Himayət eyləyən yox Hüseynin köməyindən

*****

Minlərlə nəfər edib Müslimə beyət

Sonra nəqşə dolandı, dönüb əhdidən ümmət

Olub yarlar əğyar, qalıb bikəs o həzrət
Ki, müşkül çıxa hər zər, salamat məhəkindən

Qürubun çağı durdu dəri-Tövədə Müslim
Salam etdi, su aldı, içib qəmzədə Müslim
Görüb övrət o yerdə yol almır gedə Müslim
Soruşdu nədən əşkin axır göz qarasından

Dedi ey zəni Kufi mən əhbabə həbibəm
Davan olsa mərizəm, qəmin olsa təbibəm
Hüseyn naibiyəm mən, bu şəhrizdə qəribəm
Məluləm bu qürubun havayi-səriniindən

Dua eylədi həzrət, edib Tövəni dilşad
Dedi verdin evində mənə yer evin abad
Xüdahafiz ey övrət gəlib qətlimə cəllad
Keçib Müslim haqq üstə hamı mamələkindən

Əbbasın əmoğlusu edib Kufədə bir cəng
Nə cəng, ərsəni xəsmə Əli tək eylədi təng
Edib qan tökən əda onu tutmağa nirəng

Silahı düşüb əldən qan axdı biləyindən

Görüb xalq o səvarı piyada gətirirlər
Vəfa seydini dami-bəladə gətirirlər
Yaralı qonaq ibni Ziyada gətirirlər
Baxır sağ-sola həsrət axır qanı damardan

Olub varidi darul-imarə o dilavər
Salam etmədi durdu qolu bağlı müvəqqər
Qaraldı qəzəbindən Übeydullahi kafər
O sərdarın olub mat salam etməməyindən

Dil açdı dedi çərxi-vəfada qəmərəm mən
Özüm haşimi baği-Əqilə səmərəm mən
Haramzadə əmirə salam eyləmərəm mən
Vəfadaram, əl üzməm Hüseynin ətəyindən

Düşür yada bu halda qəmi Heydəri-Kərrar
Ki, əcdadız Əlinin edib haqqını inkar
Xanım Fatimə qaldı miyani dəru-divar
Yanır indi də qəlbim hədisi Fədəkindən

Qərəz düşmən ehanət edib naib İmama
Onu kinəli cəllad çıxartdı uca bama
Nə nəleyni ayaqda, nə var başda əmamə
Çıxıb nalə bu dəhrin səma və səməkindən

Üzün qibləyə tutdu, dedi gəlmə Hüseyncan
Sənə namə yazanlar tökür qanımı əlan
Əzizim sənə xatir kəsirlər məni qurban
Yoxum şikvə gər etsəm utannam nəməkindən

Deyir ravi: eşitdim bu söz dillərə düşdü
Yumun gözlərizi od dili müztərə düşdü
Nə gördüm uca yerdən cənazə yerə düşdü
Axıb kövkəbi dürrü məhəbbət fələkindən

Kəlami, qəmi-Müslim edər aləmi giryan
Peyəmbər ona qəbl əz viladət edib əfğan
Elə mətləi təkrar nəvaxan o pərişan
Gəzir Kufəni Müslim çəkir ah ürəyindən

## Həzrət Müslimin (ə) sözləri

**“Nidayi Kəlami” kitabından**

Hüseyn canəm ey şəhi-mədəni – yordu Kufə məni

Qalmışam tənha

Tökür düşmən Müslümün qanını – tək görüb canını

Seyyidi mövla

Bu şəhrə gəlmə səfa yoxdu – münafiqlərdə vəfa yoxdu

Ey gülü-Zəhra

*****

O ümmət ki, namə yazdı sənə – düşmən oldu mənə

Qəlbə od saldı

Qan içsəm də dadmaram suların – fitnəsi bunların

Səbrimi aldı

Fəraqında ey Vəliyyi-cəlil – Müslim ibni Əqil

Bikömək qaldı

Mənim tək biəqrəba yoxdu – münafiqlərdə vəfa yoxdu

Ey gülü-Zəhra

Axır rahi-mərifətdə qanım – başına dolanım

Munisim qəmdi

Səfirin gör bağlanıbdı əli – düşmənani Əli

Şadi-xürrəmdi

Qəribəm mən ey həbibi Xuda – aləmi qürəba

Ayrı aləmdi

Ağa dərdim var, dava yoxdu – münafiqlərdə vəfa yoxdu

Ey gülü-Zəhra

Əgər gəlsən qədəmin öpərəm – qatilə diyərəm

Başımı tez kəs

Hüzurunda xoşdu qanım axa – dörü-bərdə baxa

Firqeyi nakəs

İmamım can üstə dadıma çat – arifi Ərəfat

Harda qaldın bəs

Qəribəm mən aşina yoxdu – münafiqlərdə vəfa yoxdu

Ey gülü-Zəhra

## Cənab Müslümün (ə) kömək istəməsi

**“Nəvayi Kəlami” kitabından**

Ya Hüseyn dadə gəl Kufədə tufana bax

Bağlanıb qollarım hali pərişana bax

Müslim ibni Əqil – səslənir əd-dəxil

Ya mövla

*****

Gəlmişəm Kufəyə həqqini elan verəm

Hazıram gülşəni mərifətə qan verəm

Nolar ya seyyidim sən baxasan can verəm

Dolanım başına başdan axan qanə bax

Müslim ibni Əqil – səslənir əd-dəxil

Ya mövla

Cahanın tülküləri cəngə çıxıb şir ilə

Şirinin qolları bağlıdı zəncir ilə

Dodağım yaradı zərbeyi şəmşir ilə

Zülm ilə parçalanmış ləb -o- dəndanə bax

Müslim ibni Əqil – səslənir əd-dəxil

Ya mövla

Demirəm, seyyidim seyfi Bəni-Haşiməm

Həm səfirəm ağa, həm qapına xadiməm

Ey gülü-Fatimə sən ağasan, mən kiməm

Eydi Əzhada gəl, yaralı qurbana bax

Müslim ibni Əqil – səslənir əd-dəxil

Ya mövla

Ola məndən salam ol şərəfi aləmə

Ərəfatin çölündə qurulan məxyəmə

Gözəl Abbas əlində ucalan pərçəmə

Şərəfi Kəbə gəl, saliki nalanə bax

Müslim ibni Əqil – səslənir əd-dəxil

Ya mövla

## Kərbəlanın səfası

**"Ərizeyi Kəlami" kitabından**

Vardı başımda ya Hüseyn həvayi beynül-hərəmeyn

Salar behişti yadıma səfayi beynül-hərəmeyn

*****

Görməmişəm behişti mən mənzələtin eşitmişəm

Yoxdur behiştdə hacətim Kərbübəlayə getmişəm

Mən ki, behişt ağasına ərzi iradət etmişəm

Kəmdi məgər behiştidən bəhayi beynül-hərəmeyn

Var iki cilvəli məkan aləmi biqərinədə

Beyni Bəqi və mərqədi Xətmi-rüsul Mədinədə

Bir də behişti Kərbəla nəqşi qalıbdı sinədə

Görməlidi nəməyi-dilqoşayi-beynül-hərəmeyn

Ol iki basəfa hərəm şəhri edib por ətri-bu
Bu altı guşə qəbri şəh, qəbri vəzirə rubəru
Ərş özü altı guşədi eylər o qəbri arizu
Ərş edibdi müncəli cəlayi beynül-hərəmeyn

Səhnə baxanda cilveyi baqiyə eylərəm salam
Məşki görəndə teşnələb saqiyə eylərəm salam
Xeymə yanında məhmil -o- naqiyə eylərəm salam
Zəngi şütürdü koçidə nəvayi beynül-hərəmeyn

Təllə çıxanda ağladım nalə mənə rəviyyədi
Rəhbəri karivan dedi bu Təlli-Zeynəbiyyədi
Nalə səsi gəlir, o da zəmzəmeyi Rüqəyyədi
Axtarır aşiyanəsin hümayi beynül-hərəmeyn

Diqqətin olsa görsənir xeymələrin yanan yeri
Şareyi-Sahibəz-Zaman Əsğərin oxlanan yeri
Şibhi Peyəmbər Əkbərin peykəri doğranan yeri
Səhneyi xatiratidi nəmayi beynül-hərəmeyn

Cilveyi Məscidul həram ordadı bax səfa elə

Möhrim -o- məhrəmani eşq orda edəllər hərvələ

Yada salar səlabəti Kəbəni vəqti nafilə

Soti əzani məğrib -o- işayi beynül-hərəmeyn

## Kərbəlada əzəmətli enmə

**“Zəxireyi Kəlami” kitabından**

Hüseyn gəldi Kərbəlayə qonaq – gözlərindən iraq

Ya Rəsuləllah

Ölüb ətşan Fatimə balası – düşdü eldən uzaq

Ya Rəsualəllah

Məhərrəmdə qan gələr cuşə - düşər yadə qəbri şeşguşə

Ya Rəsuləllah Ya Rəsuləllah

*****

Hüseynin qurban olum adına

Bizlərə bu adı – madər öyrətdi

Viladətdə Cibrili əmin

Gəhvarəsini gəldi tərpətdi

Vəli bilməm Kərbəladə niyə

Sinəsin boğazə – Şimrə göstərdi

Məazəllah, Allahın qanını

Tökdü əhli İraq – ya Rəsuləllah

Salam olsun qanlı ləblərə ki
İstidən qurudu – su kənarında
Deyirlər su mehri Fatimədi
Qaldı əcnəbilər – ixtiyarında
Hüseynin bir süd əmər balasın
Teşnə oxladılar – qan diyarında
Yaralı quştək bəlkə də bala
Çaldı əl-ayaq – ya Rəsuləllah

Məhərrəmdə qarə pərçəm əsər
Sinədə qızışar – şiələr qanı
Dolan gözlər Kərbəlaya baxar
Qətrə-qətrə axar – hey cigər qanı
Həmin ayda qara yel əsilib
Göylərə səpilib südəmər qanı
Hüseyn ağlırdı o hala vəli
Güldü dilsiz uşaq – ya Rəsuləllah

Məhərrəmdə sinələr açılar

Qəmli sinəzənan – dil kəbab ağlar
Sipehri eşqin sitarəsinə
Ay qarə geyər – Günəş ağlar
O gündən min dörd yüz ildi keçib
İndi də belə billəm Rübab ağlar
Deyirdi oğlum gedəndə suya
Tərpənirdi dodaq – ya Rəsuləllah

Qərəz Aşura günü qutarıb
Qarət oldu hərəm – xeymələr yandı
Qara geydi dəşti Kərbübəla
Oldu şami əza – nohə başlandı
Yanan dillər bir yanan çadıra
Cəm olubdu hamı sinə suzandı
Bala qızlar qorxa-qorxa yatıb
Qaldı Zeynəb oyaq – ya Rəsuləllah

Nigəhbanidi həmin çadıra
Mürtəza qızı ta – gəlməyə düşmən
Görüb nagah bir sızıltı gəlir
Gəldi səslədi ey – ağlayan kimsən

O dilxəstə yana-yana dedi

Çoxdu dərdim, oğulsuz Rübabəm mən

Qaranlıqda axtarırdı gülün

Dildə daği fəraq – ya Rəsuləllah

Diyə billəm Əsğərin anası

Sübhətək o gecə -– matəmə batdı

Deyə biləm hey dedi bala vay

Qan içində Əbəlfəzli ağlatdı

Su içmişdi süd fərahimdə

Səslənirdi balam qan içib yatdı

Çətindi əmlik quzu verə can

Leyk, ana qala sağ – ya Rəsuləllah

### Qəbilə rəisinin İmam Hüseyni (ə) qarşılaması

**“Munacati Kəlami” kitabından**

Ya Hüseyn bu səhrayi – por bəlayə xoş gəldin

Kəbədən səfa gətdin – Kərbəlayə xoş gəldin

*****

Ey şüayi Nurullah, zadeyi Rəsulullah

Sözləri kəlamullah, cilvəsi cəlalullah

Mərvədən çıxıb beyti basəfayə xoş gəldin
Kərbəlayə xoş gəldin

Bu diyar por qəmdi – kuyi hüznü matəmdi
Sali şəstumi hicrət – ikisi Məhərrədi
Qəmli halda kanuni – ibtilayə xoş gəldin
Kərbəlayə xoş gəldin

İzn ver şəhi xuban – ellərə edim elan
Öz qəbiləmin əhlin – səsləyim kəsək qurban
İtrətim fəda sən tək – bavəfaya xoş gəldin
Kərbəlayə xoş gəldin

Seyyidi belə pozğun – dəşti por qəmə baxma
Ağlayan gözün qurbanı – nəhri-Əlqəmə baxma
Su axıb diyər ali – Mustafaya xoş gəldin
Kərbəlayə xoş gəldin

Var başında ya mövla – bilmirəm nə həngamə
Getmədin bu mokəblə – şəhri Kufə və Şamə
Fəxr edir bu yer sənlə – nöh səmaya xoş gəldin

Kərbəlayə xoş gəldin

Ax görüm bu səhrada – izzətin müdam olsun

Bu qəbilə əhlindən – cəddinə salam olsun

Əllərin öpüb çatdıq – müddəaya xoş gəldin

Kərbəlayə xoş gəldin

Ey sülaleyi Taha – nuri dideyi Zəhra

Hər sözün ola mövla - əmr elə edək icra

Rəhmətin bu səhraya – saldı sayə xoş gəldin

Kərbəlayə xoş gəldin

## İmam Hüseynin (ə) Kərbəlaya daxil olması (sinəzən)

**“İnqilabi Huseyni” kitabından**

Vadiyi qəm -o- möhnət Zeynəba bu səhradır

Əvvəl bəlayə amadə Kərbəla bu səhradır

*****

Şakirəm bacı ürəkdən Kirdigar Məbudə

Qəmli qafiləm gəldi çün diyari məqsudə

Vədəgahi dildarə yetdim, oldum asudə

Həq fədasinə əlhəqq xoş Mina bu səhradır

Bu yerin əzəl gündən qəmfəzadı torpağı
Dərdi dərdiməndanə xoş dəvadı torpağı
Yer üzündə iksiri por bahadı torpağı
Əhli eşqə hər yerdən busəfa bu səhradır

Gün qürub edər hər gün qan olar dili-Taha
Ta səmayə baş qozar şəmsi yovmi Aşura
Cənnəti nəvailə tərk edər anam Zəhra
Orda ki, anam səslər vay bala, bu səhradır

Sən o gün anam bacı firqətimdə ağlarsan
Ahi canqudazınla kainati dağlarsan
Mümkün olsa məqtəldə gözlərimi bağlarsan
Ruhumla əvvəldən aşina bu səhradır

Bu minada İslama fidyə Kirdigar istər
Yetmiş aşiq saleh mərd cannisar istər
Əkbər cavan istər, tifli şirxar istər
Könlüm istəyən yer ey bavəfa, bu səhradır

Vədəgahi eşqimdə mən bir imtahan verrəm

Su yolun kəsər düşmən nəxli dinə qan verrəm

Candan əl üzüb cismi inqilaba can verrəm

Xabqahi dilbəndi Mustafa bu səhradır

Vaqif oldun əsrarə, tökmə göz yaşın Zeynəb

Ölməyib hələ Əbbas, açma sən başın Zeynəb

Vurma qəlbimə əxgər, sağdı qardaşın Zeynəb

Gəl nəvayə ahəstə, Neynəva bu səhradır

## Vay susuzluq

**“Peyami Kəlami” kitabından**

Zadeyi Heydər əmu – teşnədiləblər əmu

Gör necə gəhvarədə - can verər Əsğər əmu

*****

Bir su ki, ondan içər əhli Fərəng -o- Həbəş

Fatimə qızlarına yoxdu qopub keşməkeş

Hamı deyir ya Hüseyn, hamı deyir əl-ətəş

Hardadı bəs Mürtəza saqiyi Kovsər əmu

Bax bu dodaq teşnədi, orət uşaq teşnədi
Həm ana, həm südəmər gözdən iraq teşnədi
Namə yazıb kufiyan, çöldə qonaq teşnədi
Başımıza od yağır, neyləyim axər əmu

İsti havada uşaq qalsa susuzdan ölər
Xeymədə biz ağlarıq, Kufənin əhli gülər
Qəmli Rübabın qəmin bir fəqət Allah bilər
Su içə əvvəl gərək süd verə madər əmu

Sən bilisən biz gedib düşmənə yalvarmarıq
Babul-həvaic qalıb özgəni axtarmarıq
Məşgilərə bir də bax biz hələ ətşan varıq
Qeyrətinə and içər Ali-Peyəmbər əmu

Sən babamın qəm günü munis -o- qəmxarisən
Bəndeyi saleh adın, dinin ələmdarısan
Onda ki, aldın ələ pərçəmi əhrari sən
Gördü düşüb vəhşətə kinəli düşmən əmu

Get əmu, Allah səni hadisədən saxlasın

Vardı kimin cürəti qollarını bağlasın

Bu gecəni laəqəl qoyma Rübab ağlasın

Versə icazə babm sal çölə məhşər əmu

Kani kərəm əl-ətəş munisi qəm əl-ətəş

Xeymədə ağlır deyir əhli-hərəm əl-ətəş

Dəm hamı dəm əl-ətəş, sahib ələm əl-ətəş

Get suya etsin kömək Qasim -o- Əkbər əmu

## Suyun həyası

**“İnqilabi Huseyni” kitabından**

Bağlanıb su yolları Ali-Türab ağlar

Əsğərə deyər laylay təşnələb Zeynəb ağlar

*****

Bənzir itrəti Yasin bir solan güli yasə

Gözlərində göz yaşı əllərində boş kasə

Südəmər səsin alcaq üz tutublar Abbasə

Eləyib Əbəlfəzli qüssə dilkabab ağlar

Kərbəla qonaqları qalmış ey əcəb teşnə

Su içib rəiyyətlər, xosrovi ərəb teşnə

Mehrdir su Zəhrayə, öz qızları ləb teşnə
Qəhti su olub hali Əhli-beytə su ağlar

Əsğərin susuzluqndan az qalır çıxa canı
Neyləsin həzin madər xoşk olubdu pistanı
Səslənir məni əfv et, yox südüm balam canı
Sinə şam tək suzan, didə çun səhab ağlar

İbtila giriftari doxtərani Tahadır
Cümlə su deyib ağlar özgə şur bərpadır
Didə tər gəzir Səqqa, xeymələrdə qoğadır
Bu məlalə mənada şahi zul-kitab ağlar

Mehri izzətin almış dövrünü ay ulduzlar
Bağlayıbdı mehmanə su yolun vəfasızlar
Vəhşətə düşüb yeksər qorxu görməsin qızlar
Doxtərani məhrəviyyə çeşmi aftab ağlar

İbtila və möhnətdən sanma dincəlib Zəhra
Tiri-ahilə qəlb aləmi dəlib Zəhra

Kərbəlayə cənnətdən mehman gəlib Zəhra

Qəmdən əvvəl xanım tapmış hali inqilab ağlar

Ya Hüseyn geda istər çun himayət hamidən

İstərəm kərəm mən də sən kimi giramidən

Kəsmə, sən anan canı lütfünü Kəlamidən

Nari duzəxə onda yox təvani-tab ağlar

## Susuzluq yanqısı – Ananın dərdi

**“İradətnemeyi Kəlami” kitabından**

Nəhrin yolları – bağlandı Allah

Susuzdan qəlbi – dağlandı Allah

Ağlar hərasan gözlərim – Allahu Əkbər

Məndən süd istir Əsğərim – Allahu Əkbər

*****

Məşgilər xali – əşgilər cari

Kimə tapşırım – bu şirixarı

Yuma bilmirəm – çeşmi xunbari

Odlandı qəlbi müztərim – Allahu Əkbər

Məndən süd istir Əsğərim Allahu Əkbər

Allah Rübabin – qəmlidi halı
Yanır ətəşdən – dilsiz maralı
Gül tək solubdu – pozğun camalı
Dildən düşüb dilbərim – Allahu Əkbər
Məndən süd istir Əsğərim – Allahu Əkbər

Bizə düşməndi – himayət yoxdu
Od yağır göydən – hərarət çoxdu
Oğlumun ahı – qəlbimə oxdu
Soldu güli niluferim – Allahu Əkbər
Məndən süd istir Əsğərim – Allahu Əkbər

Dillərdə vardı – niskilli sözlər
Solmuş camala – tökər su gözlər
Bu ağlar gözlər – Səqqanı gözlər
Hanı saqiyi-Kosər – Allahu Əkbər
Məndən süd istir Əsğərim – Allahu Əkbər

Rüqəyyə ərşə - şivən salıbdı
Əsğərə əzbəs – laylay çalıbdı

Deyir qardaşım – susuz qalıbdı

Qəmdən sınıb bali-pərim – Allahu Əkbər

Məndən süd istir Əsğərim – Allahu Əkbər

## Ya Saqiyi-Kərbəla

**“Nalehayi Kəlami” kitabından**

Bilisən ki, xeymədə yoxdu su

Suyu eyləyir hamı cüstücu

Bizi istir öldürə bu ədu

Susuzam əmu, susuzam əmu

*****

Su sözü düşüb əmu dillərə

Su tapammıram Əli Əsğərə

Elə çarə bu dili müztərə

Susuzam əmu, susuzam əmu

Qolunun fədası olum özüm

Mənə rəhm elə sənə var sözüm

Dolub əşkilə hər iki gözüm

Susuzam əmu, susuzam əmu

Bizi yordu möhnəti Kərbəla
Gəlib əmməm Əsğərə su ala
Dili olsa səslənər ol bala
Susuzam əmu, susuzam əmu

Qəm oxu yaxındı ürək bölə
Ki, bəla yağır əmu bu çölə
Nə rəva qonaq da susuz ölə
Susuzam əmu, susuzam əmu

Bax əmu əsən əl-ayağıma
Ki, əsib xəzan yeli bağıma
Nəzər elə teşnə dodağıma
Susuzam əmu, susuzam əmu

Saralıbdı rəngi gözəllərin
Ucalıbdı naləsi ellərin
Ver icazə qoy öpüm əllərin
Susuzam əmu, susuzam əmu

## Məşgilər xalli əşgilər cari

**“Yadigari Səid” kitabından**

Balalar susuzdu Səqqa ürəyində min qəm ağlar

Bir əlidə xali məşgi, bir əlində pərçəm ağlar

*****

Hərəmi Əbu Turabə su yolun kəsibdi əda

Südəmər beşikdə bitab, anası ürəkdə qoğa

Deyir indi Zeynəb ey kaş gələ Kərbəlayə Zəhra

Balası ölür Rübabın, bu məlalə aləm ağlar

Baxır aləmi bəladə suya Fatimə mükəddər

Deyir ey Xuda, Hüseynə qadağandı mehri-madər

Ananın döşündə süd yox, əmə şirixari Əsğər

Nigərandı çeşmi Kosər, gözü yaşlı zəmzəm ağlar

Nə cahanda görsənəydin, nə rəvan olaydın ey su

Qədəh əldə teşnələrdən nigəran olaydın ey su

Su deyib yanır Rüqəyyə belə qan olaydın ey su

Dodaqın nişan verəndə ona nəhri Əlqəm ağlar

Utanaydı əhli Kufə ki, Hüseynə namə yazdı
Qələmilə mizbanlar şühədayə qəbir qazdı
Şərəfin satan Şüreyhə hamı lənət etsə azdı
Beli lərzə fitnəsindən edib ərşi əzəm ağlar

O qəbilə ki, Hüseyni evinə qonaq çağırdı
Su da vermədi qonağa ona dami fitnə qurdu
Qanını töküb ərəblər başını cidayə vurdu
O şəhidə şiə hər il dəheyi-Məhərrəm ağlar

O diyaridə Hüseynin işi bir yerə yetişdi
Özü şibhi Mustafaya kəfən öz əliylə biçdi
Əli üstə şirixara bala oxlanıb qan içdi
Ona həşr olunca saxlar ədəb əhli matəm ağlar

Su sözün demə Kəlami gözümün yaşı dayanmır
Qəmin indidə Rübabın o ki, dərdi yox inanmır
Dedi neylərim ilahi, yaralı balam oyanmır
Könlümün qəmin danışsam güli yas -o- məryəm ağlar

## Aşura gecəsinin növhəsi

**“Nəvayi Kəlami” kitabından**

Bu gecə qəm fəzadı – qəmli şəbi əzadı

Gözlər əgər Hüseynə – ağlasa qan səzadı

Allah Allah – göyləri ahu-va alıb

Kərbəlada – Fatimə oğlu tək alıb

Va Hüseyna

*****

Getdi o biədəblər – namə yazan ərəblər

Tərk elədi Hüseyni – o aqibət tələblər

Qaldı sipahi canan – yetmiş iki rəcəzxan

Vəhdətə müntəsəblər – eşqidə müntəxəblər

Allah Allah – göyləri ahu-va alıb

Kərbəlada – Fatimə oğlu tək alıb

Va Hüseyna

Gördü xanım Səkinə - getdi o əhli kinə

Gözləri yaşlı gəldi – məhzəri şahi dinə

Ərz edib ey ləbətşan – şəmi şəbi-qəriban

Kim olacaq bu çöldə – yavəri din -o- Quran

Allah Allah – göyləri ahu-va alıb

Kərbəlada – Fatimə oğlu tək alıb

Va Hüseyna

Vurdu şəhi Mədinə – busə o nazəninə

Söylədi etmə nalə – ey gülü biqərinə

Düşmə qızım qüvadan – istə kömək Xudadan

Yox atanın bilirsən – hacəti müşrikinə

Allah Allah – göyləri ahu-va alıb

Kərbəlada – Fatimə oğlu tək alıb

Va Hüseyna

Haqq özü dadrəsdi – cana cahan qəfəsdi

Qalsa fəqət Hüseynin – südəmər oğlu bəsdi

Qoy bala getsin əğyar – getməz əmin ələmdar

Qurana and içibdi – itrətə həmnəfəsdi

Allah Allah – göyləri ahu-va alıb

Kərbəlada – Fatimə oğlu tək alıb

Va Hüseyna

Canlar o cana qurban – cani cahana qurban
Yetmiş iki dilavər – mərdi zəmanə qurban
Qaldı o bavəfalar – aşiqi biriyalar
Göydə dedi mələklər – haşimiyanə qurban
Allah Allah – göyləri ahu-va alıb
Kərbəlada – Fatimə oğlu tək alıb
Va Hüseyna

Xamuş olub çıraqlar – getdi gələn qonaqlar
Vəhşətə düşdü Allah – qəlbi sınan uşaqlar
Xeymədə Zeynəb ağlar – qardaşını sorağlar
Şiə o qəmli halə – indi də sinə dağlar
Allah Allah – göyləri ahu-va alıb
Kərbəlada – Fatimə oğlu tək alıb
Va Hüseyna

Getmədi Qasim, Əkbər – oldular yari-rəhbər
Cilvələrindən oldu – bəzmi vəfa münəvvər
Dəsti Hüseyni Abbas – öpdü zəmani həssas

Pərçəmi altda qaldı – Onilə, Fəzl -o- Cəfər

Allah Allah – göyləri ahu-va alıb

Kərbəlada – Fatimə oğlu tək alıb

Va Hüseyna

## Çarəsiz ana

**“Aşiqani şəhadət” kitabından**

Gözlərim fəda sənə ağlama susuz balam

Süd yoxumdur vay mənə, ağlama susuz balam

*****

Altı aydı vermişəm süd payını günbəgün

Üç gecə düşüb dala ay bala süd əmməyin

Etmə sinəmi xəraş, qanə batdı köynəyin

Qoy mən ağlayım sənə, ağlama susuz balam

Su verəllər hər gülə, su içib saralmaya

Qol-budağı sınmaya, gülşəni qəm almaya

Qorxuram mənim gülüm sübhə zində qalmaya

Bülbüləm bu güləşənə, ağlama susuz balam

Haqlısan bu barədə teşnəsən xəbər varım
Sən yorulmusan bala? Bax yoruldu qollarım
Səbr elə yorulmuşam, bəs nə qədri yalvarım
Əşg tökmə damənə, ağlama susuz balam

Əllərin keçən gecə qundağında bağladım
Baş çəkib çadırlara hər yeri sorağladım
Gördüm hamı teşnədi, başa vurdum ağladım
Açdım əllərin yenə, ağlama susuz balam

And ola anaların xalisanə rəşginə
And ola Rüqəyyəmin qətrə-qətrə əşginə
And ola Əbülfəzlin boş qalan su məşginə
Şərmsaram ay nənə, ağlama susuz balam

Halını görən yanır çarə yoxdu bu hala
Az qalır susuzluğun canıma şərər sala
Üz-gözündən od yağır, su tapammıram bala
Gəlmə belə şivənə, ağlama susuz balam

Axtarar su bağiban gülüstanda, susənə

Susənim tapammıram su yanında su, sənə

Heç tərəhhüm eyləmir bihəya ədu sənə

Ləni Haqq bu düşmənə, ağlama susuz balam

## İmtahan gecəsi

**“Kəlami Kəlami” kitabından**

Bəhri-bəlanın bu gecə daşmış bəlası

Küffaridən möhlət alıb Zəhra balası

*****

Səhrayi-eşqə xirədir əhli səmavat

Məbud ilə üşşaqi haqq eyləyir münacat

Dəşti-bəladan ərşə çıxmış soti-ayat

Gərm eyləyib eşq əhlini Quran sədası

Çün faş edib sirri vəliyyi-Zati Xəllaq

Şadi-xüramandır hamı yarani-üşşaq

Hər tək-təki olmuş ürəkdən mərgə müştaq

Vəslə bəli, mail olur eşq aşinası

Olmuş pərişan -o- qəminhal, əhli məna
Cənnətdə Zəhra baş açıb, giryandı Taha
Söylər mələklər bir-birə gər sübh açılsa
Öz qanına qəltan olur din rəhnüması

Rahi-həqiqət salliki şəmsi imamət
Yəni Hüseyn ol sahibi məcd -o- cəlalət
Bir xeymədə eylir xanım Zeynəblə söhbət
Dori-xiyamı gözləyir sahib livası

Pərvanə misli Zeynəbi Siddiqə mənzər
Dori Hüseynə zoqu-şoqilə vurar pər
Bu eşqilə bilməm nə noyi taqət eylər
Görsə batıb qanə Hüseyn məhliqası

Su yollarını bağlayıbdır əhli-kinə
Çıxmış ənəl-ətşan səsi ərşi bərinə
Səqqaya cam əldə deyir nazlı Səkinə
Eylə fərahəm su əmu Allah rizası

Əhli-hərəm öz nalə və şurun azaltmır
Bir xeymədə qəm qərq edib Leylanı yatmır
Peyğəmbərə bənzər balasın gözdən atmır
Amma yaxındır heyf ola Əkbər əzası

Şami-müsibətdir gəlib dərdə ürəklər
Baxdıqca ağlır Qasimə qəmdidə madər
Bilmir vəli sübh olsa çox həsrətlə səslər
Ey vay balam toy etmədi başlandı yası

Zəhra gülüstanındəki güllər saralmış
Üç gündü Ali-Mustafa ləbteşnə qalmış
Şeşmahə öz tiflin Rübab ağuşə almış
Çox yandırır ol qəmkeşi Əsğər nəvası

Çəngi xətər zürriyyeyi Tahanı tutmuş
Xofi ədu möhnətzədə tiflanı tutmuş
Şivən səsi ərşi Həqqi Subhanı tutmuş
Mənada ağlır Allahın ərzi səması

Amma düşübdü fikrə ol qoğadə Səqqa

Dori xiyamı seyr edir səhradə Səqqa

Hər xırda bir tiflil görən əsnada Səqqa

Qəlbi olur dərdu-qəm -o- möhnət sərası

### Quran tilavəti

**“Zəxireyi Kəlami” kitabından**

Bu gecə dəşti-bəlada eşq edib tufan ilahi

Qozanır ərşə hərəmdən nəğmeyi Quran ilahi

Göydəki ulduzlar ağlar

Zeynəb ağlar qızlar ağlar

*****

Qıldı Zeynəb şəb namazın gəldi görsün şahi razın

Gördü mövla xeyməsində başlayıb razu-niyazın

Səcdədən baş qaldıranda istədi öpsün boğazın

Vermədi göz yaşı möhlət eylədi əfğan ilahi

Göydəki ulduzlar ağlar

Zeynəb ağlar qızlar ağlar

Ərz edib qardaş fədayəm səndə hali-inqilaba

Zeynəbinlə söhbət eylə, bax məni bisəbr -o- tabə
Əsğərə sən hicrət öyrət, mən yanım hali-Rübabə
Neyləsin daği-Hüseynlə Zeynəbi nalan ilahi
Göydəki ulduzlar ağlar
Zeynəb ağlar qızlar ağlar

Bu gecə olmuş nigəhban xeymələr dorində Abbas
Əsğərin halın biləndə qəlbi titrir çün güli-yas
Oğluna qəbl əz şəhadət qəmli madər saxlayıb yas
Can verir gəhvarəsində Əsğəri ətşan ilahi
Göydəki ulduzlar ağlar
Zeynəb ağlar qızlar ağlar

Kainat ağlar Rübabə oğluna laylay deyəndə
Nə südü var sinəsində, nə su vardı əncüməndə
Yandırır Əsğər anasın dil-dodağın görsədəndə
Qorxulu səhrada tapmır dərdinə dərman ilahi
Göydəki ulduzlar ağlar
Zeynəb ağlar qızlar ağlar

Ərz edir Əsğərlə Allah bu cahanda zindəyəm mən

Əsğərim getsə əlimdən neylərəm şivəndəyəm mən

Sinəmə dırnaq vurur hey ey Xuda, şərməndəyəm mən

Yandırır ahilə qəlbi bu susuz qurban ilahi

## Aşuranın kəfən geyənləri

**“Kəlami Kəlamı” kitabından**

Hüseyn bizdən o yarani ləbətşana salam olsun

Bəla dəştində torpağa axan qana salam olsun

*****

Xuda eşqilə ayrıldın hərəmlərdən, balalardan

Nəva qozandı əflaka bacılardan, analardan

Töküldü üstüvə ləşkər axıb qan yaralardan

O qanlı xəncər altında çıxan cana salam olsun

Məhərrəmlər olanda şiənin ərşə çıxar ahı

Geyər aşiqlərin qarə ürəkdə ahi cankahi

Əl üzməz dəmənindən bu məhəbbət əhli, vəllahi

Ölüncə səslərik şahi şəhidana salam olsun

Hüseyncan kişvəri eşqə gözəl fərmanrəva sənsən
Ürəklər dərdinə mövla dəva sənsən, şəfa sənsən
Gülü-gülzari hürriyyət, şəhidi Kərbəla sənsən
Səfası Ədəndən artıq gülüstana salam olsun

Hüseyncan sən rəhi təqva -o- imanda qədəm vurdun
Həqiqətdən şəhi mərdan kimi hər ləhzə dəm vurdun
Adın qurbanı, sən qurbangəhi eşqə ələm vurdun
Minayi eşqidə ləbteşnə qurbana salam olsun

Bəqa üstə fəna oldun, özün haqqa fəda verdin
Yaralı qəlbilə sən qəlbi-üşşaqə səfa verdin
Dedin heyhat minnəz-zillə, əhrara nida verdin
Dodağından çıxan avayi-Qurana salam olsun

O gülşən ki, suvardın qanilə Həşrə kimi solmaz
Həvadis badı nəxli inqilabı rişədən yolmaz
Dedin azadə insanlar əsiri dəsti zülm olmaz
Olan sərməşqi aləm xətti ünvana salam olsun

Təriqi həqda hər dərdi-müsibətə riza oldun

Yaralı halda mehmani hərimi Kibriya oldun

Edib biganəni rüsva qüluba aşina oldun

Qalan ey əhdidə möhkəm, o peymana salam olsun

## Hürri Riyahinin növhəsi

**“Nidayi Kəlami” kitabından**

Mənə bax ya mövla – Hürrü zəliləm mən

Sənə dəxiləm mən  – günahım çoxdu

Səni Zəhra canı – məni halal eylə

Rəfi məlal eylə - pənahım yoxdu

Peşimanəm, peşimanəm

Hüseyn canəm, Hüseyn canəm

*****

Yolunu mən kəsdim – utanmadım səndən

Əvəz çıxma məndən – utannam mövla

Qapına gəldim bir – aləm günah ilə

Başına ah ilə – dolannam mövla

Təqsirimi keçsən – bəha verrəm cana

Rikabında qana – boyannam mövla

Görürsən sinə suzanəm
Hüseyn canəm, Hüseyn canəm

Balaca qızları – mən yolda qorxutdum
Ürək qanın uddum – mənə vay olsun
Mənəm əsli bais – qoşun dorin aldı
Susuzdan az qaldı – gülüstan solsun
Özüm imza verrəm – dediyim sözlərə
Bu ağlar gözlərə – gərək qan dolsun
Qəriqi bəhri üsyanəm
Hüseyn canəm, Hüseyn canəm

Sən güzəşt etməsən – bu səngin günahı
Rüqəyyənin ahı – tutar gözümdən
Cürmə iqrar etdim – yatan bəxtim durdu
Vicdan sili vurdu – qara üzümdən
Keç mənim cürmümdən – azad olum oddan
Amadəyəm əlan – keçəm özümdən
Muini dini Quranəm
Hüseyn canəm, Hüseyn canəm

Qərəz eşqi Hürrün – yetib həddi ovcə
Rəhmət gəldi mocə - tutub daməndən
O qədər yalvardı – əlin tutdu mövla
Dedi başın qaldır – utanma məndən
Sevinib ərz etdi – ələ imkan saldın
Hezaran şükr aldım – rizayət səndən
Mən indi qərqi ehsanəm
Hüseyn canəm, Hüseyn canəm

Barəkəllah, Hürrə - qəyur olsa insan
Olar əhli ğüfran – ədəb gör neylər
O günah ilə gör – necə tapdı rüchan
Ona Məhdi əlan – gələr salam eylər
Yıxılıb mərkəbdən – dedi bax bu hala
Mənə eylər nalə - nəvalı neylər
Bu yolda qanə qəltanəm
Hüseyn canəm, Hüseyn canəm

Səsin aldı mövla – gəlib başı üstə

Məluli dilxəstə – görüb əhvalın

Yaralı başdan – sinəsin dağladı

O başa bağladı – gözəl dəsmalın

Dedi Yəbnəz-Zəhra – mənə xoşdur bu hal

Ucatdı bu dəsmal – başım iclalın

Xanım Zəhraya mehmanəm

Hüseyn canəm, Hüseyn canəm

Ey Hüseyn, ey Hürrü – edən sahib mənsəb

Səni cani Zeynəb – bizə qıl ehsan

Kərbəla eşqilə –dönüb əşkim selə

Məzarına eylə – bu cəmi mehman

Gələk ol dərbarə – açaq qarə pərçəm

Kəlamilə bahəm – deyək mövlacan

Mütəhhər qəbrə qurbanəm

Hüseyn canəm, Hüseyn canəm

## Günahkar aşiqin əhvalatı

**“İradətnameyi Kəlami” kitabından**

Ey nəveyi Peyəmbər – taqəti qəlbi Heydər

Qovma məni qapından – cani Əli Əkbər

Hüseyn canəm – dərdə giriftarəm ağa

Məni əfv et – Hürrü günəhkarəm ağa

Hüseyn canəm

*****

Var ürəyimdə yarə – dərdimə eylə çarə

Ağlamışam doyunca – gül üzümə dubarə

Günahım var – zari diləfkarəm ağa

Məni əfv et – Hürrü günahkarəm ağa

Hüseyn canəm

Mən bu işə tələsdim – çarəni yolda kəsdim

Oldu ürək pəşiman – vəhşəti qəmdən əsdim

Qəbul et sən – nokəri dərbarəm ağa

Məni əfv et – Hürrü günahkarəm ağa

Hüseyn canəm

Düzdü nə layiqəm mən – eşqidə sadiqəm mən

Lənət ola Yəzidə – Hüseynə aşiqəm mən

Havadari – itrəti ətharam ağa

Məni əfv et – Hürrü günahkarəm ağa

Hüseyn canəm

Var ürəyimdə ehsan – bax mənə vəqti həssas

Gəlmişəm izzətilə - olam qulami Abbas

Bu dərgəhdə - əbdi Ələmdaram ağa

Məni əfv et – Hürrü günahkarəm ağa

Hüseyn canəm

Ətrini almışam mən – çox gecə qalmışam mən

Qızlarını gələndə – vəhşətə salmışam mən

Eylə dərman – qüssəli bimarəm mən

Məni əfv et – Hürrü günahkarəm ağa

Hüseyn canəm

Etdi səni bu ümmət – mülkü İraqa dəvət

İndi qanın töküllər – əhli cəfaya lənət

Bu aləmdən – mən dəxi bizaram ağa

Məni əfv et – Hürrü günahkarəm ağa

Hüseyn canəm

## Xalisanə yalvarış

**“Zəxireyi Kəlami” kitabından**

Ey zadeyi Xeyrun-nisa Hüseyncan

Hürrəm pəşimanəm ağa Hüseyncan

Məndən xəta, səndən əta Hüseyncan

*****

Kəsdim yolun saldım səni bəlaya

Çəkdim sizi səhrayi Kərbəlaya

Verrəm qəsəm ixlasi Mürtəzaya

Sal başıma zilli hüma Hüseyncan

Ey aftabi por füruği iman

Qovsan da mövla getmərəm qapından

Bu bəndeyi-nalana eylə ehsan

Sən bil Əliyyi Mürtəza Hüseyncan

Siz xanəvadə mənbəyi kərəmsiz

Allah yanında bəs ki, möhtərəmsiz

İclali Kəbə, məhrəmi hərəmsiz

Ey xamisi Ali-Əba Hüseyncan

Gec gəlmişəm, amma riya yoxumdu
Sənsiz mənim fülki-nica yoxumdu
Dərmandəyəm dərdə dəva yoxumdu
Bu dərdə sən eylə dəva Hüseyncan

Versən icazə qanıma boyannam
Övladi Haşim başına dolannam
Vəllahi Zeynəbdən Hüseyn, utannam
Biçarəyəm eylə dua Hüseyncan

Abbasa tapşır qovmasın qonağın
Versin icazə bus edim ayağın
Allah dağıtsın kufiyan tifaqın
Yox bu camaatda vəfa Hüseyncan

Kim sadiq olsa eşqidə Kəlami
Məsum imama düz verər səlami
Neynir Hüseyn, bimərifət qulami

Yalvar denən rəhm eylə ya Hüseyncan

## Ya Əliyyibni Hüseyn (ə)

**“Ərizeyi Kəlami” kitabından**

Kəfən geydi eyləyə dinə – can fəda Əli Əkbər

Alıb sibqət Ali-Haşimdən – bavəfa Əli Əkbər

Cəngə oldu amadə – qəhrəmani azadə

İtrəti Rəsulullah – gəldi ahu fəryadə

Güli-Zəhra, məzhəri Taha – nuri-dideyi Leyla

Gedir rəzmə fi səbilillah – əhdə eyləsin ifa

Oğul ardınca oxur Quran – höccəti Həqqi Yekta

Mələklər də ərşidə səslir – mərhəba, Əli Əkbər

Xanım qızlar xeymədən çıxdı – ta hamı vida etsin

Vəli Əkbər çox şitab eylir – tez muradına yetsin

İmam əmr etdi keçir vəqti – dinməyin, qoyun getsin

Gedir mehman cəddinə şibhi – Mustafa Əli Əkbər

Kəmərbəndin bağladı möhkəm – Kərbəla kəfənpuşu

Gedir ətşan batmağa qanə – vəhdətin qədəhnuşu
Salır dildən hər neqah ilən – aşiqani mədhuşu
Olubdu Allaha dildadə – dilrüba Əli Əkbər

Salam olsun əhli təqvadən – ol cavani valaya
Olub ülqu əzmi ahəngi – peyrəvani təqvaya
Atası səslir boyun qurban – get hüzuri Zəhraya
Behişti Zəhraya mehmandı – basəfa Əli Əkbər

Əgər Leyla Kərbəladaydı – hətmən ahu-vadaydı
Oğul meydana gedən vəqtdə – bir gözü anadaydı
Bir üç yaşı nazənin tiflin – əlləri duadaydı
Rüqəyyə ahilə səslirdi – dur əxa, Əli Əkbər

Qərəz getdi hamiyi Quran – rəzmgahi mərdanə
Durub təll üstə Hüseyn baxdı – ol muini Qurana
Dedi: Allah şahid ol oğlum – az qalır bata qana
Qəbul eylə oldu eşqinlə – aşina Əli Əkbər

Cihad etdi ya Əli dildə – dilrübayi alullah

Axıb qanı görsənib gözdə cilveyi cəlalullah

O halda vəchullah baxdı – məzhəri camalullah

Yara başda Heydərə etdi – iqtida Əli Əkbər

## İmam Hüseynin (ə) Əli Əkbəri meydana yola salması

**“Zəxireyi Kəlami” kitabından**

Oğul get qanlı meydana – vəli ahistə-ahistə

Məni sal dərdi hicranə – vəli ahistə-ahistə

Rəsulə bənzərim yavaş get

Ədəbli Əkbərim yavaş get

*****

Oğul sən Ali-Haşimdən – cihadə almısan sibqət

Cəzakəllah, bu isarın – olar sərməşgi hər ümmət

Qədəm atdıqca sən ruhum – uçur ey yar məh tələt

Üruc et ovci irfanə – vəli ahistə-ahistə

Oğul mən höccətullaham – imamət səbri var məndə

Vəli sən olmasan qəlbim – olar dərdilə akəndə

Vurallar yarə başından – mürüvvət yoxdu düşməndə

Nişan ol zəxmi peykana – vəli ahistə-ahistə

Vida etdin xəvatini – yol üstə əmmələr durdu
Töküldü dorüvə qızlar – qəmin Zəhranı yandırdı
Xüdahafiz dedin çıxdın – hərəmlər başına vurdu
Gözaltı bax bu tufana – vəli ahistə-ahistə

Əli ətri gəlir səndən – odur adın Əli qoydum
Geyəndə sən kəfən mən də – libası işrəti soydum
İcazə ölməyə verdim – vəli səndən demə doydum
Özün vur bəhri böhrana – vəli ahistə-ahistə

Xuda şahiddi bu hicran – çətindi Ali-Tahaya
Düşəndə yadıma cəddim – baxardım qəddi rənaya
Get ol, Firdosi əlada – Rəsulullaha həmsayə
Əlindən öp yana-yana – vəli ahistə-ahistə

Açıldı sübhü Aşura – sən ixlası nişan verdin
Namaza durdu aşiqlər – qabaqda sən azan verdin
Cavanani sələhşura – rəməq verdin, tavan verdin

Axıb göz yaşı damanə – vəli ahistə-ahistə

## İmam Hüseynin (ə) Əli Əkbər ilə (ə) vidalaşması

**“Peyami Kəlami” kitabından**

Allah bu balam Əkbərdi – ayineyi Peyğəmbərdi

Balamı cihada yolluram ətşan fəda olsun

Gözəlim keçir candan ki, ta Canan riza olsun

Allah – Allah – Allah – Allah

*****

Bu mən, bu oğlum, bu diyari Kərbəla ya Rəbb

Yox cayi şikvətul-bəlu lilvila ya Rəbbə

Əvvəl qətili Ali-Haşimdi bu qurbanım

Yormaz Hüseyni başa gəlsə hər bəla ya Rəbb

Allah – Allah – Allah – Allah

Yollandı gülüm meydana – şəmi ədəbə pərvanə

Dalısıyca Leyla göz yaşın eylir rəvan ağlır

Nənə yerdə ağlır, göydə əhli asiman ağlır

Allah – Allah – Allah – Allah

Cəddim düşəndə yadıma ey Xaliqi zul-mən
Ahilə bu nurani simaya baxardım mən
Quran yolunda hazıram oğlum bata qana
Bəlkə bu qanlar Kərbəlanı eyiliyə gülşən
Allah – Allah – Allah – Allah

Oğlum mənə poştibandı – gül tək dodağı ətşandı
Bu gülü həmişə xürrəmi şadab elə Allah
Balamı minayi-eşqidə sirab elə Allah
Allah – Allah – Allah – Allah

Eşqin əzizim aləmə dildən nişan verdi
Candan keçib İslama ruhi cavidan verdi
Sübhə kimi Quran tilavət eyləyib oğlum
Durdu namaza xeymə dorində azan verdi
Allah – Allah – Allah – Allah

Çəkdim balamı ağuşə - aldım dodağından tuşə
Dodağından öpdüm çün gülü baği Peyəmbərdi
Gözəl Əkbərim nəğməsi Allahu Əkbərdi

Allah – Allah – Allah – Allah

Can bəsləyib bu sərvi azadə bata qana

Əvvəl kəfən geydi ki, dərs olsun şəhidana

Doğrsansa cismi bu minada eybi yox ya Rəbb

Min belə oğlum olsa da qurbandı Qurana

Allah – Allah – Allah – Allah

**Əssəlamu ələl-Huseyn və əla Əliyyibnil-Huseyn və əla əvladil-Huseyn və əla ənsril-Huseyn**

## Əli Əkbərin (ə) şəhadəti

**"Asari Kəlami" kitabından**

Atdan yerə çün düşdü – Leylanın əziz oğlu

Bilməm nə hala qaldı – Zəhranın əziz oğlu

Su yerinə içdi qan Əli Əkbər

Ruhi ləkəl fida can Əli Əkbər

*****

Məzlum atası gəldi, Əkbər başının üstə

Gördü boyanıb qana, dürdaneyi dilxəstə

Aldı dizinin üstə, qanlı başı ahistə

Öpdü balsın şahi-mərdanın əziz oğlu
Su yerinə içdi qan Əli Əkbər
Ruhi ləkəl fida can Əli Əkbər

Səslədi gülüm laylay, arami dilim laylay
Dur titrir əlim laylay, laylay gözəlim laylay
Sən cəddinə mehmansan, qoy mən də gəlim laylay
Ey Leyliyi məhzuni nalanin əziz oğlu

Meydanda gülür düşmən ağlır şəhi biyavər
Səslir yaralı oğlun bəlkə oyana Əkbər
Səd parə olub peykər qan ilə dolub gözlər
Qurana olub qurban mövlanın əziz oğlu

Bikəs ata ahilə əflaka nəva saldı
Mənada xanım Zəhra başına qara saldı
Gül min vərəq olmuşdu, topraqə əba saldı
Yığdı gülü gülşəndən, Tahanın əziz oğlu

Səsləndi ələmdari, gəl dadimə qardaşım

Səslən gələ meydana cavanani Bəni-Haşim

Nəşi götürün yerdən, döndü qana göz yaşım

Doğrandı susuz şahi ətaşanın əziz oğlu

Ehzar elədi Səqqa yarani dil agahi

Təcil edin ey dinin ənsari həvaxahi

Siz həml eləyin nəşi, mən də götürüm şahi

Qaldı balasız şahi-Bəthanın əziz oğlu

## Son salam

**“Yadigari Səid” kitabından**

Baba gəl bu teşnə qurban qalıb əhli Şam əlində

Sənə müntəzirdi cəddim başım üstə cam əlində

*****

Bu susuz qana boyanmaq mənə abiru gətirdi

Göz açıb Rəsulu gördüm iki kasə su gətirdi

Biri bunların sənindi o mələkxülq gətirdi

Şərəri ətəş babamın tapıb iltiyam əlində

Biliərəm atalıq haqqın vardı boynumda

Edirəm əda bu deyni kəfənimdi qan tənimdə
Gözəlim təcəlli eylə mənə Tur əymənimdə
Görə “ərini” dildə Musa əlimi imam əlində

Mənə kim çatar kamali əzəmətdə şahi xuban
Babam üsveyi şərəfdi, ata sərvəri şəhidan
Yeri vardı mən edəndə özü qanlı rəzmi rizvan
Çıxa Həmzə pişvazə qırmızı gül əlində

Bu qoşunda mərifət yox belə mənzilətdə kimsən
Vəli mən güvahi eşqəm ki, müdəbbiri həkimsən
Mənim aləmi “ələst”ə əzəli müəllimimsən
Mələkutun ixtiyarı var ələddəvam əlində

Köməyin darıxma azdı nə qəm ey vəliyyi mütləq
Mənə barha buyurdun bizimlədir nüsrəti Həqq
Əbədi zəfər sənindi vur ürəklər üstə bayraq
Ucalar bu qanlı pərçəm göyə xassi əvam əlində

Həzər etmərəm ölümdən ki, muini Quranam mən

Gərək eşqidə səməndər kimi od tutub yanam mən
Baba səbəbi şərəfdi hədəf üstə doğranam mən
Ucalar mücahid aşiq həqqi layənam əlində

Buyur əmməmə bu halı anama yetirməsinlər
Nənə ayrılıq çəkəmməz bu sözü itirməsinlər
Ki, çıxanda pişivazə anamı gətirməsinlər
Mütəlaşidir bu əza sipəhi zülam əlində

Hər oğlu əda gərəkdi edə həqqi valideyni
Anamın əlindən öpdüm ola ta ədayi deyni
Mənə bax görüm üzündə cələvati qiblətəyni
Ola xoşdu eşqim imza şəhi zül-kəram əlində

Baba çeşmi intizara gözümün ziyası qurban
Dili təngi dağidarə başımın yarası qurban
Ola xoşdu haqq yolunda ataya balası qurban
Nə qəmi bu şahizadə qala min qulam əlində

Demirəm cavanlar içrə Bəni Haşimə fəqihəm

Demirəm xəlayiq içrə baba cəddimə şəbihəm

Həsənati qan çoxaldar hamıdan bu gün vəcihəm

Qədəhi şəhadətim var şəhi teşnəkam əlində

Hələ yerdədi Kəlami qətərati xuni-Əkbər

Alacaqdı intiqamın o ki, Mustafaya bənzər

Demə qanlı yol açılmır darıxıbdı heyətilər

Açılar gələndə Qaim ələmi qiyam əlində

### İmamın (ə) sözləri

**“İradətnameyi Kəlami” kitabından**

Can əziz canım Əkbər - əvvəlin qurbanım Əkbər

Eyləmə Leylanı məcnun – Yusifi Kənanım Əkbər

Etmə mənzil bu zəmini Kərbəlanı

Yığmağa nəşin oğul açdım əbanı

Can Əli Əkbər bala

Şibhi Peyğəmbər bala

****

Var başında tazə yarə qan axı bu gülüzarə

Şaməcən ağlar dalınca Ümmü Leyla başda qarə

Gözlərin elan edir kamə çatıbsan

Gün qabağında belə rahat yatıbsan

Səslədin gəldim haraya ta salam bu cismə sayə

İrbən-irba doğranıbsan qoy yığım nəşin əbayə

Bir-birindən üzvlər düşmüş aralı

Can yaralı, can yaralı, can yaralı

## İmam Hüseynin (ə) sözləri

**“Mubahati Kəlami” kitabından**

Bacı ver mənə təsəlla qana batdı Əkbər oğlum

Özü getdi rahət oldu məni etdi müztər oğlum

*****

Bu gözəl şəhidin adı hamı dərdlərə dəvadı

Alıb imtiyazi sibqət bu təfəzzüli Xudadı

Ələvi qəbiləmizdən balam əvvəlin fədadı

Şühəda içində tapdı dərəcati bərtər oğlum

Yarasın görəndə başda mən Əlini yadə gətdim

Elə ağladım bu qəmdə mələkuti dadə gətdim

Dağılıb vücudu gül tək balamı əbada gətdim
Tökülün deyin xoşaməd yorulub dilavər oğlum

Təzə pirəhən cəvanə yaraşar səfası vardı
Gör əzizimin bədəndə nə gözəl libası vardı
Hələ də qanı kəsilmir başının yarası vardı
Geyib iştiyaqilən gör necə rəxti əhmər oğlum

Olub ümmətin fədası bu Rəsulə əşbəhunnas
Məni pozdu dağı bilməz bu halı cüz əhli ehsas
Bacı təllidən enincə yapışıb əlindən Abbas
Ürəyimdən aldı taqət o vəfalı dilbər oğlum

Bilisən ətəş balamı necə eləmişdi bitab
Nigərani hali olma eləyibdi nazilən xab
Dəmi-vapəsin olubdu babamın əlilə sirab
Nə niyazı var Fəratə içib abi Kosər oğlum

Anası əgər gələydi başı üstə can diyərdi
Bacısı əgər olaydi yanıb əl-aman diyərdi

Bacı var yadında oğlum nə gözəl azan deyərdi
Yumulub daxı dodağı danışanmır Əkbər oğlum

Balamın müsibətindən bacı mən deyim sən ağla
Gülümün təravətindən bacı mən deyim sən ağla
Qəmi binəhayətindən bacı mən deyim sən ağla
Elə bil şüküftə güldü solub oldu pərpər oğlum

Bala dağı görsə hər kəs olur qaməti hilali
Ata oğlunu görəmməz boyanıb qana cəmali
Vəli öz gözümlə gördüm mən o can verir yarali
Dedim aç gözün qucaqla məni bari digər oğlum

Nə onun təvanı oldu nə mənim qalıb qərarım
Nə onun gözü açıldı nə mənim dili fikarım
Bir əsfəli şəhqə vurdu o nigarı gülüzarim
Uçub oci eşqə oldu hərəmə kəbutər oğlum

Görüb üzdə haşimi xal, o cəmalə busə vurdum
Bala vay dedim ki, şayəd gələ halə busə vurdum

Bacılar niyabətindən mən o xalə busə vurdum

Gözəl ətrilə məşamim elədi müəttər oğlum

Əgər Əkbərin Hüseyncan nəzər eyləsə türabə

Yeri var şərəfdə topraq edə fəxr Günəşə

Sən əgər ona buyursan yazar adımı kitabə

De Kəlaminin adın da elə səbti dəftər, oğlum

### Həzrəti Qasımın (ə) nidası

**"Kəlami Kəlami" kitabından**

Gördü Hüseyn çün Qasımı kəfənpuş

Qardaş balasıyla olub həmağuş

Eşqilə Qasim – meydanə gəldi

Mənada Zəhra - əfğanə gəldi

*****

Puri Həsən zikri Xuda dilində

Gəldi durub ləşgər müqabilində

Həqq həqq dilində əsləhə əlində

Roşəndi şəmi mərifət dilində

Etsin nəsihət – üdvana gəldi

Səsləndi ləşgər sibti Heydərəm mən
Aslani meydanəm dilavərəm mən
Həmsəngəri porşuri Əkbərəm mən
Beyət əlin əşrarə verməərəm mən
Canim həvayi – cananə gəldi

Əzrəq çıxıb sərdari min səvarə
Məğrur olub baxdı o can nisarə
Dörd oğlunu göndərdi karizarə
Hər dördünü Qasim gətirdi zarə
Təhisini o yar – Qurana gəldi

Əzrəq görüb Qasim qəvi cavandı
Sinni uşaq bazusu por tavandı
Mindi atın meydanı bir dolandı
Nagəh üzü alqanına boyandı
Qasim at üstə – colanə gəldi

Bəh-bəh belə sərbazi qəhrəmanə

Döndərdi küfrün qamətin kəmanə
Hər pəhləvan gəldi batırdı qanə
Oldu vücudu oxlara nişanə
Zülmündə düşmən – tüğyana gəldi

Gülşəndə gül üstə tikan töküldü
Ətrafına xəsmi-zaman töküldü
Bir yarə başdan dəydi qan töküldü
Qanı yerə çün navidan töküldü
Min tiri-nizə – bir canə gəldi

Nabud olurdu ləşgəri İraqı
Yıxdı yerə bir nocavan uşağı
Öldürdü, Allah mizban qonağı
İncitdi cismin atların ayağı
Dadə o tifl – dürdanə gəldi

Soldu güli bağı Həsən çəməndə
Saldı o seydi ovçular kəməndə
Can üstə ruyi yarə vurdu xəndə

Əhsən o isari Xuda pəsəndə

Ruhu pər açdı – rizvanə gəldi

## Qasim ibn Həsənin (ə) rəcəz oxuması

**“Çəhardəh məsum (ə)” kitabından**

Mən Qasimi azadəyəm ey qomi üdvan

Baş ilə cani eylərəm Qurana qurban

Bimuinəm mən – yari dinəm mən

Sərbazi Quranam

İslama qurbanam

*****

On üç yaşında bir cavan bavüqaram

İslama sərbazam qərini iftixaram

Şahım Hüsenydir cannisari şəhriyaram

Bimuinəm mən – yari dinəm mən

Puri Həsən, məhbubi Ali-Heydərəm mən

Arami cani itrəti Peyğəmbərəm mən

Ölsəm də əhli-Kufəyə baş əymərəm mən

Bimuinəm mən – yari dinəm mən

Şadam boyansam qanıma Quran yolunda
Verrəm bu canı şahi-məzluman yolunda
Çün keçmişəm candan dəxi canan yolunda
Bimuinəm mən – yari dinəm mən

Agah olun məmureyi iman yıxılmaz
Dinin bənasın saxlayıbdı qan yıxılmaz
Ta ruzi məhşər pərçəmi Quran yıxılmaz
Bimuinəm mən – yari dinəm mən

Atdan məni meydana salsa, salsın
Ətrafımı bu qan tökənlər alsa, alsın
Atlar ayağında vücudum qalsa, qalsın
Bimuinəm mən – yari dinəm mən

Əlhəmdulullah eşqimə iman varımdı
Qəlbimdə nuri itrəti Quran varımdı
Hərgiz yolumdan dönmərəm ta can varımdı

Bimuinəm mən – yari dinəm mən

## Həzrət Qasimin (ə) İmam Hüseyndən kömək istəməsi

**“İnqilabi Huseyni” kitabından**

Əmu gəl yıxılıbdı atından yerə Qasim

Ölən vəqtidə istir – camalın görə Qasim

*****

Bilirsən ki, sözümdə vəfadaram əzəldən

Məni şəhdi-şəhadət qüvaradır əsəldən

Gəlib peyki vüsalım gedib taqətim əldən

Olur şoqilə qurban Həqqi Qadirə Qasim

Gəl ey rəhbəri əhrar, gəl ey məfxəri Adəm

Sənin sayənə movla pənahəndədir aləm

Uzaqdır ətəyindən əlim yox mənə həmdəm

Gətirsən necə dərdi-dilin zahirə Qasim

Rəhi-həqqidə eşqin verər kamilə aşiq

Toyu yasa dolansa heç etməz gilə aşiq

Gilayə sözün əslən gətirməz dilə aşiq

Dözər min belə zülmə Xudaya görə Qasim

Verib Əkbər əmoğlum riza əmri qəzayə
Olam xoşdu fəda mən o ərzəndə fədayə
Qədəm rəncə buyur bax bu gülzari vəfayə
Saçıb sinəyə qandan güli xatirə Qasim

O dəm ki, bədənimdən tavan aldı cərahət
Əmu zülmü cəfayə ədu tapdılar fürsət
Yaranı yara üstən zibəs vurdu cəmaət
Şəbih oldu qanadı sınan quşlara Qasim

Sənə dildə sözüm var əmucan mənə səs ver
Yerə yarələrimdən axır qan mənə səs ver
Edib halimi hicrin pərişan mənə səs ver
Gəl istir sənə axər salamın verə Qasim

Bu möhnətdə Kəlami sireşgin üzə bağla
Qəmi Qasimi şərh et, dili aləmi dağla
Bu dilbəndi Hüseynin adın zikr elə ağla

Ki, məhşərdə şəfaət edər zakirə Qasim

## Həzrət Qasim (ə) növhəsi

**“Ərizeyi Kəlami” kitabından**

Atdan düşdü Qasim meydani bəlayə

Zəhranı gətirdi dəşti Kərbəlayə

Canlar o yar – Qurana qurban

On üç yaşında – qurbana qurban

*****

Səslərdi Hüseynin canbaz dəliri

Hüseynun əmiri və neməl əmiri

Dinə oldu hami ol eşqin səfiri

Əhsən bu vəfaya, tuba bu səfayə

Əkbər matəmində hey əşki axardı

Rüxsari imamə həsrətlə baxardı

Rüxsət verməsəydi gər canı çıxardı

Ta aldı icazə yollandı minayə

Cəng etdi yoruldu ol Yəsrib maralı

Meydanda yıxıldı ellərdən aralı
Üz tutdu xiyamə can üstə yaralı
Səsləndi ilahi, dil gəldi nəvayə

Ta movla eşitdi Qasim ahu-vasin
Gəldi qan içində tapsın həqq fədasın
Şəmşir əldə pozdu zalımlar qüvasın
Nagah bir həzin səs ovc etdi səmayə

Ərz etdi əmican gəl qurtarar fəraqı
Əl saxla varımdı vəslət iştiyaqı
Əzamı pozubdu atların ayağı
Gəl, sal başım üstə bu meydanda sayə

Qalmışdı nə halə ol yari girami
Xurd olmuşdu sinə vur başa Kəlami
Qasim hamıdan çox ağlatdı imamı
Yandı qəlbi Zəhra puri-Müctəbayə

## Həzrət Qasim (ə) əmisindən kömək istəyir

**“Nəvayi Kəlami” kitabından**

Ayrılıq əşgimi – qanə qatıb ya Hüseyn
Qasim ibnil Həsən – qanə batıb ya Hüseyn
Verirəm can əmu – sənə qurban əmu
Ədrikni – ya movla

*****

Qəmi Əkbərdə bu qəlbim əzaxanədi
Sən vəfa şəmisən can sənə pərvanədi
Ölürəm munisim ahi yətimanədi
Müctəbanın gülü çöldə yatıb ya Hüseyn
Verirəm can əmu – sənə qurban əmu
Ədrikni – ya movla

Mən on üç yaşda bir aşiqi dildadəyəm
Sənə dil vermişəm bəndeyi azadəyəm
Zülmə baş əymərəm ölməyə amadəyəm
Kim bu yolda ölə kamə çatıb ya Hüseyn

Bu şəhadət əmu şəhdi-əsəldi mənə
Min yol ölsəm əgər xoşdu gözəldir mənə

Eşqidə rəhnüma əhdi əzəldir mənə

Aşiqin başını başdan atıb ya Hüseyn

Verirəm can fəda məktəbi hürriyyətə

Xırda sərbazınam bu ələvi nehzətə

Gəl əmu çək məni sayeyi əmniyyətə

Nəfəsim oxların altda batıb ya Hüseyn

Qəmi hicrin əmu müztər edib Qasimi

Mərifət peyrovi Əkbər edib Qasimi

Neyzələr gül kimi pərpər edib Qasimi

Yaralı yar özün yarə satıb ya Hüseyn

**Salam o yeniyetmə şəhidlərə ki, fədakarlıqları ilə cəbhələrdə zamanın qocalarına mərifət dərsi öyrətdilər.**

## İmamın (ə) həzrət Qasimə sözləri

**"Çəhardəh məsum (ə)" kitabından**

Cavan Qasim mehriban Qasim – Əkbərin həmavazi

Batan qanə səngəri eşqin – cavidanə sərbazı

Yatma gün qabağında, ləxtə qan dodağında

*****

Keçən gecə payeyi eşqin istədim edəm meyar

Dedin şirindi mənə baldan bu şəhadətim ey yar

Mübarək olsun sənə qırmız xələt ey güli bixar

Şəhid oldun Haqq sənə verdi bu medali mümtazi

Yatma gün qabağında, ləxtə qan dodağında

Ucaltdın on üç yaşında sən başın ərşi əlayə

Vəfa dərsi verdin aləmdə cümlə piri-bornayə

Yetim bala əl-üzü qanlı get hüzuri Zəhraya

Cinanda ol Əkbər oğlumun həmcavari dəmsazi

Yatma gün qabağında, ləxtə qan dodağında

Mənə qardaşım Həsəndən sən bir gözəl əmanətsən

Hümayi ovci səadətsən morği-baği cənnətsən

Əzizi azadə sahibi mənsəbi şəhadətsən

Səfa tapdın əyninə geydin xələti sərəfrazi

Yatma gün qabağında, ləxtə qan dodağında

Cəzakəllah, iftixar ilə boynuna kəfən saldın

Bu sevdayə oldun amadə məndən izni cəng aldın
Vücudun atlar ayağında qaldı əl-ayaq çaldın
Ayaqladı bivəfa gülçin sən kimi güli nazi
Yatma gün qabağında, ləxtə qan dodağında

Səni görsə madəri bikəs vay bala deyib ağlar
Səriyyə ağlar, bibin Zeynəb qəmli sinəsin dağlar
Yaran çoxdu bu yaraları Fatimə anam bağlar
Yolun həqdi aşiqə eşqin xoşdu xətmi ağazi
Yatma gün qabağında, ləxtə qan dodağında

Özün getdin qaldı Abdullah xeymədə yanə-yanə
Dözə bilməz xırda qardaşın bu məlali hicranə
O da mən atdan düşən vəqtə üz qoyar bu meydana
Batar qanə sinəmin üstə Əsğərin o həmrazı
Yatma gün qabağında, ləxtə qan dodağında

Gəlincə mən başının üstə halətin pozulmuşdu
Yaralı başdan axıb qanın gözlərinə dolmuşdu
Həyatın gülzarı solmuşdu, munisin qəm olmuşdu

Yetişmişdi tayiri ruhun vəqti ovci pərvazi

Yatma gün qabağında, ləxtə qan dodağında

Nə tez gülçinlər cəfasından soldun ey güli yasim

Çağırram indi gələr dadə pərçəm əldə Əbbasim

Vücudun mən qoymaram burda qalsın ey cavan Qasim

Yetişdin məqsudə ey dinin pasdar canbazi

Yatma gün qabağında, ləxtə qan dodağında

### Hərəmin şamı

**“Aşinayi məhəbbət” kitabından**

Ey şəmi hərəmxanə – qurbanın olum Abbas

Canlar sənə pərvanə - qurbanın olum Abbas

*****

İldə şəbi tasua – səslər adını dünya

Mənada diyər Zəhra – qurbanın olum Abbas

Döysə qapını sail – mənzuri olar hasil

Ey munisi əhli dil – qurbanın olum Abbas

İnsan -o- mələk səndən – istəllər kömək səndən

Əl bizdən ətək səndən – qurbanın olum Abbas

Ey mərifətin kani – sən bil ananın canı
Yaz dərdlərə dərmanı – qurbanın olum Abbas
Ovci şərəfə çatdın – ləbteşnə qana batdın
Sən Kosəri ağlatdın – qurbanın olum Abbas
Dəydi gözəl alnından – üç şöbəli bir peykan
Tutdu gözünü alqan – qurbanın olum Abbas
Didarına şəh gəldi – qəlbin qəm oxu dəldi
Tapdı səni dincəldi – qurbanın olum Abbas
Yandım dedi ay qardaş – səs ver mənə vay qardaş
Çarəm nədi day qardaş – qurbanın olum Abbas
Var xeymədə çox sözlər – qızlar yolunu gözlər
Baxmır niyə bu gözlər – qurbanın olum Abbas
Əhsən belə isarə - sərdari vəfadarə
Sən xəstə, Hüseyn xəstə – qurbanın olum Abbas
Ey kəştiyi bisahil – qanlı ələmə hamil
Amalın olub hasil – qurbanın olum Abbas
Ey saleh olan bəndə - vur yar üzünə xəndə
Qıl xəsmi sərəfkəndə – qurbanın olum Abbas
Kəm eyləmə lütfün sən – biçarə Kəlamdən
Kuyunda gedayəm mən – qurbanın olum Abbas

### Növhə

**“Mubahati Kəlami” kitabından**

Bəzmi əzadə geymişəm – qarə ya Əbbas

Biçarəyəm qıl dərdimə – çarə ya Əbbas

Ya Babəl-həvaic

*****

Ey pərçəmi hürriyyəti – saxlayan sərdar

Vey karivani vəhdətə - qafilə salar

Müşküldə qalsam eylərəm – adını təkrar

Qurban olum sən tək fəda – karə, ya Əbbas

Ya Babəl-həvaic

Ey həqq minasnda geyən – qanlı ehramı

Gəzdin yaralı baş ilən – Kufəni, Şamı

Hifz etdi isarın sənin – dini İslamı

Oldu nişan ömrün gülü – xarə ya Əbbas

Ya Babəl-həvaic

Kuyi-məhəbbətdə hanı – sən kimi canbaz

Eşq aləmnidə almısan – rütbeyi mümtaz
Harda adın səslənmişəm – görümüşəm ecaz
Etmə iradət qeydimi – parə ya Əbbas
Ya Babəl-həvaic

And olsun alnında olan – zəxmi peykanə
Bir tari muyin verməərəm – təxti şahanə
Qanlı gözün yad eyləyib – gəlləm əfğanə
Dəydi sənə əğyaridən – yarə ya Əbbas
Ya Babəl-həvaic

Atdan düşəndə səslədin – aləmin yarın
Gəldi qəribi Kərbəla – tapdı sərdarin
Qanlı cəbinində öpüb – səcdə asari
Batdı üzü Sarullahın – sarə ya Əbbas
Ya Babəl-həvaic

Səsləndi ey arxam-elim – aç gözün qardaş
Tarac olub tabi dilim – aç gözün qardaş
Qardaş canı sındı belim – aç gözün qardaş

Çarəm azaldı gəlmişəm – zarə ya Əbbas
Ya Babəl-həvaic

Ey yari Quran mərhəba – bəxti məsudə
Çatdın şəhadət feyzinə - oldun asudə
Uçdun hüma tək sahəti – qüdsü məqsudə
Getdin yaralı məhzəri – yarə ya Əbbas
Ya Babəl-həvaic

Ədrik peyamın xeymədə – indi aldım mən
Gördü bacım nə qüssəli – halə qaldım mən
Qurban bu qolsuz qamətə - dur qocaldım mən
Oldu cəfa sən tək vəfa – darə ya Əbbas
Ya Babəl-həvaic

Sənsiz hərəmdə itrəti – Bu Turab ağlar
Olmuş ətəşdən qızlarım – dilkabab ağlar
Gəh Əsğərə laylay deyər – gəh Rübab ağlar
Aləm fəda bu çeşmi xun – barə ya Əbbas
Ya Babəl-həvaic

Əbbas ağa dildən nə qədr – əl-aman gəlsin

İstir Kəlami qəbrüvə – nohəxan gəlsin

Aç bağlanan yollarını – karivan gəlsin

İstə bu cəmi tozlu dər – barə ya Əbbas

Ya Babəl-həvaic

## Həzrət Əbəlfəzlə (ə) niyaz ərzi

**“Səlami Kəlami” kitabından**

Adın verir ürəklərə – səfa Əbəlfəzl

Ola bu canımız sənə – fəda Əbəlfəzl

*****

Pəyami arimanini – yazar qələmlər

Nəsimi Kərbəla ilə - əsər ələmlər

Axanda çeşmələr daşar – ürəkdə qəmlər

Suya baxanda eylərik – nəva Əbəlfəzl

Qiyamət etdi ərsədə – o sərv qamət

At üstə imtahan günü – salıb qiyamət

Kiçildi qamətin vəli – ucaldı itrət

Rizayi Həqqə ey olan – riza Əbəlfəzl

Pərindən ox dəyəndə ey – şərəf hüması
Olubdu Ali-Mustafa – qəm aşinası
Cəlalına salam ola – Əli balası
Ki, artırıb məqamını – Xuda, Əbəlfəzl

Türabə saldı sağ əlin – o qomi kinə
Dedin himayət eylərəm – sol əlli dinə
O da düşüb baş əymədin – münafiqinə
Edibdi Fatimə sənə – dua Əbəlfəzl

O himmətə, o qeyrətə – o şura qurban
Sənin tək ayrılıbdı kim – sudan ləbətşan
Su məşkin oxlananda ey – şəhidi Quran
Gözündə kainat olub – qara Əbəlfəzl

Hüseyni səslədin dedin – qəribəm ey şah
Əli belində gəldi şah – ürəkdə min ah
Dedi danış olum əxa – qəmindən agah

Bu yolda deynin elədin – əda Əbəlfəzl

Yetirdin öz iradətin – təmamə qardaş

Sınıb başın düşüb yerə – əmamə qardaş

Yaralı yatma dur gedək – xiyamə qardaş

Susuz hərəmlərim baxır – yola Əbəlfəzl

## Kani-vəfa

**“Nəvayi Kəlami” kitabından**

Ey pesəri şiri Xuda Əbəlfəzl – Əbəlfəzl

Dərdimizə eylə dəva Əbəlfəzl – Əbəlfəzl

*****

Ey şühəda sinəsinin medalı

Qanlı üzü haşimiyan hilalı

Adı hüseyniyyələrin cəlalı

Bəhr edib kani vəfa Əbəlfəzl – Əbəlfəzl

Eşqini billik ağacan fərizə

Məhzərə təqdim edərik ərizə

Dəsti kərəm nüsxə yazar mərizə

Nüsxəsi bimarə şəfa Əbəlfəzl – Əbəlfəzl

Gəldi Məhərrəm əsərik bu ayda
Aşiqi şuridəsərik bu ayda
Biz sənə  qurban kəsərik bu ayda
Sən də bizə eylə əta Əbəlfəzl – Əbəlfəzl

Ey adı zibi-hərəmi hidayət
Bəndeyi saleh pesəri vilayət
Şiələrə rəhməti binəhayət
Babi rəca üqdə qoşa Əbəlfəzl – Əbəlfəzl

Babəl-həvaicsən ağa dilavər
Şöhrətin afaqi tutub sərasər
Qəlbiləri nurun edib münəvvər
Mahi-müniri şühəda Əbəlfəzl – Əbəlfəzl

Qanə batıb dinə şərəf yaratdın
Ümmü Bəninin başını ucaltdın
Heyf ola Zəhra balasın qocaltdın

Sındı belim səslədi ya Əbəlfəzl – Əbəlfəzl

Ey ələm dini vuran su üstə

Can ola qurban belə həqpərəstə

Etdi bu halın məni dilşikəstə

Çarəm azaldı dur əxa Əbəlfəzl – Əbəlfəzl

## Ya Abbas ibn Əli (ə)

**“Şəmi şəhadət” kitabından**

Ey Əbu Turabın – şiri dil balası

Ləşgəri Hüseynin – sahib livası

Bax bu çeşmi giryanə

Qəlbimiz dönüb qanə

Əddəxil Əbəlfəzl

*****

İmtahan vermisən sən vəfa yolunda

Hər nədən keçmisən aşina yolunda

Gör nə səhnələr var Kərbəla yolunda

Səhnələr qəməfzadı – dildə qüssə dəryadı

Əddəxil Əbəlfəzl

Ey keşidə qamət vey rəşid ələmdar
Hamıyi ədalət aşiqi fədakar
Əldə qanlı pərçəm ol bizə həvadar
Sahib ələm movla – qolları qələm movla
Əddəxil Əbəlfəzl

Üz verəndə qüssə qəmli dərdiməndə
Səndən istər imdad müşkülə düşəndə
Ərz edir cavanlar qəbrinə gələndə
Yəbnə Mürtəza Abbas – yari şiə ya Abbas
Əddəxil Əbəlfəzl

Ey olan minayi Kərbəladə qurban
Qolların fədası olsun əhli İran
Damənin tutubdu hamiyani Quran
Sən yetiminin canı – atma əhli İranı
Əddəxil Əbəlfəzl

Gəl soruş bu xalqın pak iradəsindən
Əhli həqqin eşqi fövqüladəsindən

Al xəbər şəhidin xanəvadəsindən

Dil por iltihab oldu – qəlbimiz kabab oldu

Əddəxil Əbəlfəzl

## Həzrət Əbəlfəzlə (ə) təvəssül

**“Rahiyani Kərbəla” kitabından**

Ey səməri dili Heydəri Kərrar

Ya Qəməri Bəni Haşim Əbəlfəzl

Qollarına fəda qolsuz ələmdar

Ya Qəməri Bəni Haşim Əbəlfəzl

*****

Ey ləqəbi olan Babəl-həvaic

Vey o gözəl adı dərdlərə dərman

Fatimənin balalarına səqqa

Üç gecə su kənarında ləbətşan

Əllərini fəda verdin Hüseynə

Canımız o uzun əllərə qurban

Qanına boyanıb səngəri isar

Ya Qəməri Bəni Haşim Əbəlfəzl

Dininə ki, dedin inni uhami

Söz bir idi ki, qaldın sözün üstə

Qanlı ələmi sən bağrına basdın

Saxladın o livanı gözün üstə

Başına ki, at üstə yara dəydi

Qol yox idi yıxıldın üzün üstə

Pərçəmi şühəda oldu nigunsar

Ya Qəməri Bəni Haşim Əbəlfəzl

Mərhələyi təkamüldə pər açdın

Yetdin əcəb ülüvvi dərəcatə

Teşnə suya gedib teşnə qayıtdın

Xicləti əbədi qaldı Fəratə

Ağladı o susuz ləblərə Zəmzəm

Naz elədin özün abi-həyatə

İndi də sənə Kosər gözü ağlar

Əhsən ola anan Ümmü Bəninə

Bəslədi bir oğul heykəli iman

Hamili ələm nəsru minəllah

Hamiyi hədəf məktəbi Quran
Məzhəri ədəb -o- mədəni təqva
Dəryayi kərəm -o- mənbəyi ehsan
Dərgəhinə üzün sürtər əzadar
Ya Qəməri Bəni Haşim Əbəlfəzl

Aşiq idin otuz beş il ürəkdən
Qardaşına dedin seyyidi, movla
İllətin sual etdilər səndən
Sailinə buyurdun belə guya
Mən özünə kəmərbəstə qulaməm
Bu qapıda anam xadimi-Zəhra
Sözünə əməlin eylədi iqrar
Ya Qəməri Bəni Haşim Əbəlfəzl

Sidq ilə sən, o yetmiş nəfər ilə
Bir hədəfə görə baş-başa verdin
Xidmətini Hüseynin qapısında
İzzətilə cahanda başa verdin
Din ələmin ucaltdın qana batdın

Öz canını fəda qardaşa verdin

Qaldı dəxi Hüseyn bikəs -o- biyar

Ya Qəməri Bəni Haşim Əbəlfəzl

Onda ki, pozular nəzmi əvalim

Ma xəlqə olar ruzi qiyamət

Şafeyi cəza həşrə gələndə

Topraqa yıxılıb ağlaşar ümmət

Məhşərə gətirər həzrəti Zəhra

Bir cüt əlini əsbabi şəfaət

Əllərini öpər Əhmədi-Muxtar

Ya Qəməri Bəni Haşim Əbəlfəzl

### "Əzəm Hüseyniyyəsi heyəti"nin növhəsi

**"Zəxireyi Kəlami" kitabından**

Ya İmami Zaman şiədə ehsasə bax

Cilveyi pərçəmi həzrəti Əbbasə bax

Oldu qollar qələm – ta ucalsın ələm

Ya Əbəlfəzl – ya Əbəlfəzl

*****

Pesəri Fatimə – ey hamının sərvəri
Kimdi səndən sonra – eşqimizin davəri
Sinəzənlər salar – yadə uzun əlləri
Oldu qurbani din – gülü Ümmül-Bənin
Ya Əbəlfəzl – ya Əbəlfəzl

Bilir aləmlər ey – padişəhi müntəzər
Harda Əbbas adı olsa edərsən nəzər
Nə olar bu cəmə sən – baxsan ağa dide tər
Hamı istər silə - səslərik ahilə
Ya Əbəlfəzl – ya Əbəlfəzl

Bu gün aşiqlər ol – sərvərə qurban kəsər
Xələfi salehi – Heydərə qurban kəsər
Şiə pərçəm tutan – əllərə qurban kəsər
Adı dillərdədi – ələm əllərdədi
Ya Əbəlfəzl – ya Əbəlfəzl

Getdi Əbbas ağa – su gətirə qızlara
Oxlanıb məşgi həm – başına dəydi yara

Oldu səhrayi qəm – Zeynəbə matəmsəra

Dedi vay qardaşım – qəhrəman yoldaşım

Ya Əbəlfəzl – ya Əbəlfəzl

Ah o gündən Hüseyn aldı vəzirin səsin

Gəldi gördü alıb ləşgər onun dorəsin

Dedi dur ey həvadari məni bikəsin

Ey əmiri qüva – sənə canım fəda

Ya Əbəlfəzl – ya Əbəlfəzl

## Həzrət Əbəlfəzlin (ə) rəcəz osuması (şur)

**"Çəhardəh məsum (ə)" kitabından**

Bilin ey kufiyan, mən pesəri Heydərəm

Kərbəla şahına, bu çöldə sərləşgərəm

Yari movla mənəm – teşnə səqqa mənəm

Ey cəmaət – ey cəmaət

---

Gəlmişəm bənati Fatiməyə su alam

Əldəki pərçəmi sahili nəhrə çalam

Deyir Ümmül-Bənin hamiyi dindir balam

Şiri-azadəyəm, cəngə amadəyəm

Ey cəmaət

Dəri-movlada mən nokərəm ey əhli-nar
Ta varam eylərəm mənsəbimə iftixar
Mənə şahım baxır təllidə çeşm intizar
Mən qulami-dərəm, ağama nokərəm
Ey cəmaət

Yox hərasim əgər cəngimə düşmən gələ
Pozaram səfləri tiğimi alsam ələ
Sizdə yox mərifət eyləməyin həlhələ
Radmərdəm özüm, dildə var çox sözüm
Ey cəmaət

Sahibi pərçəmi nəsru minəllah mənəm
Yari dini Xuda puri Yədullah mənəm
Hafizi armani Əsədullah mənəm
Hədəfim dini həqq, dini ayini həqq
Ey cəmaət

Hazıram ölməyə dinimə olsun qəsəm

Sizə baş əymərəm gərçi özüm bikəsəm

Pozular halətim Əsğərə su verməsəm

Deyir əlan Rübab, balam oldu kabab

Ey cəmaət

## Həzrət Əbəlfəzl (ə) meydanda

**“Şəmi şəhadət” kitabından**

Ey qoşun amadeyi hiyca mənəm

İtrəti Peyğəmbərə səqqa mənəm

Əmiri həngəm – vəziri cəngəm

*****

Yalquz imamım məni saldı yola

Bağlaram əhli-sitəmi qol-qola

Rəhbərin hökmü gərək icra ola

Əmiri həngəm – vəziri cəngəm

Düşmənə nəqşi ədəmim var mənim

Eşqidə sabit qədəmim var mənim

Nəsru minəllah ələmim var mənim

Əmiri həngəm – vəziri cəngəm

Düşməni-İslama əyilməz başım
Qanə batıbdır şühəda yoldaşım
Təkdi bu səhrada Hüseyn qardaşım
Əmiri həngəm – vəziri cəngəm

Lənət ola şahıza, sultanıza
Lənət ola hökmüzə fərmanıza
Teşnədi kəskin qılıncım qanıza
Əmiri həngəm – vəziri cəngəm

Sanmayın ölməkdən həras eylərəm
Müntəqimullahə sipas eylərəm
Peykərimə qanı libas eylərəm
Əmiri həngəm – vəziri cəngəm

Mən rəhi-iman -o- səadətdəyəm
Səngəri təqva -o- həqiqətdəyəm
Eşqilə meydani şəhadətdəyəm

Əmiri həngəm – vəziri cəngəm

Ərseyi hicada mənəm yari din

Zadeyi azadeyi Ümmül-Bənin

Əzm qəvi, idə gözəl, söz mətin

Əmiri həngəm – vəziri cəngəm

### İnni uhami əbədən ən dini

**“Munacati Kəlami” kitabından**

Hamiyi dinəm – həqqə muinəm – fədayi Quranam

Mən güli baği – Ümmü Bəninəm – Hüseynə qurbanam

Ey cəmaət yari məzluman Əbəlfəzləm

Cannisari məktəbi Quran Əbəlfəzləm

*****

Rahi vəfada – sidq -o- səfadə – gərək keçəm başdan

Dil nigərandı – dərdim əyandı – gözümdə qan yaşdan

Ox yağa göydən – çəkmərəm əl mən – vəfalı qardaşdan

Pasdari səngəri iman Əbəlfəzləm

Cannisari məktəbi Quran Əbəlfəzləm

Xeymədə ləşgər – qəşş edib Əsğər – halı pərişandı
Ağlır anası – xırda balası – bu çöldə ətşandı
Olsa əgər su – ol mələr ahu – dərdinə dərmandı
Su qəmində gözləri giryan Əbəlfəzləm
Cannisari məktəbi Quran Əbəlfəzləm

And ola ruhi – Xeyrun-Nisayə – Bətuli-Əzrayə
Vəqfidi canım – cismidə qanım – imami movlayə
Riştə kəsilməz – başım əyilməz – bu qomi-ədayə
Payibəndi rişteyi iman Əbəlfəzləm
Cannisari məktəbi Quran Əbəlfəzləm

Gərçi mənə çox düşmən atır ox, vəfa şüarimdi
Çirə qəm olsa, qol qələm olsa, həqq etibarimdi
Qanə boyanmaq, eşqidə yanmaq, bəs iftixarimdi
Xaki payi həzrəti canan Əbəlfəzləm
Cannisari məktəbi Quran Əbəlfəzləm

Sinədə min qəm bu qanlı pərçəm şərəf medalımdı
Əbdi İlahəm nokəri şahəm Hüseyn cəlalımdı

Movc edər əşgim xalidi məşgim, əsfəli halımdı

Saqiyi ləbteşneyi tiflan Əbəlfəzləm

Cannisari məktəbi Quran Əbəlfəzləm

## Əbəlfəzlin (ə) şüarı

**“Nalehayi Kəlami” kitabından**

Mən yari Quranəm – səqqayi tiflanəm

İnni Əbəlfəzl – inni Əbəlfəzl

Ox dəysə gözümdən – dönmərəm sözümdən

İnni Əbəlfəzl – inni Əbəlfəzl

*****

Şəhadət məramim – Hüseyndir imamım

Din üstə qiyamım – xalildir su camım

Haqq cəbhəsində - rəzməndəyəm mən

Teşnə qızlardan – şərməndəyəm mən

Pərçəmim əlimdə – zikri Həqq dilimdə

Başımı kəsəndə – ağlar qatilim də

Əmudi ahən – dəydi başımdan

Əlim üzüldü – öz qardaşımdan

Qan axır qolumdan – həm sağ, həm solumdan
And olsun Allaha – dönmərəm yolumdan
Orduyi eşqəm – sərləşgərəm mən
Sahib nişanəm – namavərəm mən

Gəzirəm meydanda – qanlı biyabanda
Hafizi İslaməm – səngəri Quranda
Qoymaram qalsın – xali bu səngər
Var dildə zikri – Allahu Əkbər

Hazıram can verəm – eşqim elan verəm
Dərdə dərman verəm – dinimə qan verəm
Ta arimani – canan dirilsin
Qanım tökülsün – Quran dirilsin

Ölsəm sərfərazəm – sahib imtiyazəm
Dinimə sərbazəm – qurbani namazəm
Eşqin namazın – meydanda qıllam
Allah dilimdə - atdan yıxıllam

## Xanım Zəhranın (ə) sözləri

**“Nəvayi Kəlami” kitabından**

Atdan düşəndə - yaralı səqqa

Gəldi Bəqidən – həzrəti Zəhra

Başın dilxəstə - aldı diz üstə

Dedi can bala – ey dilşikəstə

Laylay Əbəlfəzl – laylay Əbəlfəzl

*****

Ey cani-canan – səqqayi ətşan

Qanlı gözünə - Hüseynim qurban

Tökülür əşgin – xalidi məşgin

Ağuşumə gəl – olma pərişan

Laylay Əbəlfəzl – laylay Əbəlfəzl

Ey sərvi bustan – yari bidəstan

Düşən qoluna – ağlar nəxlistan

Sinə dağlama – oğlum ağlama

Solmaz saralmaz – qanlı gülüstan

Laylay Əbəlfəzl – laylay Əbəlfəzl

Qəlbin dincələr – gözün əşg ələr
Tiri niqahın – ürəyi dələr
Gülüm darıxma – səbridən çıxma
İndi çağırram – Hüseynim gələr
Laylay Əbəlfəzl – laylay Əbəlfəzl

Ey qəm amaci – vəfa siraci
Ümmül-Bəninin – başının tacı
Zeynəbim ağlar – əzanı saxlar
Səslər vay qardaş – mehriban bacı
Laylay Əbəlfəzl – laylay Əbəlfəzl

Əşrarə baxma – küffarə baxma
Fəqət yarə bax – əğyarə baxma
Qoy sinəm üstə – başın ahistə
Sinəmdə zəxmi – mismarə baxma
Laylay Əbəlfəzl – laylay Əbəlfəzl

## Həzrət Əbəlfəzlin (ə) sözləri

**“İradətnameyi Kəlami” kitabından**

Yıxıldı səqqa yerə – baş yaralı qan gəlir

O səslənir ya Hüseyn – dadə ox vuran gəlir

Ya Hüseyn, ya Hüseyn – gəl hərayə hardasan

Gəldi Zəhra anam – Kərbəlayə hardasan

*****

Mənim ağam, öz ağam – var ürəkdə söz ağam

Mən sənsiz dözəmmirəm - sən bu dərdə döz ağam

Heydər öpən əllərə – düşmən vurdu göz ağam

Axtarardım bu halı – hər gecə-gündüz ağam

Şükr ola – qollarım – haqq yolunda qət olub

Su yolu – gözləmə – gözlərimə qan dolub

Görsə Rüqəyyə əgər – peykərimin yarəsin

Boşlar qaçar çöllərə – Əsğərin gəhvarəsin

Yıxdı yerə Hərmələ – səbrimin divarəsin

Su töküldü məşgidən – kəsdi səqqa çarəsin

Vay mənə – vay mənə – vay Rübabə, vay mənə

Gəl yolun – gözlürəm – gözlərim qurban sənə

Düzdü bəlalı olar – pəhləvanların başı

Dəva günündə sınar – qəhrəmanların başı

Qoy olsun bu dasitan – dasitanların başı

Qolsuz ələmdar olub – baş yaranların başı

Yardılar – başımı – bir ağır əmud ilə

Düşmüşəm – torpağa – yarəli vücud ilə

Mən səni ey Yusifim – satmadım əhrimənə

Qaldım boyandım qana – minnət olmasın sənə

Bəsdi fəqət Fatimə - laylay desin mənə

O səsləsin can bala – mən də deyim can nənə

Gəldi Zəhra vəli – sinəsi yaralıydı

Qəlbimi yandıran – nilgun cəmal idi

Ayineyi sinədə toz da olsa silmişəm

Damənini tutmağı dərdə çarə bilmişəm

Qəddim ucaydı, uca mənsəbə seçilmişəm

Qüssəm böyükdü Hüseyn, cüssədən kiçilmişəm

Oxlar eylib əvəz – cismimin qəvarəsin

Bilsə Zəhra bilər – yarəmin şümarəsin

Qəmli amannamənin macərası bir yana

Qızlarının qorxudan ahu-vası bir yana

Pərçəm tutan əllərin ibtilası bir yana

Bu yarələr bir yana, dil yarası bir yana

Tənə düşmən vurur – qəlbidən yaralıyam

Xali məşgim kimi – mən də dəsti xaliyəm

## Rubai

Bəzmi ki, dər an təcəlliyi ehsasəst

Ənvari İlah rönəqi iclasəst

Ey şieyi-Murtəza bequ ya Əbbas

Çun çareyi muşkilat ba Əbbasəst

## Həzrət Əbəlfəzlin (ə) su gətirməyə getməsi

**"Nəvayi Kəlami" kitabından**

Fələki vəfanın Allah qəməri müniriyəm mən

Başımın Hüseyndi tacı ağamın əsiriyəm mən

*****

Ağamın əlindən öpdüm alam ölməyə icazə

Dedi qızlarım susuzdu, şərəri dil oldu tazə

Suya gəlmişəm nə cəngə, qəmə talibəm, nə nazə
Sənədimdi xali məşgim ki, ətəş səfiriyəm mən

Ağam olmasaydı mane, gülü arizu dərərdim
Çəkib aşiqanə şəmşir, çölü qanə döndərərdim
Səri Şimr -o- ibni Sədi mən imamə göndərərdim
Ki, imam sayəsində üməra əmiriyəm mən

Fələk istədi bu çöldə ayıra məni gülümdən
Vəli çıxmaz eşqi movla dili bitəzəlzülümdən
Min aman gəlsə bu aşiq eləməz həras ölümdən
Əsədullahın bu çöldə o vəfalı şiriyəm mən

Belə bilmədi ərəblər ələvilər irtiqasın
Salaram yada Rəsulun qəmi həccətul-vidasın
Ölərəm vilayət üstə elərəm Əli difasın
Babamın nigəhdari ələmi Qədiriyəm mən

Mənə nuşidir bu suda başımı verib su allam
Yolum üstə dursa hər kəs başını bəlaya sallam

Ya xiyamə su aparram, ya özüm su üstə qallam
Diyərəm o teşnə şahın yaralı vəziriyəm mən

Demərəm Fəratı alsam, quru ləblərim susuzdu
Ləbi Dəclədə su içməm, ləbi rəhbərim susuzdu
Diyərəm su qanə dönsün, Əli Əsğərim susuzdu
Ürəyim salıb kəməndə ki, şikari tiriyəm mən

Qərəz, aldı nəhri Səqqa, mütəhəyyir oldu əda
Dedi ya Rəbb indi gözlür yolumu əzizi Zəhra
Əgər oxlana su məşgim halımı pozar bu qoğa
Ki, bu səhnədə Hüseynin yəli binəziriyəm mən

Demərəm nə qədr o şirə sitəm əhli yarə vurdu
Elə ki, boşaldı məşgi canına şərarə vurdu
Yıxılıb yerə atından onu min səvarə vurdu
Dedi yarın intizari rüxi dilpəziriyəm mən

Ələmim yatıb düşüb qol, gəl amandı ya Hüseyn gəl
Məni gözləmə hərəmdə su calandı ya Hüseyn gəl

Yoluna baxır bu gözlər nigərandı ya Hüseyn gəl

Başa sayəni salarsan, kərəmin xəbiriyəm mən

Ağa nokərindi Əbbas, nəməki-vəfa itirməz

Kim ola Hüseyn qulamı, ağalıqda kəm gətirməz

Ürəyim dolub bu düşmən sənə ərzimi yetirməz

Gəl özün gör əhli Şamin necə dəstgiriyəm mən

Sənə də Kəlami bir gün rüfəqa kəfən biçərlər

Oxuduqca səngi qəbrin bir az ağlayıb keçirlər

Vəli qorxma şair ölməz üdəba sözü seçərlər

De hüseynilər Hüseynin əli boş fəqiriyəm mən

### Həzrəti Əbəlfəzlin (ə) sözləri

**Səlami Kəlami kitabından**

Ya Zəhra, ya Zəhra, atdan düşdü səqqa

Can rahət olmaz, ta zindəyəm mən

Ətşan ağamdan, şərməndəyəm mən

*****

Ox dəldi məşkimi

Qan etdi əşkimi
Görmədim heç kimi
Var başda yarə, yox dərdə çarə
Qaldım anacan, həsrət didarə

Qollar oldu qələm
Yatdı qanlı ələm
Oxlar qoymur gələm
Yoxsa gələrdim, istiqbalına
Gəl qurban ollam, qəmli halına

Ey ümmül-Həsəneyn
Qibleyi hərəmeyn
Səslə gəlsin Hüseyn
Mən özüm gəlmirəm, səsləyim şahi
Gülür halıma, Şamın sipahı

Ağlaram Rübabə
O qəlbi kəbabə
Düşüb piçu-tabə

Əsğər beşikdə, sinə suzandı
Səqqa meydanda, qanə qəltandı

Sinəm gəldi dərdə
Düçarəm namərdə
Gözümdə var pərdə
Qan pərdəsində, gözüm tutuldu
Ya Fatimə gəl, səbrim qurtuldu

Qəm gəlir qəm üstə
Nəhri Əlqəm üstə
Pərçəm sinəm üstə
Məşki oxlananda, dildən sıxıldım
Pərçəm yatanda, mən də yıxıldım

Gəl qurban gözünə
Balana, özünə
Saralan üzünə
Canım göyərən rüxsarə qurban
Sinəndə zəxmi mismarə qurban

Şikəstə könlüm al

Başıma sayə sal

Getmə yanımda qal

Ta şahım gəlsin, dilxahım gəlsin

Ayağın öpüm, qəlbim dincəlsin

### Həzrət Zəhranın (s.ə) Əbəlfəzlə (ə) cavabı

**“Səlami Kəlami” kitabından**

Əbbasim can bala, üz-gözü qan bala

Aç gözün gəldim, qəm mübtəlası

Mənəm Hüseynin, Zəhra anası

*****

Qəm rəxtin bürünmə

Oxlara görünmə

Çox yerdə sürünmə

İndi xeymədən, Hüseynim gələr

Alnundan öpər, qəlbin dincələr

Aşiq düz yol gedər

Eşq üstə qul gedər

Sağ gedər, sol gedər

Gəlmə pişvazə, səbrimi alma

Özün bu halda, zəhmətə salma

Baxma düşmən gələr

Dərdin Zəhra bilər

Səqqa susuz ölər

Saqiyi ətşan, mərhəba sənə

Kosər yanında qonaqsan mənə

Əsğərin anası

Dildə var nəvası

Can verir balası

Halın görənlər, nəva edirlər

Səni susuzlar, dua edirlər

Qan tutub gözünü

İtirmə özünü

De mənə sözünü

Gəldim darıxma, vəfalı bala
Can qəmli bala yaralı bala

Ey yari fədakar
Qəhrəman ələmdar
Tapdın feyzi sərşar
Aşiqlər içrə, çoxdu cəlalın
Qanlı ələmdi, döşdə medalın

Ey düşən min qəmə
Gəl yorğun sinəmə
Eyləyək zəmzəmə
Sən denən ana, mən deyim cana
Qəm soti düşsün, bu nəxlistana

Könlünü alaram
Yanında qalaram
Mən laylay çalaram
Hüseynin gəlincə, pərəstaram mən
Nazına oğlum, xəridaram mən

## Həzrət Abbasın (ə) İmam Hüseyndən (ə)  kömək istəməsi

**Avayi Kəlami kitabından**

Gəl Hüseyn yatdı Əbəlfəzl ələmi

Qoy gözüm üstə müqəddəs qədəmi

Baş sınıb, düşdü qolum

Nə sağım var, nə solum

Tap qərib qardaşını

Sənə mən qurban olum

*****

Yəbnə Zəhra to güli nabi məni

Şahidi xidmət -o- adabi məni

Pesəri Fatimə ərbabi məni

İzzəti Kəbə -o- Hill -o- hərəmi

Qandı bir parça bu meydan arası

Sağ qalıb qardaşının gör harasa

Halimi pozdu əmudun yarası

Qoyma dəryada bu sınmış bələmi

Dər təbəm tab nədarəm çe konəm

Hali şadabi nədarəm çe konəm

Saqiyəm ab nədarəm çe konəm

Beneşin ba mən dilxəstə dəmi

Səpirəm yollarına göz yaşımı

Ta görüm öz ağamı qardaşımı

Tir-baran etdilər başımı

Qəm əlindən ağa gəl al yaxamı

Madərəm dərsi ədəb dade məra

Bəhri Aşura bəla zadə məra

Kun qəbul ey şəhi  azadə məra

To imami məni -o- zulkərəmi

Mən Hüseyn əhdimi sındırmamışam

Teşnəyəm eşqi utandırmamışam

Bu sudan ləblərimə vurmamışam

Dildə var can Rüqəyyə qəsəmi

## Qəməri Bəni-Haşimin (ə) sözləri

**“Nalehayi Kəlami” kitabından**

Dəyib ox su məşgimə ya Hüseyn

Yeri vardı ağlaya qan gözüm

Ələmim yatıbdı hərayə  gəl

Səni axtarır nigəran gözüm

*****

O güni ki, Ümmu Bənin anam

Məni saldı nazilə məhdiyyəmə

Ağa bilmişəm səni Həqq verib

Dərəcati aliyə cəhdiyyəmə

Hər iki əlim kəsilib vəli

Yenə paybəndəm öz əhdiyyəmə

Mənə mah cəmalın əyan elə

Ki, olub qan altda nihan gözüm

Mənə süd veribdi anam sənin

Ölənə kimi sözünə baxam

Ölürəm müti o əmrəm

Fəqət istərəm üzünə baxam

Öz əlinlə gözlərimin qanın

Siləsən ala gözünə baxam
Yumula dubarə həmən gözüm

Xoş olar ədəbli qülamilər
Ağa səsləyib ölələr, ağa
Odu səslərəm səni ta hamı
Bu məhəbbəti biləlşr ağa
Başım üstə gəl vəli ağlama
Sənə qurxuram gülələr ağa
Gələn olsa elərəm arizu
Day açılmaya yumulan gözüm

Aparanda qan məni mərkəbim
Ata bilmədi qədəm ağladı
Su töküldü topraqın üstünə
Para məşgimə ələm ağladı
Ucalıbdı Fatimə şivəni
Bala vay dedi nənəm ağladı
Anamın üzün görə bilmirəm
Odur hey səpir yerə qan gözüm

Gərək aşiqin gözünün yaşın
Belə halda özgəsi silməsin
Başım üstə gəlsən əgər ağa
Elə gəl Rüqəyyə bilməsin
Əmisindən eyləməsin giley
Anamın vüqarı kiçilməsin
Baxa bilməz Ali Peyəmbərin
Üzünə bu əşki rəvan gözüm

Demirəm ki, əfsəri ərşədəm
Qoşun içrə sahibi mənsəbəm
Demirəm əmiri sipahınam
Hərəmi nigarə müqərrəbəm
Anam Əhli-beytə kənizidir
Mən özüm də xadimi Zeynəbəm
Qəsəm ahi Əsğərə hazıram
Ola min xədəngə nişan gözüm

Görüm heç mücahidə mən kimi

Rəhi eşqidə sitəm olmasın

Mənə nuşidir bu bəla Hüseyn

Ürəyində zərrə qəm olmasın

Yaralı başa baxım ağlama

Kəmərin bu qəmdə xəm olmasın

Məni onda qeyrətim öldürər

Səni görsə qəddi kaman gözüm

## Abbas ibn Əlinin (ə) sözləri

**(Şəhid Mütəhhəri himni ahəngi ilə)**

**"İnqilabi Huseyni" kitabından**

Ey köməksizlərin yarı qardaş

Gəl yıxıblar ələmdarı qardaş

Qanlı şəmşirim əldən düşübdü

Əl çalır Şamın əşrari qardaş

*****

Azim oldum gələm xeyməgahə

Həmlə fərmanı yetdi sipahə

Dörəmi aldı xəsmi müsəlləh

Qüssə üz verdi bu bipənahə

Yarə qəlbi, zarə dəydi, zarə dəydi

Gəl başımdan yarə dəydi, yarə dəydi

Qəlbimin çoxdu əsrari qardaş

Gəl yıxıblar ələmdari qardaş

Mən əzizi, Bu Turabəm

Hamili pərçəm inqilabəm

Ox vurullar dörd tərəfdən

Bir qanadı yaralı üqabəm

Yox yəsarım yəminim bəradər

Gəl imamım muinim bəradər

Atdı ox bu münafiq cəmaət

Parçalandı cəbinim bəradər

Mən yıxıldım, əşgim axdı, əşgim axdı

Qan tökənlər, durdu baxdı, durdu baxdı

Olmuşam qəm giriftarı qardaş

Gər ola qətə-qətə vücudum

Etmərəm düşməni dinə təzim

Xəstə sərbazını sərfəraz et

Eylərəm can hüzurunda təslim
Dil qəmində, qan olubdu, qan olubdu
Gözlərimə qan dolubdu, qan dolubdu
Yox silən çeşmi xunbari qardaş

Ey muradi, qəlbi məchur
Ey mücahid imami sələhşur
Əhli-beytə qıl işarə
Söylə tutsunlar Əbbasi məzur
Ali ətharimdən nagiranəm
Məşgimi oxlayan əl şil olsun
İtrəti zaridən nagiranəm
Vay mənə vay, şirixarə, şirixarə
Vay Rübab, biqərarə, biqərarə
Oldu məşgim suyu cari qardaş

Kamə dil çatdı Allahu Əkbər
Pərçəmim yatdı Allahu Əkbər
Qanlı rüxrasi şərməndəlikdən
Əşkim islatdı Allahu Əkbər

Həmdu lillah, rusefidəm, rusefidəm

Haqq yolunda, mən şəhidəm, mən şəhidəm

Pərçəmin gəl götür bari qardaş

Yox gümanım aşinayə

Ey mənim rəhbəri gəl hərayə

Öz qulamın, müftəxər qıl

Salgilən başımın üstə sayə

Xəncər altda bu xəncər sənindi

Təndə ruhum bəradər sənindi

Əl sənin, can sənin, baş sənindi

Qan dolan gözdə qardaş sənindi

Baş sənindi, can sənindi, can sənindi

Yaralı qurban sənindi, can sənindi

Dərk elə sahib isarı qardaş

Ruhi Quran gərək zində qalsın

Cəddinin dini payəndə qalsın

Hazıram hər müsibətə amma

Ali-Peyğəmbər əyməndə qalsın

Gərçi sahib, iftixarəm, iftixarəm

Qızlarından şərmsarəm, şərmsarəm

Qoyma tənha bu pasidari qardaş

**Ya Kaşifəl-kərbi ən vəchil-Huseyn əleyhis-salam, ikşif kərbi bihəqqi əxikəl- Huseyn əleyhis-salam.**

**İmam Səccad (ə) buyurdu: "Allah qiyamət günü əmim Abbasa elə bir dərəcə verər ki, bütün şəhidlər onun məqamına qibtə edər".**

### Həzrət Əbəlfəzlin (ə) İmam Hüseyndən (ə) kömək istəmək növhəsi

**"Asari Kəlami" kitabından**

Ələmdarın qanə batdı Hüseyn, kamə çatdı Hüseyn

Hardasan qardaş

Anan Zəhra Kərbəlayə gəlib, gəl nəvayə gəlib

Hardasan qardaş

Qolum düşdü pərçəmim yatdı

Bu halım Zəhranı ağlatdı

Seyyidi movla – seyyidi movla

*****

Əmud ahən sındırıb başımı, tökdü göz yaşımı

Ey şəhi aləm

Başım tacı gəl dönüm başına, ağlama qardaşına

Tut mənə matəm

Başım üstə ağlayan yoxdu

Yaram vardı bağlayan yoxdu

Seyyidi movla – seyyidi movla

Ola sogənd Əsğərin canına, Əkbərin qanına

Əbdi dərgahəm

Üzün görsəm məqdəmin öpərəm, fəxr edib deyərəm

Nokəri şahəm

Qərini lütfi müdaməm mən

Ki, alullahə qulaməm mən

Seyyidi movla – seyyidi movla

Fərat üstə gəl qiyamətə bax, qəmli halətə bax

Üz-gözüm qandı

Haray qardaş şuri vəlvələdən, zülmi Hərmələdən

Məşgim oxlandı

Ürək yandı əşgbar oldum

Susuzlardan şərmsar oldum

Seyyidi movla – seyyidi movla

## İmam Hüseynin (ə) sözləri

**“Asari Kəlami” kitabından**

Əbəlfəzlim ey əmiri hərəm, gözlərin öpərəm

Mehriban qardaş

Düşüb təndən qolların aralı, aç gözün yaralı

Qəhrəman qardaş

Havadari məktəbi Quran

Hüseynin canı sənə qurban

Ey susuz Səqqa – ey susuz Səqqa

*****

Sınıb başın dərdini bilirəm, gözlərin silirəm

Can ələmdarım

Bu can üstə tökmə göz yaşını, pozma qardaşını

Ey mədədkarım

Rəhi həqdə imtahan verdin

Rizayi cananda can verdin

Ey susuz Səqqa – ey susuz Səqqa

Bu isarın ey müdafeyi din bilsə Ümmü Bənin
İftixar eylər
Axan qanın ey vəfa gohəri, xəsmi fitnəkarı
Şərmsar eylər
Diyari eşqə səfa verdin
Cahana dərsi vəfa verdin
Ey susuz Səqqa – ey susuz Səqqa

Əba Fazil mərhəba yoluna, qət olan qoluna
Afərin qardaş
Adın dildə hər zaman qalacaq, cavidan qalacaq
Yari din qardaş
Əzizi Zəhra -o- Heydərsən
Muini dini Peyəmbərsən
Ey susuz Səqqa – ey susuz Səqqa

## İmam Hüseynin (ə) Əbəlfəzlə (ə) dərdləşməsi

**“Yadigari Səid” kitabından**

Ey şəmi cəmi əncümən, sərvi-xuraman çəmən
Ağlar kəsilmiş qollara, bu qardaşı əldən gedən
Əbbasi mən, Əbbasi mən
*****
Dur ey məni haraylayan, susuzlara su paylayan
Dərdin Hüseynə qıl bəyan, yoxdu yaranı bağlayan
Ey aşiqi şirin süxən, Əbbasi mən, Əbbasi mən

Ey adı dildən düşməyən, dildən belə düşdün nədən
Saldın Hüseyni müşgülə, ey dərdlərə dərman edən
Azadeyi gül pirəhən Əbbasi mən, Əbbasi mən

Nisgil sözün aç qardaşım, qanlı gözün aç qardaşım
Bağlandı çarə yolları, açsan özün aç qardaşım
Qurtar Hüseyni qüssədən Əbbasi mən, Əbbasi mən

Sərvi məgər yel sındırar, gül şaxəsin sel sındırar
Qəddim demə xəmdir niyə, qardaş dağı bel sındırar
Qəlbimdə var daği-mühən, Əbbasi mən, Əbbasi mən

Düşdü əlindən pərçəmin, dur sinəmə gəlsin qəmin

Göndər pəyami Ümmül Bənin, Yəsribdə tutsun matəmin

Qismət bizə olmaz vətən Əbbasi mən, Əbbasi mən

Qəlbin dolu qoğalıdı, amma su məşkin xalidi

Ətşan dodaqların deyir, Səqqa başı södalıdı

Candan düşüb qolsuz bədən Əbbasi mən, Əbbasi mən

Sındı dilavər ləşgərim, doğrandı yeksər ləşgərim

Asudə yat səndən sonra Zeynəb olar sərləşgərim

Ey aşiqi xunin-kəfən Əbbasi mən, Əbbasi mən

## İmam Hüseynin (ə) həzrət Əbəlfəzlin (ə) başı üzərinə gəlməsi

**“Rahiyani Kərbəla” kitabından**

Yatma vəfalı qardaş – ey vay Əbəlfəzl, ey vay

Başı yaralı qardaş – ey vay Əbəlfəzl, ey vay

*****

Pənahi əhli hərəm – sahibi cudi kərəm

Əkbərimə həmqəsəm – qolların oldu qələm

Nec oldu qanlı ələm – qardaşınam qəddi xəm

Mənə çətindi bu qəm – xeymələrə tək gedəm
Qəddim hilalı qardaş
Ey vay Əbəlfəzl, ey vay

Bir-birə səflər dəyib – süfufi ləşgər dəyib
Qəlbinə əxgər dəyib – torpağa əfsər dəyib
Yarə mükərrər dəyib – bir belə xəncər dəyib
Sədmeyi digər dəyib – başına şeşpər dəyib
Atam misalı qardaş
Ey vay Əbəlfəzl, ey vay

Torpağa sürtmə üzün – de mənə olsa sözün
Şamə dönüb gündüzün – səlb olub axər dözün
Zəhmətə salma özün – qardaşınam aç gözün
Səslir ədu səf düzün – başını təndən üzün
Qızın məlalı qardaş
Ey vay Əbəlfəzl, ey vay

Sən gülü zibəndəsən – göhəri ərzəndəsən
Aşiqi rəzməndəsən – saleh olan bəndəsən

Fikri pərakəndəsən – olmaya şərməndəsən
Yatma bu gülşəndə sən – məbəri düşməndə sən
Su məşgi xali qardaş
Ey vay Əbəlfəzl, ey vay

Başda yaran qan verir – halını elan verir
Vədeyi hicran verir – naleyi neysan verir
Vay köməyim can verir – canını qurban verir
Fədayi Quran verir – nehzətə saman verir
Məqami ali qardaş
Ey vay Əbəlfəzl, ey vay

Ey yaralı yavərim – nişaneyi Heydərim
Əlaməti əsgərim – yari ələm pərvərim
Vəfalı sərleşkərim – həmdəm -o- həmsəngərim
Yandı dili müztərim – beldə qalıb əllərim
Dilim nəvalı qardaş
Ey vay Əbəlfəzl, ey vay

Dur sənə həmdəm gələr – razına məhrəm gələr

Yarana mərhəm gələr – naləyə aləm gələr

İndi Rüqəyyəm gələr – tutmağa matəm gələr

Gözləri pornəm gələr – bacımla bahəm gələr

Vardı sualım qardaş

Ey vay Əbəlfəzl, ey vay

Bikəs hərəmlər qalıb – cümləsi müztər qalıb

Ali-Peyəmbər qalıb – didələri tər qalıb

Kim mənə yavər qalıb – nə Oni Cəfər qalıb

Nə Qasim, Əkbər qalıb – bir Əli Əsğər qalıb

Yamandı halı qardaş

Ey vay Əbəlfəzl, ey vay

Yatma aman qardaşım – halı yaman qardaşım

Mənim cavan qardaşım – əşgi rəvan qardaşım

Başı sınan qardaşım – dərdi geran qardaşım

Qəlbi dolan qardaşım – vay nigəran qardaşım

Sidqi səfalı qardaş

Ey vay Əbəlfəzl, ey vay

Qaldı susuz uşaqlar – soldu saraldı bağlar

Bilsə anan qan ağlar – ahı cahanı dağlar

Dağın ürəkdə saxlar – başına qara bağlar

Dizlərini qucaqlar – gündə səni soraqlar

Eldən aralı qardaş

Ey vay Əbəlfəzl, ey vay

Ümmü Bəninin balası – başda qılınc yarası

Ovci vəfa hüması – vay əlimin əsası

Gözlərimin ziyası – qanlı gözün fədası

Çoxdu başın bəlası – yoxdu yaran dəvası

Başı bəlalı qardaş

Ey vay Əbəlfəzl, ey vay

Qanına batdın Əbbas – dini ucaltdın Əbbas

Aləmi atdın Əbbas – ay kimi batdın Əbbas

Qəmim çoxaltdın Əbbas – mərama çatdın Əbbas

Oyan nə yatdın Əbbas – məni qocaltdın Əbbas

Döşüm medalı qardaş

Ey vay Əbəlfəzl, ey vay

## İmamın (ə) həzrət Əbəlfəzlə (ə) dərdləşməsi

**“Kərbəlayi İran” kitabından**

Vəfalı sərləşgərim aç gözlərin

Yaralı həmsəngərim aç gözlərin

Əbəlfəzl Əbəlfəzl – yavərim aç gözlərin

*****

Yaralısan məqsədinə çatmısan

Cibheyi-Quranda qana batmısan

Qan arasında nə əcəb yatmısan

Yatma sınıb şəhpərim aç gözlərin

Xəsmilə divan eləsin Həqq özü

Ortamıza saldılar hicran sözü

Yoldadı məxyəmdə Rübabın gözü

Axır ölər Əsğərim aç gözlərin

Qanlı başın qoy basım ağuşimə

Düşdü ağır risalətin duşimə

Doldu qəmin sineyi por cuşimə

Ey adı dil əzbərim aç gözlərin

Xabgəhi eşqidə yatdın əxa
Əl verib İslamı ucaltdın əxa
Qardaşını yaxşı qocaltdın əxa
Səndə qalıb  gözlərim aç gözlərin

Pozdu mənim halımı qardaş qəmin
Yumma gözün didə gəlib həmdəmin
Köməksizəm, dur ələ al pərçəmin
Ələm tutan əfsərim aç gözlərin

Ağlama göz yaşına qurban olum
Parçalanan başına qurban olum
Yarına yoldaşına qurban olum
Əlaməti əsgərim aç gözlərin

Vay mənə gülzari ümidim solub
Neyzələr altda bədənin xurd olub
Əli baxış gözlərinə qan dolub

Nişaneyi Heydərim aç gözün

## İmamın (ə) həzrət Əbəlfəzlin (ə) şəhadətini xəbər verməsi

**“Peyami Kəlami” kitabından**

Bacı qanə batdı Səqqa, de susuzlar ağlasınlar

Su yolu gözlətləyənlər başa qarə bağlasınlar

*****

Demə ol şəhidi eşqi gətirəmmədim xiyamə

Gətirirdim etdi xahiş yoluma verəm idamə

Utanırdı bir də baxsın bu bənati teşnəkamə

De Səkinə -o- Rüqəyyə onu az sorağlasınlar

Bacı xemeyi Əbəlfəzl göz evində qaldı xali

Yıxaram onun sütunun bilə hamı bu məlalı

Atam oğlunun düşübdü qolu cismidən aralı

Xəbər eylə Ali-Heydər bu əzanı saxlasınlar

Başımın yarası saldı bacı Mürtəzanı yada

Məni qoydu tək bu çöldə yetişib özü murada

Qolu məşgi bir tərəfdə, bədəni qalıb arada

Nigəranəm indi  atlar bədənin ayaqlasınlar

De Səkinə nohə yazsın, oxusun Rübab anası
Südəmər susuzdan ölsə, ucalar ana nəvası
Dilə gəlsə şirixarə eləməz su iltiması
Qoşun az qalır balamı əlim üstə oxlasınlar

Su yanında teşnə öldü qədəhi şikəstə saqi
Su yolunda oldu fani adı dildə qaldı baqi
Uca qaməti kiçildi başı düşmədi aşaği
Gərək asimanda quşlar ona sinə dağlasınlar

Yarası çox idi əzbəs saya bilmədim bədəndə
Anamın səsin eşitdim başı üstünə gedəndə
Canı təndən ayrılanda dodağı vurdu xəndə
Dedim halına gülənlər bunu yadda saxlasınlar

Dedim axərin nəfəsdə nədi ruhunun pəyamı
Dedi şakirəm Xudayə, elədim riza imamı
Ucadı o qəhrəmanın şühədadən ehtiramı

Özü gəlmədi de qızlar ələmin qucaqlasınlar

## Həzrət Rübabın (s.ə) sözləri

**“Kəlami Kəlami” kitabından**

Hanı mələr balam – o südəmər balam

Rübab edir nəva ilahi

Balam gedib suya ilahi

*****

Dönəydi qanə su – Xuda nə qəmdi bu

Qalıbdı qüssədən – üərəkdə arizu

Gözüm baxır yola ilahi

Balam gedib suya ilahi

Gilayə etmədi – murada yetmədi

Mənim mələr quzum – sudan qayıtmadı

Dəyib ona yara ilahi

Balam gedib suya ilahi

Qutardı nazını – qəm niyazını

Əqəlli öpmədim – susuz boğazını

Gərək tutam əza ilahi

Balam gedib suya ilahi

Xəzan günü mənim – dağıldı gülşənim

Suya baxa-baxa – saraldı susənim

Gülüm olub fəna ilahi

Balam gedib suya ilahi

Gələmmədi dilə - balam edə gilə

Özü gedib, məni – salıbdı müşkülə

Başa gəlib bəla ilahi

Balam gedib suya ilahi

Əlini bağladım – sinəmi dağladım

O getdi mən baxıb – dalınca ağladım

Ox atdı əşqiya ilahi

Balam gedib suya ilahi

Sular axar gedər – susuz baxar gedər

Yaralı ahular – küsüb çıxar gedər

Necə dözər ana ilahi

Balam gedib suya ilahi

### Əli Əsğər (ə) anasının sözləri

**"İnqilabi Huseyni" kitabından**

Əsğərim olub xədəngi düşmənə nişan boğazın

Vay mənə oğul tutubdu ləxtə-ləxtə qan boğazın

*****

Kokəbi səhər misalı Əsğərim nə tez batıbsan

Açmısan gözün gözündən olmaya məni atıbsan

Hülqünə dəyibdi peykan qana zülmilə batıbsan

Bərməla Rübabə eylir dərdini bəyan boğazın

Aç gözün oğul bilirsən biqərar -o- dilkəbabəm

Göz yaşım, axır gözümdən daim ağlayan səhabam

Özgə fərz edirsən olma yox bala anan Rübaba

Bağlaram bu məcərimlə indi xunfişan boğazın

Ərseyi-vəfada verdin ali imtahan sən, əhsən

Atəşi bəlayə vurdun haqq yolunda damən əhsən

Eşqinə deyir əzizim əhli-aləm əhsən-əhsən
Etmisən neçin təbəssüm oxlanan zaman boğazın

Ruhunun quşu əzəldən aşiq idi bu diyara
Həncərənə vurdu düşmən şəhriyar əlində yara
Oldun ey susuz qonağım rəhsipari bəzmi yarə
Get ziyarət eyləsinlər cümlə qüdsiyan boğazın

Qəlbimi qəmə bu qəmdə məxzən eylərəm vətəndə
Gündə günlərin qabağın məskən eylərəm vətəndə
Gəhvarənə baxanda şivən eylərəm vətəndə
Yadıma düşər əzizim teşnə oxlanan boğazın

Get sərvər ilə hüzuri yarə dərki izzət eylə
Qəmlərində cənnət əhli cümlə qərqi-möhnət eylə
Cəddinə oğul cəfayi-xəsmidən şikayət eylə
Şahid istəsə bu zülmə vergilən nişan boğazın

Cami çeşmin ey Kəlami əşki həsrətilə doldu
Ağla söylə baği-Zəhra Kərbəla çölündə soldu

Hansı bir qonaqə aya bir belə cəsarət oldu

Etdi mizban xədəngi yarə mehman boğazın

## Həzrət Rübabın (s.ə) sözləri

**“Çəhardəh məsum” kitabından**

Ey axan qanı bələkdən dərdimin dərmanı laylay

Qanlı meydanda Hüseynin axərin qurbanı laylay

*****

Üç gecə-gündüz ananın olmadı pistanda şiri

Oğlumu aldı əlimdən düşmənin üş şöbə oxu

Can verib etdin Rübabi dəhridə hicran əsiri

Yum gözün açma dubarə Fatimənin mehmanı laylay

Sineyi-şəhdən canana quş kimi pərvaz edirsən

Rütbeyi babul-həvaic alıbsan ecaz edibsən

Nazına qurban Rübabə altı ay sən naz edibsən

Qanilə sirab olubsan üç günün ətşanı laylay

İstirəm oğlum ölüncə nəşim ağuşə alam mən

Xali gəhvarən yanında əyləşib laylay çalam mən

Olmadı süd, bais oldu oğluma həsrət qalam mən
Ağ qümati qarə rəngə döndərən alqanı laylay

Ayrılıb baba döşündə sən mənə güldün gedəndə
Nagiran baxdım dalınca olmadı bir çarə məndə
Ölməsəm şatsam Hicazə neylərəm sənsiz vətəndə
Qanilə səhrayi qəmdə islanan daməni laylay

Oğlumu axir əlilmdən bivəfa düşmənlər aldı
Sən suya qolbağlı getdin əllərim qoynumda qaldı
Nə gülüb, nə ağlamırsan vay əzizim bu nə haldı
Aç gözün laylay deyim yat gözlərin qurbanı laylay

Ey gülüstandan doyan gül doymadım vəllahi səndən
Sən Rüqəyyəm canı oğlum yox günahım küsmə məndən
Süd əmən ayrılmaz axı teşnə halda süd verəndən
Şərmsar etdi zəmanə madəri nalani laylay

Əsğəri məhparə laylay, bülbüli avarə laylay
Yox ananda çarə laylay, gül boğazi yarə laylay

Naz edən gülzarə laylay bax bu hali zarə laylay

Ey Hüseynin ruhi laylay vay Rübabin cani laylay

## İmamın (ə) Əli Əsğərə (ə) sözləri

**“Asari Kəlami” kitabından**

Əsğər ey tutiyi xəstə, oxlanan əllərim üstə

Niyə qaldın bu halə

Əl-ayaq çalma bala

*****

Sənə dəydi tiri kinə, oldu məqtəlin bu sinə

Vay Rübab dilqəminə, müntəzir qalıb Səkinə

Qoyma nagiran qala

Əl-ayaq çalma bala

Hərmələ atanda peykan, etdi lərzə koni-imkan

Boğazından tökülən qan, qundağın olubdu əlvan

Kimdi laylay çala

Əl-ayaq çalma bala

Ey gül üzlü şirxarə, bürci eşqidə sitarə

Uf ola bu ruzigarə, kəsdi rəglərin bu yarə
Az bu qəlbi parçala
Əl-ayaq çalma bala

Mənə kimdi həmədəm olsun, munisim gərək qəm olsun
Qərqi matəm aləm olsun, beşiyin bu sinəm olsun
Ta ürək qərar ala
Əl-ayaq çalma bala

Ey solan qönçə çağında, çox sözün var dodağında
Yat babanın qucağında, sınma düşmən qabağında
Sürüdən qalma dala
Əl-ayaq çalma bala

Sən medali şərəf aldın, zahirən axira qaldın
Kuyi rəfətdə ucaldın, ananı matəmə saldın
Ta yanıb fəğan sala
Əl-ayaq çalma bala

Ana növhəsi

**“Munacati Kəlami” kitabından**

Çəkənmirəm bu nazını yaralısan gözəl bala

Necə öpüm boğazını yaralısan gözəl bala

*****

Əli bələkdə can verən necə çalıxlar ay bala

Yanar susuz dodağına suda balıqlar ay bala

Beşikdə yatmayan uşaq qucaqda yuxlar ay bala

Atan çəkibdi nazını yaralısan gözəl bala

Sınaydı qatilin, Əli kaman tutan biləkləri

O tək sənə ox atmadı ki, oxladı ürəkləri

Dilin tutuldu boynunun qırıldı muyi rəgləri

Danış Rübabə razını yaralısan gözəl bala

Bibin çıxardar ünnüyün bu dilkəbabə tapşıra

İmamə qaytara səni qəmin Rübabə tapşıra

Qazıbdı qəbrini atan səni türabə tapşıra

Gəlir qıla namazını yaralısan gözəl bala

Əl üstə şahi teşnələb apardı məqtələ səni

Su istədi, xədəngilə suvardı Hərmələ səni
Əgər biləydim ölməyin salardım əvvələ səni
Deyəydin öz niyazını yaralısan gözəl bala

Kimin balası bigünah sənin tək oxlanar Əli
Bilənməz özgə halımı fəqət ana qanar Əli
Mənim boğazım indidə alov tutub yanar Əli
Çək ahi pər qudazını yaralısan gözəl bala

Səni Həqq eylədi əta rəcəb ayında pay mənə
Medali iftixar idin qucaqda altı ay mənə
Bu rişteyi qumatidən əlim üzüldü vay mənə
Unutma eşqbazını yaralısan gözəl bala

Gözüm ziyası sən kimi tapılmaz heç çəməndə gül
Oxa təbəssüm eylədin gül indi ağla bir də gül
Necə yaranı bağlayım bu yarə bağlanan deyil
Alıbsan imtiyazını yaralısan gözəl bala

## İmamın (ə) Əli Əsğərə (ə) nöhvəsi

**“Kəlaminin nəvası” kitabından**

Məhrəmi razım Allah – bəndə nəvazim Allah

Oldu əlimdə pərpər – qönçeyi nazim Allah

Südəmər balam – qanə batıb yaralıdı

Oxlu qurbanım – Fatimənin maralıdı

Allah Allah

*****

Oldu bu nazidanə – üç pər oxa nişanə

Dağlı ürəklə səpdim – qanını asimanə

Qanı boğazdan axdı – gözləri ərşə baxdı

Yəni yox iltimasım  düşməni biimanə

İçdi öz qanın – baxmadı nəhri Əlqəmə

Çaldı əl-ayaq – saldı Rübabı matəmə

Allah Allah

Düşdü balam fişarə - oldu boğazı yarə

Bu yaralı şəhidim – töhfədi bəzmi yarə

Eylədi şirixarə – sinəmi gəhivarə

Yat dedim ay əzizim – açma gözün dubarə

Yumdu gözlərin – sinəsi dağlı Əsğərim

Getdi cənnətə – əlləri bağlı Əsğərim

Allah Allah

Hərmələ gəldi cəngə – qəlbi dolandı səngə

Gördü müqabilində - güldü balam xənəngə

Baxdı mənə dubarə - güldü bu ruzigarə

Yəni baş əyməz aşiq – zillət-o-ar-o-nəngə

Qozadı balam – pərçəmi Ali-Haşimi

Əkbərim kimi – Əsğər ucatdı başımı

Allah Allah

### İnqilab şəhidlərinin xatirəsinə və Əli Əsğərin (ə) şəhadətinə işarə

**“Rahiyani Kərbəla” kitabından**

Ey əzizan, ey şəhidan

Həqq sizi payəndə saxlar

Qanız, and olsun Hüseynə

İnqilabı zində saxlar

*****

Siz Hüseyn ibn Əlinin eşqinə qurban olubsuz

Məktəbi Quranə qurban, dinə poştiban olubsuz

Qürbi əladır məkanız, cənnətə mehman olubsuz
Huriyani baği-rizvan sizləri daməndə saxlar

Rahiyi-kuyi-şərəfsiz, əzmi ahəngiz gözəldi
Koşteyi-rahi-hədəfsiz, xətti fərhəngiz gözəldi
Sındırıb şəmşiri qanız, şiveyi cəngiz gözəldi
Hörməti isari eşqi ümməti rəzməndə saxlar

Başızı xumparə yardı, başıza dəydi gülulə
Qoymadız bir ləkkə düşsün, daməni dini üsulə
Qaldı adız cavidanə yetdi isarız qəbulə
Ta əbəd Xəllaqi Yekta dölətiz payəndə saxlar

Lalə tək rəngiz qızardı cilvələndi əhmər oldu
Dəsti-gülçini-qəzadə gül vücuduz pərpər oldu
Toy libasız qanlı köynək, hicləgahız səngər oldu
Kərbəla damadı Qasım qədrizi ərzəndə saxlar

Cəbhe ətragin olubdu zikri ya Rəbb, ya Rəbbizdən
“Yurzəqun” şənizdə bəsdi iftixari mənsəbizdən

Başızı Allah ucaltsın çəkmədiz əl məktəbizdən
Qəlbin aşiq həqq yolunda eşqilə akəndə saxlar

Şahi-ətşan eşqi başda cibhədə ətşan ölübsüz
Vəsli-cananda nələr var özgə bilməz siz bilibsiz
Kainatı ağladıbsız can verən halda gülübsüz
Əhli-dil dildarə töhfələblər üstə xəndə saxlar

Cəngi təhmili dediz azadəqanə xoş məhəkdir
Gəlsin hər kəs ki, sözü "ya ləytəna kunna məək"dir
İndi də Zəhranın oğlu ərseyi-meydanda təkdir
Əhsən ol qovma ki, rəxti-rəzmi soymaz, təndə saxlar

Qərnlər təxirə qaldız, heyf ola dur zamanda
Olmadız Kərbübəladə vədəgahi aşiqanda
Şirixar oğlun köməksiz rəhbər ağuşa alanda
Gün necə əldə görəydiz kökəbi rəxşəndə saxlar

Etdi fərmayiş cəmaət ləbləri suzandı oğlum
Şərm edin dərya yanında sizlərə mehmandı oğlum

Həm qonaqdı, həm uşaqdı, bivəfalar yandı oğlum
Cürə su olsa bu oddan oğlumu əyməndə saxlar

Onda bir üç şöbə tiri Hərmələ qoydu kamanə
Əsğərin həlqi biçildi, ağ qümatı batdı qanə
Şah o qanı tutdu əldə səpdi səmti asimanə
Göydə ol qandan mələklər qırmızı pərvəndə saxlar

Açsa o pərvəndəni gər həşridə dəsti ədalət
Baş açar Əsğər anası, başlanar özgə qiyamət
Hərmələ zülmündən eylər məhzəri Həqqə şikayət
Qanlı döşlük dadiqahi Xaliqi Zulməndə saxlar

Əsğərin hicri Rübabın başını qoğayə saldı
Çıxmadı yasdan ölüncə, əlləri qoynunda qaldı
Gün qabağında deyirlər əyləşib rəngi qaraldı
Hey dedi oğlum əzanı madəri şərməndə saxlar

Can bala ömrün az oldu canə doydun qanə batdın
Həm atan həm qardaşınla yan-yana bir yerdə yatdın

Mən dedim laylay yoruldum sən məni yaddan çıxartdın
Sinəmi dağın əzizim, yandırıb suzəndə saxlar

Zindegi səndən sonra bu dilkababa müşgül oldu
Əlləri bağlı anandan ayrı düşdün niskil oldu
Yuxuladın baba döşündə hasilin kami-dil oldu
Hansı şəh şeşmahəsin şeşguşə bir mədfəndə saxlar

Kaş oğul şami qəriban axşamı gün batmayaydı
Nəhri-Əlqəm xoşk olaydı su Rübabə çatmayaydı
Bu sinə südsüz qalaydı qəm məni ağlatmayaydı
Su içər bikəs ana süd səhmini dilbəndə saxlar

Bəs ki, ağlardın deyərdim tək suya ətşan idin sən
Gülməyinlə etdin elan, teşneyi-peykan idin sən
Afərin, ey ləli-Əsğər axərin qurban idin sən
Xırda ləli xibrə sərraf axərə məxzəndə saxlar

Sübhi məhşər ki, pərişan qəbridən durram ayağa
Gər özünü tapmasam, boş qundağın allam qucağa

Bir əlim sinəmdə nifrin eylərəm əhli İraqa
Payi-mizanda o halım xəsmi sərəfkəndə saxlar

Mən Rübabəm qəlb evimdə qüssə var, qəm var, mühən var
Didəmə sənsiz  vətəndə nə gələn var, nə gedən var
Gözlərin qurban sənə Zəhra kimi laylay deyən var
Can deyər, nazın çəkər, qundaq bələr, zibəndə saxlar

Gəl deyim peyvəstə laylay, laleyi norəstə laylay
Yaralı quş tək verən can, əl-ayağı bəstə laylay
Başı avizan bədəndən, bülbüli dilxəstə laylay
Xəstə bülbüllər sənə bir ömr əza gülşəndə saxlar

Əsgəri məhpəra laylay, həsrəti gəhvarə laylay
Döşlüyü qan ilə əlvan, gül boğazı yarə laylay
Yox əlimdə çarə sənsiz, qalmışam avarə laylay
Hicrin ey babül-həvaic qüssə hacətməndə saxlar

Hacətin olsa Kəlami, gəl yıxıl bu asitanə
Ver qəsəm Zəhra ərusin Əsğəri şirinzəbanə

Şerinə alsın silə, movla Hüseyndən yanə-yanə

Hər nə istərsən de şair ərzin axər bəndə saxlar

## İmam Hüseynin (ə) Əli Əsğəri (ə) xeymələrə gətirməsi

**“Peyami Kəlami” kitabından**

Gəl bacı düşmən qəmimi, çoxaltdı

Hərmələ dilsiz balama, ox atdı

*****

Hər qədəmə ah ucalır ürəkdən

Hərmələnin düşsün əli biləkdən

Qoyma tökülsün yerə qan bələkdən

Yatmışdı Əsğərim ox oyatdı

Ax dedim üç şöbəli ox gələndə

Güldü balam dərdi-dilim biləndə

Xəstəliyim çıxdı gülüm güləndə

Baxdı mənə yaddan özün çıxartdı

Axdı qanı qaytara ta bəlanı

Saldı bu qan lərzəyə nöh səmanı

Səpdim özüm asimana o qanı
Su mühəni əşgimi qanə qatdı

Oğlumun eşqi yetişib sübatə
İçmədi su ta çata can nicatə
Qaldı bu nəng əbədi Fürətə
Naləsin axdıqca Fürat ucaltdı

Tapşır özün itrəti-Bu Turabə
Yar olalar madəri dilkəbabə
Allah Özü səbr verər Rübabə
Qönçəsini badi-xəzan saraltdı

Hardasan ey yari qəmi fəraqim
Gəlməyə gəmir hərəmə ayaqim
Qanlı həm əllərim, həm dodaqim
Ox yarasından mənə busə çatdı

Nohələrin müxtəsər et Kəlami
Yolla Hüseyn məhzərinə salamı

Səslədi gəl Zeynəbim al balamı

Oxlanıb ulduz gün əlində batdı

### Həzrət Zeynəbin (s.ə) İmama (ə) sözü

**“Səlami Kəlami” kitabından**

Adın fədası ya Hüseyn, ağlatma afaqi

Bu qədri basma bağrına, qanlı qundaqi

Gözlərin qurbanı, ağlatma Zəhranı

*****

Xədəngi ahilə Hüseyn, qəlbimi oyma

Susuz dilində can bala, canidən doyma

Mələr Rübabi xeymədə, müntəzir qoyma

Gətir yarasını öpə, ayrılıq çağı

Gözlərin qurbanı, ağlatma Zəhranı

Anam canı bu halına, ərşiyan ağlar

Səmaya səpdiyin qana, asiman ağlar

Olar qəmində Zeynəbin, bağrıqan ağlar

Gör isladıbdı göz yaşım, qarə torpağı

Gözlərin qurbanı, ağlatma Zəhranı

Becadı dərdin aləmi, dili məlul etsin

Gərək səhər sitarəsi, tez üful etsin

Bu axərin şəhidini, haqq qəbul etsin

Pozar bu qanlı mənzərə, halı üşşaqi

Gözlərin qurbanı, ağlatma Zəhranı

Əzizinə dəyibdi ox, əllərin üstə

Xədəngi naz həlqidən, çəkdin ahistə

Utanma gəl xiyamə ey, yari dilxəstə

Veribsən eşqilən başa, əhdi-misaqi

Gözlərin qurbanı, ağlatma Zəhranı

Sən ağlama özüm sənə, ağlaram qardaş

Əli dedikcə sinəmi, sinəmi dağlaram qardaş

Boğazının yarasını, bağlaram qardaş

Olub o məsti kosərə, Mürtəza saqi

Sən eşqin günəşisən, Əsğərin bir ay

Rübabə batan ayı, verdi Allah pay

Gətir verim anasına, hey desin laylay

Edibdi sinəsin xəraş, xırda barmağı

Gözlərin qurbanı, ağlatma Zəhranı

## Həzrət Rübabın (s.ə) sözləri

**“Rahiyani Kərbəla” kitabından**

Dilsiz qonağım Əsğərim ey vay, balam ey vay

Lalə siyağım Əsğərim ey vay, balam ey vay

Ey vay, balam ey vay

*****

Gülçini qəza aldı əlimdən səni seçdi

Kim bildi Rübabın qalan ömrü neçə keçdi

Beş gün fələkin xoş günü var, axəri heçdi

Söndü çırağım Əsğərim ey vay, balam ey vay

Batdın qana sən xırda çağında evin abad

Yat indi Hüseynin qucağında evin abad

Qoy mən oturum gün qabağında evin abad

Bu qəmli çağım Əsğərim ey vay, balam ey vay

Ayrılmaz oğul heç ana bir ləhzə baladan
Müddətdi keçir vaqieyi-yomi bəladan
Qırxında fələk qovdu məni Kərbübəladan
Tut bir sorağım Əsğərim ey vay, balam ey vay

Getdi səməri-qəlbi Rübab özgəyə çatdı
Sərrafın əlindən dürü-nab özgəyə çatdı
Gül bəslədim axırdə gülab özgəyə çatdı
Var dildə dağım Əsğərim ey vay, balam ey vay

Tək başıma bir heyətəm əşgi-bəsirim var
Qurtulsa əgər göz yaşı xuni-cigərim var
Gəl bir qulaq as gör nə gözəl nohələrim var
Arxam dayağım Əsğərim ey vay, balam ey vay

Gəlsən yuxuma gəl bala göz yolda qalıbdı
Amma üzümə baxma ki, rəngim qaralıbdı
Baxsan tanımazsan anan ölsün qocalıbdı
Pozdun tifaqım Əsğərim ey vay, balam ey vay

## Ananın bala qəmində növhəsi

**“Peyami Kəlami” kitabından**

Dərdimin ey çarəsi laylay Əli
Boğazda ox yarəsi laylay Əli
Hayanda qaldın bala – nə tez saraldın bala
Sinəmi tərk eylədin – canımı aldın bala

*****

Şəhdi-bəla içdin oğul nuş olsun
Sineyi-babada yerin xoş olsun
Kənizinəm mən qoy əlim boş olsun
Başım tacı qarası laylay Əli

Sən demək olmaz nənə möhtacısan
Kəbə müsafirlərinin tacısan
Qundağın əhram, südəmər hacısan
Firiştə guşvarəsi laylay Əli

Sən ki, susuzluqdan ölürdün bala
Bəs niyə can üstə gülürdün bala
Yarəni sən çarə bilirdin bala
Yarəsi öz çarəsi laylay Əli

Güldən ağır söz demədim mən sənə

Su yerinə ox atdı düşmən  sənə

Hüseyni sındırmadın əhsən sənə

Fatimə məhparəsi laylay Əli

Çəkdi oğul Fatimə nazın sənin

Qəmli Rübabə nə niyazın sənin

İmam özü qıldı namazın sənin

Şah Əli gəhvarəsi laylay Əli

Qəmdən oğul olmadı rahi nicat

Sən suya baxdın çölə axdı Fərat

Yat gözəlim, yat gülüm, asudə yat

Cürə su avarəsi laylay Əli

## Zeynəbin (s.ə) övladlarının növhəsi

**“Sedayi Kəlami” kitabından**

Ya Fatimə ah ilə bax qanlı biyabana

Zeynəb iki qurbanın yollur batalar qana

Seyyidi məzluman tənha qalıbdı

Zeynəbin gözləri yolda qalıbdı

*****

Gətdi iki dildarın əğyarı utandırdı

Ərzi-ədəb etdikcə aləmləri yandırdı

Oğlanlanlarını şahın başına dolandırdı

Guya qədəmi şəmi öpdü iki pərvanə

Seyyidi məzluman tənha qalıbdı

Zeynəbin gözləri yolda qalıbdı

Ərz etdi: Hüseyn bunlar nuri-dili xahərdi

Bir cüt bala ovladi Əbdullahi Cəfərdi

Bu nokəri Əkbərdi, o xadimi Əsğərdi

Təqdimi-hüzur oldu bir cüt gülü-reyhanə

Seyyidi məzluman tənha qalıbdı

Zeynəbin gözləri yolda qalıbdı

Zəhraya görə məndən bir hədyə qəbul elə

Yoxdur köməyin qardaş əşgim dolanıb selə

Pərvəndeyi-eşqində yaz adlarını zeylə

Qoy fəxr eləsin bacın dünya boyu nisvanə
Seyyidi məzluman tənha qalıbdı
Zeynəbin gözləri yolda qalıbdı

Mən şəmi-vəfa bunlar pərvanədilər qardaş
Az sinnilə himmətdə mərdanədilər qardaş
Hammı buları istər dürdanədilər qardaş
Xoşdur gülü-Zəhrayə qurban ola dürdanə
Seyyidi məzluman tənha qalıbdı
Zeynəbin gözləri yolda qalıbdı

Yalqız canına qurban ey fəxri-Bəni Haşim
Mən Zeynəbəm eşqində tufana düşüb başım
Gəl qəlbimi sındırma ehsan elə qardaşım
Ətşan balalarımla gəldim dəri-ehsanə
Seyyidi məzluman tənha qalıbdı
Zeynəbin gözləri yolda qalıbdı

Olsaydı cihad izni nisvana şəriətdə
Eylərdi bacın qurban can əvvəli nobətdə

Oğlanlarımı verrəm ta ruzi-qiyamətdə

Zəhranı edəm dəvət gülzari şəhidanə

Seyyidi məzluman tənha qalıbdı

Zeynəbin gözləri yolda qalıbdı

## Zeynəbin (s.ə) övladları

**“İradətnameyi Kəlami” kitabından**

Ya Hüseyn gəl yola sal Fatimə qurbanlarını

Qoş öz oğlanlarına Zeynəbin oğlanlarını

*****

Bu iki dilbəri xoşdu iki dilbər bəyənə

Hədyeyi-xahəri məclisdə bəradər bəyənə

Birin Əkbər edə mehman, birin Əsğər bəyənə

Eşq bimaridilər lütf elə dərmanlarını

Zeynəbin qeyrəti qardaş ələvidir bilisən

Dözərəm qəlbimin imanı qəvidir bilisən

Hədəfim rönəqi din nəbəvidir bilisən

Balalarım verə canana gərək canlarını

Şühəda gülşəninin nükhəti qüdsiyyəsi var
Qəm şərikindi bacın eşqidə səhmiyyəsi var
Dili Zeynəbdə Hüseyn, Fatimə ruhiyyəsi var
Naqis aşiqidi o ki, sındıra peymanlarını

Qardaş əyləş yerə sən şəmi hərəmxana kimi
Gətirim güllərimi qönçeyi-reyhanə kimi
Üçümüz də dolanaq başüvə pərvanə kimi
Az şərari qəmə yandır dili-suzanlarını

Dərs alıblar gedələr, cəng edələr, san verələr
Bu kiçik canlarını Allaha qurban verələr
Demişəm əl verələr, baş verələr, qan verələr
Qatalar Qasimlə Əkbər qanına qanlarını

Zeynəbəm istirəm ehya ələmi məktəb ola
Qəlbimə dağ çəkilə məndə də bu mənsəb ola
Gərək aləmdə Hüseynin bacısı Zeynəb ola
Sındırammaz fələk İslam nigəhbanlarını

## Bacının vəfadarlığı

**“Zəxireyi Kəlami“ kitabından**

Yari bəladı Zeynəb – kənzi viladı Zeynəb

Nabiğeyi qəhrəman – Kərbübəladı Zeynəb

Xanım Zeynəb – gör necə imtahan verib

İki oğlu – qan arasında can verib

Allah Allah – Allah Allah

*****

Gördü imamı təkdi – qardaşı biköməkdi

Sənlə bacın bu qəmdə – söylədi müştərəkdi

Hüseyan canəm – sal balalarımı yola

Gərək aşiq – can verə sərbülənd ola

Allah Allah – Allah Allah

Fatimədən dəm allam – qəlbimə min qəm allam

Çiynimədə bu əzada – bir qara pərçəm allam

Hamı bilsin – himməti çoxdu Zeynəbin

Bəlalardan – qorxusu yoxdu Zeynəbin

Allah Allah – Allah Allah

Cəngə gedib uşaqlar – qaldı hərəmlər ağlar

Batdılar qana bir-bir – teşnə qalan qonaqlar

Dəyib oxlar – qanları axdı meydana

O səhrada – düşdü hərəsi bir yana

Allah Allah – Allah Allah

Səslədilər imamı – verdilər bu peyamı

Gəl ey əzizi Zəhra – tap iki teşnəkamı

Təsəlla ver – ta anamız darıxmasın

Bu matəmdə - xaneyi səbri yıxmasın

Allah Allah – Allah Allah

Gəldi imami məzlum – ahilə qəlbi məğmum

Gördü düşüb nəfəsdən – ol iki tifli məsum

Dedi Əbbas – yan bu qəmi fəraqimə

Birin sən al – mən də birin qucağıma

Allah Allah – Allah Allah

Qüssələr oldu tazə – bax qəmi can qudazə

Xeymələrə o halda – gəldi iki cənazə

Dedi Zeynəb – ahə hərəm boyanmasın

Olun aram – məndən Hüseyn utanmasın

Allah Allah – Allah Allah

Səbrilə oldu həmrah – doxtəri ismətullah

Səslədi ruhi Zəhra – Zeynəbə barəkəllah

O azadə – başına qara bağladı

Vüqar ilən – nehzəti zində saxladı

Allah Allah – Allah Allah

Ey şühəda anası – var başızın qarası

Dərsi iradə verdi – sizlərə qəm kilası

Olub İslam – zində bu inqilabıdan

Difa etdiz – məktəbi Bu Turabidən

Allah Allah – Allah Allah

### İmamın (ə) həzrət Zeynəbə (s.ə) cavabı

**“İradətnameyi Kəlami” kitabından**

Bəsdi çox israr eləmə, gəlmə nəvayə Zeynəb

Yolluram oğlanlarını, qanlı minayə Zeynəb

Zeynəbim Allaha təvəkkül eylə, həzrəti Zəhraya təvəssül eylə

Qüsseyi-şərikim bacı can niyə pozuldu halın
Saxladım oğlanlarını çox olmasın məlalın
Göz yaşını tökmə bu sən, bu da öz idealın
Qızlarımı hazır elə qəmi əzayə Zeynəb

İndi ki, verib ataları icazə
Qoy qalalar balaların özün qayıt Hicazə
Bir az keçər xeymələrə gələr iki cənazə
Fatimə qızları verər səda-sədayə Zeynəb

Mən görə bilməm bacıcan gözündə göz yaşın var
Dözübsən əlli il qəmə bəla çəkən başın var
Səslə Əbülfəzli sənin bir elə qardaşın var
Qoy yola salsın buları etmə gilayə Zeynəb

Əkbər öləndə bacı sən təsəlli verdin mənə
Mən də bu möhnətdə gərək verəm təsəlli sənə
Çox az qalır başlarını gedəm alam damənə
Sən də çağır qərib anam gələ haraya Zeynəb

Hər ananın batsa əgər gözəl balası qanə
Qanlı libası yetişər o bikəsə nişanə
Xeymələrim qarət olar ürək gələr fəğanə
Çatar nişanı buların əhli-cəfayə Zeynəb

Qüssəli qəlbidə sənin əgərçi çox sözün var
Döz balaların da qəminə ki, qəmlərə dözün var
Yum gözünü çün kərəmi Fatimədə gözün var
Göndər iki dəstə  gülü Xeyrün-Nisaya Zeynəb

Kim gedə Fatimə yolun dildə gərək dağ olsun
Yaxşı verərsən imtahan, Zeynəb üzün ağ olsun
Qoy keçə başdan balalar sənin başın sağ olsun
Döz qəmə başını ucalt ərşi-Xudaya Zeynəb

## İmamın (ə) nazdanəsi

**“Aşiqani şəhadət” kitabından**

Ey baba bu çeşmi xunbarə qəsəm verrəm səni
Getmə meydana ələmdarə qəsəm verrəm səni
*****

Dilşikəstə sailəm halım soruş ehsan elə
Dərsi səbr öyrət bu qəlbi həmdəmi hicran elə
Nəbzimi tut, halımı bil dərdimə dərman elə
Nüsxəmi yaz, cani bimarə qəsəm verrəm səni

Başına bu getməyində ayrı bir sevda düşüb
At bu sevdanı sərayi-qəlbimə qoğa düşüb
Mən bu qürbətdə darıxdım yadıma Bətha düşüb
Getmə Süğrayi diləfkarə qəsəm verrəm səni

Mən bu dünyayi-fənada neylərəm səndən sora
Binəvayəm, Neynəvadə neylərəm səndən sora
Qorxuram dami-bəladə neylərəm səndən sora
Halıma bax tozlu rüxsarə qəsəm verrəm səni

Bir səfərdir bu səfər baba gedənlər gəlməyib
Didələr yollardadı Əbbas -o- Əkbər gəlməyib
Boş qalıb gəhvarəsi meydandan Əsğər gəlməyib
Könlümü al, ali-ətharə qəsəm verrəm səni

Rəhm elə bu biqərarə can baba ahistə get

Yox təvanım eylə çarə can baba ahistə get

Mən piyadə sən səvarə can baba ahistə get

Zülcənahi saxla, dadarə qəsəm verrəm səni

Qal mərizani fəraqə sən təbabət eylə get

Xeymələrdə qəmli əhvalə nəzarət eylə get

Qardaşım naxoşdu bir yol da əyadət eylə get

Xatiri Səccadi təbdarə qəsəm verrəm səni

Yanmışam yandırma çox nari-fəraqında məni

Bəsləyibsən gül kimi rəhmət budağında məni

Hər yerə getsən apar baba qucağında məni

Tut əlimdən, bu dili zarə qəsəm verrəm səni

## İmamın (ə) bacısı ilə söhbəti

**“Kəlami Kəlami” kitabından**

Axər vidayımdır bacı gəlmə fəğanə

Az qaldı qardaşın bata meydanda qanə

*****

Sərdari eşqəm qanlı meydan səngərimdi
Bikəs də olsam lütfi-canan yavərimdi
Bəsdir az ağla ay bacı Allah kərimdi
Qoy mən  gedim baxma dalımca yanə-yanə

Mən azimi kuyi-vüsaləm biməhaba
Zikrim “tərəkətul-xəlqə turən fi həvaka”
Allaha tapşırdım səni ey cani Zəhra
Yomi-bəladır səbr elə bu imtahana

Bu çöldə sən vəhşətli bir tufan görərsən
Qodalə gəlsən ləblərimdə qan görərsən
Daşların altda cismimi üryan görərsən
Az qaldı dönsün ömrümün bağı xəzanə

Qarətdə Zeynəb var yeri halın dolansın
Səbr et, məbada kaseyi-səbrin calansın
Xeymə yananda qoyma Səccad odda yansın
Sən ol pərəstar ol mərizi xəstə canə

Ay batsa, göy tarik olar, ulduzlar ağlar

Xahər bəradər dağı görsə sızlar ağlar

Sən ağlasan bu nazdanə qızlar ağlar

Ahi Rüqəyyə ovc edər həft asimanə

Əşgilə damanın nədən rəngindi Zeynəb

Səbr elə məsuliyyətin səngindi Zeynəb

Bu bir duadır eylirəm amin de Zeynəb

Etsin Xuda bu armanı cavidanə

Tez sal yola razi-niyazın vaxtı gəldi

Qəlbim yanır suzi-qudazın vaxtı gəldi

Cibril azan verdi namazın vaxtı gəldi

İstir mülaqatə məni yari-Yeganə

### Bacısının İmama (ə) cavabı

**“Yadigari Səid” kitabından**

Hüseynim söndürmə şəmi-vüsalı

Sınar sənsiz Zeynəbin pəri-balı

Gülu-Zəhra şahi-məzluman

Pərişan halə bacın qurban

---

Mərizi eşqəm mənə eylə dərman

Muini itrət müdafeyi Quran

Əlin qoysan bir də sinəmə əlan

Tapar kahiş rənc-o-dərd-o-məlali

Gülü-Zəhra şahi-məzluman

Pərişan halə bacın qurban

Əgər görsəm qanlı başı cidadə

Gərək Zəhra səsləyəm gələ dadə

Savar ol gəlləm dalınca piyadə

Ki, ruhun təxirə yoxdu məcalı

Gülu-Zəhra şahi-məzluman

Pərişan halə bacın qurban

Pənahımsan ey pənahı du aləm

Əbəlfəzlin yoxdu eyləmə çox qəm

Ələmdarəm qoymaram yata pərçəm

Bu pərçəmdi dinin izzu-cəlalı

Gülu-Zəhra şahi-məzluman

Pərişan halə bacın qurban

Bəradər nazın özüm çəkərəm mən
Dalınca əşgilə su səpərəm mən
İcazə versən əlin öpərəm mən
Boğazın öpdüm anam yeri xali
Gülu-Zəhra şahi-məzluman
Pərişan halə bacın qurban

Başım tacı ey hümayi-səadət
Salıbsan bu başa sayeyi-rəhmət
Yadımdan çıxmaz o lütfu-inayət
Alardın könlüm olanda nəvalı
Gülu-Zəhra şahi-məzluman
Pərişan halə bacın qurban

Fəraqında qara başıma sallam
Əzizim neynək xərabədə qallam
Rüqəyyən naz etsə könlünü allam
Mənə tapşır yeksər əhli-əyalı

Gülu-Zəhra şahi-məzluman

Pərişan halə bacın qurban

### İmam Hüseynin (ə) vidası

**“Zəxireyi Kəlami” kitabından**

Hüseyn sən bil anam Zəhra

Bir az ahistə get qardaş

Bacın Zeynəb qalır tənha

Bir az ahistə get qardaş

Bu göz yaşım axır dalınca

Balaların baxır dalınca

*****

Gərək can tapşırırdım mən adımı sən deyən vəqtə

Şəhadət mərkəbin qardaş bacından istəyən vəqtə

Niyə mən ölmədim sən köhnə pirahən geyən vəqtə

Nə qədr səsləyim məhla, bir az ahistə get qardaş

Salıb qəm pərçəmi sayə təmami aləmin üstə

Adın əşgilə yazdırram bu qarə pərçəmin üstə

Şikəstə nəfsinə qurban əlin qoy sinəmin üstə

Düşübdü canimə qoğa bir az ahistə get qardaş

Əgərçi saliki eşqi yolundan saxlamaq olmaz
Sən irfani müsafirsən yolu ki, bağlamaq olmaz
Alıb ətrafı naməhrəm ucadan ağlamaq olmaz
Deyim qoy bari vaveyla bir az ahistə get qardaş

Dirilməz cəddinin dini əgər ləng olsa bu mokəb
"Xuzini ya suyuf"indən mənə röşəndi bu mətləb
Qılınclar, oxlar altından necə tapsın səni Zeynəb
Sənə rəhm eyləməz əda bir az ahistə get qardaş

İcazə ver boğazından edim busə qənimətdi
Mənə Zəhrayi əthərdən həmin busə vəsiyyətdi
Dolandırma üzün məndən məgər qardaş qiyamətdi
Atından enmisən hətta bir az ahistə get qardaş

Salamı ki, bizə verdin pozuldu ronəqi ordu
Salamından hamı bildi vidayi-axərindir bu
Dalınca səpməyə yoxdur suyum xiclətdən oldum su

Su yox göz yaşı var amma bir az ahistə get qardaş

### İmam Hüseynin (ə) Allahla razu-niyazı

**"Aşinayi məhəbbət" kitabından**

Bu cəmi pərişani Allah sənə tapşırdım

Zürriyeyi Zəhrani Allah sənə tapşırdım

*****

Müştaqidi şahidsən vəslə ürəyim ya Rəbb

Məni bikəsi biyarəm sənsən köməyin ya Rəbb

Neylim qalıb əllərdə qanlı ətəyim ya Rəbb

Ətfal hərasani Allah sənə tapşırdım

Ruhum tələsir uçsun ta ovci mulaqatə

Səccadə salam qandan mehrabi munacatə

Söz yox keçərəm başdan eşqim yetə isbatə

Amma bu səbayani Allah sənə tapşırdım

Məndən sora agahsan əhlim düşəcək dərdə

Başım gəzək Allah Şama kimi əllərdə

Qorxum budu hicrimdən Zeynəb ölə çöllərdə

Ol munisi hicrani Allah sənə tapşırdım

Ya Xaliq, ya Subhan, ya Qadir, ya Mənnan
Mən bəndeyi-naçizəm sən maliki mulki can
Hazırdı Hüseyn ölsün ta din qala cavidan
Həm itrət -o- Qurani Allah sənə tapşırdım

Təxirimi əfv eylə didarə şitabim var
Neylim yolumun üstə çox didə por abim var
Qəmdidə Səkinəm var, dilxəstə Rübabım var
Tər əşgilə damani Allah sənə tapşırdım

Alim özün ya Rəbb dərdi-dili Səccadə
Baxdım üzünə saldım Suğra balamı yadə
Yox bu iki bimarın dərmanı ətibbada
Səccad ilə Suğranı Allah sənə tapşırdım

Mən məhvi təcəllayəm can məhvi vila məndən
Hər dərdə riza verrəm yar olsa riza məndən
Gülzar olacaq bir gün bu Kərbubəla məndən

Bu qanlı gülüstani Allah sənə tapşırdım

## Həzrət Zeynəbin (s.ə) İmam Hüseynlə (ə) vidalaşması

**"İnqilabi Huseyni" kitabından**

Gedirsən get, mən də qəlbimdə

Qəmlər üstə qəm saxlaram qardaş

Vüqarilə başının üstə

Bir qara pərçəm saxlaram qardaş

*****

Əlacım yox hökmi təqdirə

Ağlaram qardaş sinəmə vurram

Rüqəyyəylə başlaram nohə

Gözlərimi əşgilə doldurram

Gəlir ardınca mənim ruhum

Get Hüseynim Allaha tapşırram

Anam canı kimya aşiqin

Sinədə möhkəm saxlaram qardaş

Əbulfəzli səslərəm dadə

Vay mənə neylim dadrəs gəlmir

Halım pozğundu səsim tutqun
Xəstədi sinəm dadə səs gəlmir
Dayan mümkündü ölə Zeynəb
Qəmli qəlbim titrir nəfəs gəlmir
Nəfəs gəlsə daim ömrümdə
Mən sənə matəm saxlaram qardaş

Adımı səslən dilin qurban
Qoy dili məcruhum səfa tapsın
Düşər qəlbim dərdi hicrə bu
Dərdə bacın hardan dəva tapsın
Yaxındı qanınla salarım
Cilvə meydani Kərbəla tapsın
Gözüm yaşın cəm edim məndə
Yarana mərhəm saxlaram qardaş

Belə billəm qurtulur vəslət
Peyki Aşura intizarındı
Bu səhrada tökməyə qanın
Rəhimsiz ədalar intizarındı

Yubatsam qardaş məni əfv et

Get anam Zəhra intizarımdı

Səni ey mehmani Peyğəmbər

Bu yol üstə kəm saxlaram qardaş

Dönür qəlbim qanə hicrində

Sən anam oğlu bağrıqan olma

Gözün sil bax Zeynəbə birdə

Tiri ahə dildən nişan olma

Cidala asudə xatir get

Əhli-beytindən nagiran olma

Özüm gülzari məhəbbətdə

Güllərin xürrəm saxlaram qardaş

## Şəhadət növhəsi

**"Sedayi Kəlami" kitabından**

Çölə tufan düşdü – Hüseyn atdan düşdü

Bu məqtəl ətrafın – dolnma Zeynəb

Demə ey vay qardaş – xiyamə get birbaş

Gələr indi qatil – dayanma Zeynəb

Daxi Zeynəb çıxır canım

Yaralardan axır qanım

*****

Qan axır alnımdan – dəyib bir daş əlan

Gözüm görmür Zeynəb – baxam ovzayə

Qara yellər əsdi – Hüseynin bikəsdi

Sinəm üstə qatil – çıxar əssaə

Denən Ali-Taha – desinlər ya Zəhra

Özün əvvəl səslən – utanma ya Zeynəb

Daxi Zeynəb çıxır canım

Yaralardan axır qanım

Halıma çox baxma – qanım zülfə yaxma

Başın gözlə açma – baxır naməhrəm

Nə ələmdarım var – nə də qəmxarım var

O yanda məşg ağlar – bu yanda pərçəm

Bacı əmniyyət yox – bularda qeyrət yox

Atıllar daş, tez get – yubanma Zeynəb

Daxi Zeynəb çıxır canım

Yaralardan axır qanım

Mən o şahəm bacı – qandı başım tacı
Xiyami iclalım – yanar çöllərdə
Başa sən sal qarə – təvəssül qıl yarə
Mənim qanlı başım – qalar əllərdə
Gələr indi cəllad – edən tufan bidad
Əqəllən sən qanə – boyanma Zeynəb
Daxi Zeynəb çıxır canım
Yaralardan axır qanım

Mənim Əbbasım yox – ələmdarım sənsən
Həvadarım sənsən – bacım səbr elə
Oxuyanda başım – cidalərdə Quran
Sənə canım qurban – bacım səbr elə
Hara getsəm mehman – bacım çıxmaz yaddan
Dalımca sərgərdan – dolanma Zeynəb
Daxi Zeynəb çıxır canım
Yaralardan axır qanım

Düşəcək qarətdə – bəlalərə başım

Bacım sil göz yaşım – mənim qəmxarım

Alışanda xeymə – vəfa rəxtin soyma

Muvazib ol qoyma – yana bimarim

Balalara tapşır – uzaq gəzsin oddan

Həman oddan gözlə – sən yanma Zeynəb

Daxi Zeynəb çıxır canım

Yaralardan axır qanım

### Qətligah növhəsi

**“Mubahati Kəlami” kitabından**

Aldı Hüseyn qan ilə bir dəstəmaz

Ta edə Məbudilə razu-niyaz

Aşiqə bax can verir – yarələri qan verir

*****

Məst olub azadələr azadəsi

Başa çəkib eşqu-vəfa badəsi

Məqtələ bax qanlıdı səccadəsi

Cilvə verir eşqinə ruhi namaz

Səcdəyə düşdü dili suzan ilə

Xəlvət edib həzrəti Canan ilə
Başladı zikrin ləbi ətşan ilə
Əhli namazı elədi sərfəraz

Ravi deyir fikr elədim su deyir
Gördüm ürək dərdin o həqq qu deyir
Su nədir, aşiqdi bu ya Hu deyir
Eylir öz istəklisinə kəşfi-raz

Əldə qədəh movci mələk sərbesər
Su gətirblər, içər aşiq məgər
Abi-həyata, bu susuz naz edər
Kosəru Zəmzəmdən olub biniyaz

Salikə verməz biri yoldaş yeri
Xalidi Əkbər yeri, qardaş yeri
Səcdəgəhində görünür daş yeri
Yaralı halıyla edir yarə naz

Ərz edir: Allah Sənə mən talibəm

Puri Əliyyibni Əbi Talibəm
Ruhi übudiyyətə mən qalibəm
Bəndənə rəhmət qapısın eylə baz

Getdi hicabat aradan nagəhan
Verdi Hüseynə, Yaradan tazə can
Gərmi hüzur oldu imami zəman
Eylədi Canan qonağın pişivaz

Səs gəlib ey aşiqi zarim mənim
Fatimənin oğlu nigarım mənim
Yarınam ey sevgili yarım mənim
Dərdini gizlətmə mənəm çarəsaz

Şölədə bimarını mən saxlaram
Qorxulu qızlarını mən saxlaram
Zeynəbi biyarını mən saxlaram
Etmə Hüseyn bir belə suzi-qudaz

Ərş sənin, aləmi-imkan sənin

Hur sənin, cənnəti rizvan sənin
Mən edərəm dərdinə dərman sənin
Qoy çəkilə xəncərə ətşan boğaz

Göz tikəcək həşridə ümmət sənə
Mən verirəm qoli şəfaət sənə
Nuş ola bu şəhdi şəhadət sənə
Ey şərəfi Kəbə, şərifi Hicaz

Dəsti rədd aşiq döşünə vurmaram
Qəlbi sınıqsan səni sındırmaram
Kim sənə yansa onu yandırmaram
Yaz adını hər kəsə versən cəvaz

Gərmi münacatidi sultani din
Xəncərin aldı ələ Şimri ləin
Başladı qəm nohəsi Ruhul əmin
Çatdı murada əzəli eşqbaz

Gözdən axır üzlərə yaş gördülər

Yerdə bədən nizədə baş gördülər

Hər tərəfə baxdılar daş gördülər

Aşiqə məşuqu verib imtiyaz

Saxla Kəlami bu qənimət dəmi

Var yeri yandırsa sözün aləmi

Bani olub Sacidi və Xatəmi

Fatimədir müştəri sən nohə yaz

### Qətligah növhəsi

**“Aşinayi məhəbbət” kitabından**

Peyəmbər oğlu can verir, yarası dildə qan verir

Hüseyn düşübdü səcdəyə, əmini vəhy azan verir

*****

Ölür şəhidi Kərbəla

Ürək yara, kürək yara

Deyir mələklər ey Xuda

Bu kimdi imtahan verir

Piyadələr, səvarələr

Yaralı cismi yarələr

Yerə süzüb sitarələr

Nümayi asiman verir

Sənan əlində bir sinan

Edib cəfasını əyan

Boğazı yara mehman

Özün oxa nişan verir

Hüseyn gözündə göz yaşı

Nə oğlu var, nə qardaşı

Düşübdü əllərə başı

Nigarə ərməğan verir

Durur əlin vurur yerə

Balalarına səs verə

Gedir Rüqəyyəsin görə

Məgər ədu aman verir

Hüseyn deyir yavaş-yavaş

Bacım mənim tapaydı kaş

Necə tapar qalansa daş

Vəfa bağı xəzan verir

Hüseyn namazı başladı

Onu bir iddə daşladı

Səsi batıb yavaşladı

Cavabın ox vuran verir

## İmam Hüseynin (ə) öz Məbudu ilə razu-niyazı

**“İnqilabi Huseyni” kitabından**

Rəhi izzət -o-vəfada yaralanmışam ilahi

Bədənim qalıb arada yaralanmışam ilahi

*****

Bu sipahi bivəfada əsəri vəfa tapılmaz

Dəxi yari-yavərim yox mənə aşina tapılmaz

Yaram həddidən keçibdi yarama dava tapılmaz

Yetərəm bu gün murada yaralanmışam ilahi

Bu günün qəmin bilirdim özüm əhdi əvvəlimdən

Ucalıbdı bangi ya Hu göyə qanlı məqtəlimdən
Oturub anam yanımda yapışıb babam əlimdən
Bu minayi Kərbəlada yaralanmışam ilahi

Yədi zülmilən əcanib hədəfə çatıb ya Rəbb
Su yanında sərsipahım qanına batıbdı ya Rəbb
Köməyim gedibdi əldən ələmim yatıbdı ya Rəbb
Yanıram bu ibtilada yaralanmışam ilahi

Mən əmiri mülki eşqəm rəvişim mərami Quran
Əməlim pəsəndi dindi, süxənim kəlami Quran
Elədim qiyami xunin qala zində nami Quran
Özüm haləti duada yaralanmışam ilahi

Dözərəm bu eşqimlə düşə dəsti qeyrə başım
Rəhi Şamı teyy edəndə gedə seyr Deyrə başım
Edə isavini dəvət rəhi həqqi-xeyrə başım
Bilələr bu iddiada yaralanmışam ilahi

Gül açıb nihali nehzət dəxi rişəsi kəsilməz

Həqqi ölməyim dirildər bunu Şamın əhli bilməz
Kəmərim bükülsə qəmdən sitəmə başım əyilməz
Ki, gözəldi bu iradə yaralanmışam ilahi

Ürəyimi ox sökübdü yenə istiqamətim var
Əcəlim yaxındı yetsin bilirəm ki, vəslətim var
Dəmi vəslə intizaram sənə çox məhəbbətim var
Nəzər et bu mərdi radə yaralanmışam ilahi

Gəlirəm hüzuri yara səfərim gözəl səfərdir
Bu youn libası qandır özü sərbəsər xətərdir
Nigəran balalarımın hələ bəzi bixəbərdir
Məni səslənillə dadə yaralanmışam ilahi

Hamı əhli eşqə məhbub sənə can bekəf həbibəm
Çəməni vəfadı məqtəl bu çəməndə ədəlibəm
Mənə tək sən aşinasan vətən ayrısı qəribəm
Düşüb ərseyi bəlada yaralanmışam ilahi

Darıxıb Kəlami ya Rəbb budu əsli müddəası

Nolur əynimə dubarə geyinəm Hüseyn qarası

Məni qürbət içrə təngə gətiribdi dil yarası[1]

Tapa bilmirəm dəva da yaralanmışam ilahi

## İmam Hüseyn (ə) qətligahda

**“Aşiqani şəhadət” kitabından**

Can üstəyəm, halım yamandır gəlmə Zeynəb

Qodalə bax bir parça qandır gəlmə Zeynəb

Məndən daxi əl üz bacı, dərdi fəraqə döz bacı

Get xeyməgahə

*****

Hicranə yox çarə, xudahafiz əzizim

Qəlbimdə var yarə, xudahafiz əzizim

Get başa sal qarə, xudahafiz əzizim

Yorğun Hüseynin xəstə candır gəlmə Zeynəb

Məndən daxi əl üz bacı, dərdi fəraqə döz bacı

Get xeyməgahə

Əlan boğazımdan Sənan bir nizə vurdu

[1] . Şair bu şer 1354-cü Günəş ilində (m. 1975) Bəndər-Abbasda hərbi xidmət vəzifəsini yerinə yetirərkən yazmışdır.

Buynum damarların o nizə kəsdi qırdı
Qatil ayağı çəkməli gör harda durdu
Təkbir de vəqti azandır gəlmə Zeynəb
Məndən daxi əl üz bacı, dərdi fəraqə döz bacı
Get xeyməgahə

Abbas ölüb, düşmənlərim cürət tapıllar
Qardaşını öldürməyə fürsət tapıllar
Əl başıma əşrari biqeyrət tapıllar
Axər nəfəs axər zamandır gəlmə Zeynəb
Məndən daxi əl üz bacı, dərdi fəraqə döz bacı
Get xeyməgahə

Səd oğluna yalvarma bu əhvala yanmaz
Min yol yaramı bağlasan qanım dayanmaz
Əsğər boğazın oxlayan səndən utanmaz
Əl başda təll üstə dayan dur gəlmə Zeynəb
Məndən daxi əl üz bacı, dərdi fəraqə döz bacı
Get xeyməgahə

Dolmuş həya-huydan fəzayi qətligahım

Pərçəm yatıb yoxdur yanımda sərsipahım

Mən bimuinəm bacı Allahdır pənahım

Məzluma yari mehribandır gəlmə Zeynəb

Məndən daxi əl üz bacı, dərdi fəraqə döz bacı

Get xeyməgahə

Bir yanda şəmşirim düşüb, bir yan əmmamə

Sibqət edir əşrari Kufə əhli Şamə

Get bacı az qaldı vurulsun od xiyamə

Gözlə mərizim natəvandır gəlmə Zeynəb

Məndən daxi əl üz bacı, dərdi fəraqə döz bacı

Get xeyməgahə

## La ərəl-movtə illəs-səadə

**(Mütəhhəri himni ahəngində)**

**“Rahiyani Kərbəla” kitabından**

Keçdi candan Hüseyn gəldi dadə

La ərəl-movtə illəs-səadə

Qan içində dedi Kərbəladə

La ərəl-movtə illəs-səadə

Min Rəsulihi – nuri eynəm – nuri eynəm

Mən Hüseynəm – mən Hüseynəm – mən Hüseynəm

*****

Etdi fərmayiş ol mərdi nehzət

Görmürəm mərgi mən cüz səadət

Nəngidir zindəgi zalim ilən

Etmərəm xəsmi İslama beyət

Keçdi candan Hüseyn gəldi dadə

La ərəl-movtə illəs-səadə

Mustafanın – canıyam mən

Dinimin teşnə qurbanıyam mən

Taci izzət var başımda

Kişvəri eşq sutanıyam mən

Başda qandır mən taci izzət

İzzətim iftixarım şəhadət

Yox qəmim ləşgərim batdı qanə

Zeynəbim məndən eylər himayət

Keçdi candan Hüseyn gəldi dadə

La ərəl-movtə illəs-səadə

Mən ənisi diləm hər şəhidə
Armanım cihadi-əqidə
Baş və can verdim Allah yolunda
Vermədim dəsti biyət Yezidə
Keçdi candan Hüseyn gəldi dadə
La ərəl-movtə illəs-səadə

Bu məram – aşiqanədi
İnqilabım mənim cavidanədi
Kərbəla səhneyi imtahandı
Aşiqəm hafizi səngərəm mən
Cümlə aşiqlərə rəhbərəm mən
Zadeyi Heyrəm ruhi Zəhra
Zibi ağuşi-Peyğəmbərəm mən
Keçdi candan Hüseyn gəldi dadə
La ərəl-movtə illəs-səadə

Vermişəm bu şüarı mükərrər

Zində bad armani Peyəmbər

Səcdə halında başım kəsilsə

Nizədə səslər Allahu Əkbər

Keçdi candan Hüseyn gəldi dadə

La ərəl-movtə illəs-səadə

## Xeymələrin qarət olunması

**“İnqilabi Huseyni” kitabından**

Çün gəldi xiyamə sarı ləşgər hamı birdən

Əl başda edib nalə hərəmlər hamı birdən

*****

Səccad hüzurinə gəlib Zeynəbi-Kübra

Ərz eyləri qardaş balası neyliyək aya

Bir çarə de alullaha ey hacəti zulmən

Təsmim tutub xeymələrə od vura düşmən

Əmr etdi əza əşgi nisar eyləyin əmmə

Yox bu qoşunun rəhmi fərar eyləyin əmmə

Zeynəb baş əyib Zeynul-ibadə gözü doldu

Səsləndi Hüseyn gəl hərəmin dərbədər oldu

## Xeymələrin odlanması

Gəl həraya od vurullar xeymәgahınә Hüseyncan

Eylə çarə əhli-beyti bipənahına Hüseyncan

*****

Ey mənim vəfalı yarım, yari əşgibarınam mən

Zeynəbi şikəstə qəlbəm, aşiqi fikarınam mən

Gözlərim qalıbdı yolda, qardaş intizarınam mən

Gəl fəda olaydı canım, xaki rahına Hüseyncan

Əşqiyayi Şam və Kufə bəski cürətə gəliblər

Etməyə cəfa bərадər ali ismətə gəlilblər

Zeynəbin nədir əlacı qətli-qarətə gəliblər

Nə sənə yetir əlim, nə sərsipahə Hüseyncan

Qanlı başını vurubdu qatilin cidalə qardaş

Razı olma əşgim axsun ta gəlim nəvayə qardaş

Nizədən nəzarə eylə Ali-Mustafaya qardaş

Dildən iştiyaqımız var ol nigahına Hüseyncan

Sən gedəndə rəzmə ahım qəmli sinədə ucaldı
Qarə yellər əsdi nagəh dorəmi hərmələr aldı
Tək qayıtdı Zülcənahın gözlərim yolunda qaldı
Ah ağlaram ölüncə mən o gahına Hüseyncan

Sən də halıma cidadə göz yaşın ələ bəradər
Az qalır xədəngi möhnət qəlbimi dələ bəradər
Bu zaman nolur hərayə Mürtəza gələ bəradər
Yar ola bu doxtərani bigünahına Hüseyncan

Rəsmidir əzalı daim bəzmi qəm qura vətəndə
Xəlqə göstərə şəhidin yadigarın əncüməndə
Ölməsəm əgər bəradər Yəsribə gedəndə mən də
Köynəyin nişan aparram zadəgahına Hüseyncan

Mən Kəlami həzinəm, qərqi qəlzəm günahəm
Dərgəhində yəbnə Zəhra bir qulami rusiyahəm
Yox ləyaqətim güzəşt et şərmsarəm, üzürxahəm
Qıl nəzarə bu qulami üzrixahına Hüseyncan

## Qarət anında bacının sözü

**“Aşinayi məhəbbət” kitabından**

Bacınam bax mənə qardaş

Çox sözüm var sənə qardaş

Məni tək qoyan Hüseyn

Zeynəbəm oyan Hüseyn

*****

Məqtəlin gülşənə bənzər

Gül solanda sənə bənzər

Hansı bülbül mənə bənzər

Ürəyim əsə-əsə – morği dil gəlib səsə

Yox gələn həryimə – bax özün bu bikəsə

Sənə daş vuran camaət

Bacına edər şəmatət

Olmuşam əsiri möhnət

Gül kimi saralmısan – məni dərdə salmısan

Səsimi eşitmisən – daşlar altda qalmısan

Vay qəmim şiddətə gəldi

Düşmənin cürətə gəldi

Baş kəsən qarətə gəldi

Balalar düşüb çölə – ox yağır ürək bölə

Ağlaram Rüqəyyəmə – qorxuram bala ölə

Mənə qardaş olan oldu

Xatiratım yalan oldu

Dildə dağın qalan oldu

Qəlbimə qəm qalanır – cami səbrim calanır

Ver ələmdara xəbər – xeyməgahə talanır

Bülbüləm gülşən içində

Qalmışam düşmən içində

Cəmi əhrimən içində

Dildəki şivənə bax – qan tökən düşmənə bax

Mən fəda gözlərinə – anam oğlu mənə bax

### Aşura növhəsi

**“Yadigari Səid” kitabından**

Ey başına qanilə qoyan tac fətəhna

Ya seyyidi movla

Aləmləri etdin özünə aşiq şeyda

Ya seyyidi movla

*****

Batdın qana, atdan bədənin meydana düşdü

Fürsət ələ düşdü

Yer titrədi, doqquz fələkə zəlzələ düşdü

Vəhşət dilə düşdü

Əsdi əli, gözlər qızarıb titrədi əza

Ya seyyidi movla

Gün batdı hava, zülmət olub, göydə çıxıb ay

Səhrayə düşüb hay

Zəhra səsi gəldi dedi ətşan bala laylay

Zeynəb dedi vay-vay

Ya Fatimə gəlmir nəfəsi sevgilimin day

Başla yarasın say

Zeynəb bədəni bağrına basdı, başı Zəhra

Ya seyyidi movla

Göz açdı xiyam içrə dedi abidi bimar

Əmmə nə xəbər var
Etdi bu həyahu məni ənduhə giriftar
Əmmə nə xəbər var
Səslən gələ imdadə Əbulfəzl ələmdar
Əmmə nə xəbər var
Üz qoydu xiyamə vura od baş kəsən əda
Ya seyyidi movla

Nisvani hərəm bir-birə gözyaşlı qarışdı
Böhranda çalışdı
Bikəs balalar qaçdı çölə xeymə alışdı
Od canə yapışdı
Bilməm yaralı başla Rüqəyyə nə danışdı
Küsmüşdü barışdı
Ərz etdi cidadən halıma eylə tamaşa
Ya seyyidi movla

Səs düşdü Hüseyn öldü o çöldə olan oldu
Xeymə talan oldu
Bir ləhzədə iclali Süleyman yalan oldu

Çox əl çalan oldu

Kim öldü, kim yadə o çöldə salan oldu

Kimlər qalan oldu

Qardaşı ölən Zeynəbə kim verdi təsəlla

Ya seyyidi movla

## Aşura müsibətləri

**“Nəvayi Kəlami” kitabından**

Hüseynə yerlər ağladı, Hüseynə göylər ağladı

Başın kəsəndə qatilin, əlində xəncər ağladı

*****

Çıxanda Şimr o sinəyə, o xurd olan xəzinəyə

Xəbər gedib Mədinəyə, Bəqidə madər ağladı

Demə qara yel əsmədi, qüruba gün tələsmədi

Hüseyn namazı kəsmədi, İbadə Əkbər ağladı

Məlkələrə xəbər çatıb, gəlin Hüseyn qana batıb

Qoşun sınıb ələm yatıb, o hala leşkər ağladı

Qoşun münəzzəm oldular, o qətligahə doldular
Daş atdılar yoruldular, gül oldu pərpər ağladı

Gəzirdi bacı qardaşın, nə qardaş, eşq yoldaşın
Görəndə nizədə başın, həyalı xahər ağladı

Ölürdü  Zeynəb az qala, qədəm-qədəm gedib dala
Rüqəyyə hardasan bala, babana kafər ağladı

Qoşun töküldü qarətə, vurubla od dəyanətə
Xiyami ali-ismətə, alov çəkən dər ağladı

Göyə nəva yetirdilər, qaçanları gətirdilər
Neçə qızı itirdilər, hərəm sərasər ağladı

Bir iddə fitnə qurdular, ədavət üstə durdular
Rübabə qəmçi vurdular, oyandı Əsğər ağladı

Fələk dedi Hüseyn Hüseyn, mələk dedi Hüseyn Hüseyn
Ürək dedi Hüseyn Hüseyn, ox oldu üçpər ağladı

## Həzrət Zeynəbin (s.ə) sözləri

**“Aşiqani şəhadət” kitabından**

Bu gecə olub bənatın qəmə mübtəla Hüseynim

Sənə bir yanan çadırda qurulub əza Hüseynim

*****

Qəmi hicrin atəşilə alışıb yanır ürəklər

Gəl özün elə tamaşa hərəm əhlinə bəradər

Nə aman verir müsibət nə də vardı yari-yavər

Verirəm özüm təsəlli bala qızlara Hüseynim

Bizə nəhri-Əlqəm üsrə verib əhli kinə məskən

Belə halətilə amma yenə məsti eşqinəm mən

Alır ətrini məşamim yel əsəndə məqtəlindən

Tapır bu qanə dönmüş ürəyim səfa Hüseynim

Ürəyi yanır Rübabın suya sözləri düşəndə

Deyir ey su harda qaldın dodaqın balam əməndə

Sən elə çölə axırdın sinəmin qanı gələndə

Olub ahuvani səhra ona həmsəda Hüseynim

Gəlir mocə bəhri çeşmim axır solan cəmalə
Ola bilmirəm müvəffəq yetişim axı vüsalə
Ucalır fəğanım ərşə ürəyim yanır çu lalə
Tutulub nəvailən gör necə Neynəva Hüseynim

Gərək aşiqi həqiqi keçə cümlə mamələkdən
Ola dərdi-rəncə sabir gilə etməyə fələkdən
Mən o aşiqəm ki, haşa salam eşqini ürəkdən
Bacınam mərizi eşqəm mənə qıl dəva Hüseynim

Bədənin yaralı bisər yıxılıb minayə şaha
Başına veribdi Xuli vəli küllər üstə məva
Anam oğlu tab edəmməz elə hali görsə Zəhra
Başını görəndə səslər əli başda va Hüseynim

Mən o bülbüləm ki, lanəm tutub od yanıbdı yannam
Bilisən nə noyi indi bu məkanda daldalannam
Elə xeymə dorəsində səhərə kimi dolannam
Deyə qəmlərimi eş kaş anama səba Hüseynim

## Şami qəriban, həzrət Zeynəbin (s.ə) növhəsi

**“Nalehayi Kəlami” kitabından**

Gəl qardaş amandı – şami qəribandı

Ey yari Zeynəb – salari Zeynəb

Əllərim doğrandı – xeymələr odlandı

Ey yari Zeynəb – salari Zeynəb

*****

Sən rahat yatıbsan

Qanına batıbsan

Bacını atmısan

Soldu saraldı – gülzari Zeynəb

Əlim batdı qana

Düşdülər meydana

Yatıblar yan-yana

Başdan dağıldı – ənsari Zeynəb

Sən bizdən uzaqsan

Xuliyə qonaqsan

İşıqlı çıraqsan

Xamuş olubdu - ənvari Zeynəb

Səslərəm Zəhranı

Görsün bu böhranı

Sən bil anam canı

Gəl ey Məhərrəm- əsrari Zeynəb

Bir yanan xeymədə

Qızların qəmzədə

Var dağın sinədə

Yox bir kəs olsun – qəmxarə Zeynəb

Dağıldı sipahım

Çıxıb ərşə ahım

Allahdı pənahım

Qolsuz düşübdü – sərdari Zeynəb

Ey dinin qurbanı

Dərdimin dərmanı

Gəl oxu Quranı

Gül tək solubdu – rüxsari Zeynəb

Hərmələ ox atdı

Əsğər qana batdı

Rübabı ağlatdı

Soldu qönçeyi – bixari Zeynəb

Axır göz yaşları

Kəsiblər başları

Atıblar daşları

Üryan yatıbdı – dildari Zeynəb

Ey şahi girami

Əhli dinə hami

Yol ver ta Kəlami

Olsun qualmi – dərbari Zeynəb

## Əli Əsğərin (ə) anasının növhəsi

**“Aşiqani şəhadət” kitabından**

Bilməm nədən bu gecə bəs səhər olmaz

Məntək balasından heç ana bixəbər olmaz

*****

Ey sərsəri qəm get pozulan gülşənə sarı

Sal bir yolunu pərpər olan susənə sarı

Ordan gülümün ətrin alıb as mənə sarı

Yel əsdikcə qəlbim əsər biəsər olmaz

Dildən bu gecə sübhə kimi möhnətə yannam

Sübh olsa durub xeymə qabağında dayannam

Zeynəbdən icazə alıb ətrafi dolannam

Tapsam yerini səyim əqəllən hədər olmaz

Çərxin ürəyi xoşdu əzizi eləyə xar

Gülşəndə odur həmdəm edər hər gülə min xar

Gəh nə süd olar, nə su, yanar tiflil ləbənxar

Gəh həm süd olar, həm su, vəli südəmər olmaz

Mən şami qəribanı sühbə kimi qurram

Hey öz-özümə hahi durub gahi oturram

Pərpər gülümü yadə salıb başıma  vurram
Qəlbim deyir at fikrini ruhum deyir olmaz

Röya ki, gələr gözlərimə sinəmi dağlar
Huşə gedərəm qəm üzümə hər yolu bağlar
Görrəm yuxuda xırda beşikdə balam ağlar
Durram balamı səslərəm amma səmər olmaz

Hərçənd kiçik hədiyyəm ağır qiymətə getdi
Amma anasın saldı böyük möhnətə getdi
Ey vay mənə gəhvarəsidə qarətə getdi
Hansı nənə düşsə bu qəmə xuncigər olmaz

Gəl Əsğərim ahilə sinən dağlamaram gəl
Sən ağlasan ağla ucadan ağlamaram gəl
Vur sinəmə dırnaq əlini bağlamaram gəl
Əm süd payını get sənə ki, dərdi-sər olmaz

Qurbanlar içində gözəl oğlum gözə gəldin
Dəryayi müsibətdə balıq tək üzə gəldin

Düşmən suyu kəsdi niyə mənlən sözə gəldin
Getdin səfərə heç belə qəmli səfər olmaz

Keçmiş gecə səndən ki, bu oftadə utandı
Hər kim üzüvə baxdı gəlib dadə utandı
Ətşan dodağından bala Səqqa da utandı
Su olmasa Səqqa da əlində kəsər olmaz

Sən leyleyi hicranını axır səhər etdin
Mən dərbədər oldum məni sən dərbədər etdin
Tiri sepərə xırdaca həlqin sipər etdin
Enli oxa nazik boğaz axər sipər olmaz

Zehdən çıxıb ox səbrimizin sağəri sındı
Nə Hərmələ kor oldu nə də əlləri sındı
Peykan hədəfə dəydi Rübabın pəri sındı
Əlbəttə oğulsuz anada bali-pər olmaz

Dünyaya ki, gəldin işıqlandı Mədinə
Hicran gecəsi sənsiz oğul yandı Mədinə

Süğra kimi əlanda pərişandı Mədinə

Sənsiz Bəni Haşim küçəsində xəbər olmaz

Çəkdin məni səhrayə oğul bəxt otağından

Quş tək özün uçdun bu Rübabın qucağından

Yad olsun o günlər ki, öpərdim dodağından

Öpdükcə deyərdim belə şirin şəkər olmaz

Hərçənd Kəlami bu cahan cana qəfəsdi

Amma bu qəfəsdə bizə göz yaşı nəfəsdi

Əl çəkmə Hüseyndən bu iradət sənə bəsdi

Yaz qəlbinə sevdayi vəfada zərər olmaz

## Yanan xeymədə Rübabın (s.ə) Allaha şikayəti

**“Zəxireyi Kəlami” kitabından**

Batdı Əsğərim qana ey Rübabın Allahı

Yannam oxlu qurbana ey Rübabın Allahı

*****

Bir içim suya xatir qanlı bir qiyam oldu

Su ki, mehri Zəhradı kimyayi kam oldu

Özyəyə halal, amma bizlərə haram oldu
Şahid ol bu böhrana ey Rübabın Allahı

Su Fəratidən yüz min ləşgər içsə qurtulmaz
Aləmi edər sirab ellər içsə qurtulmaz
Olmadı deyni xəsmə Əsğər içsə qurtulmaz
Ağladım yana-yana ey Rübabın Allahı

Altı ay mənə yoldaş morği-nazə heyf olsun
Getdi tazə mövludum suzi-sazə heyf olsun
Üç pər ox çox enlidi gül boğaza heyf olsun
Çatmadı su mehmana ey Rübabın Allahı

Tək qalıb ağam gördüm, mən də bir bala verdim
Günlə ulduzum getdi, ardıyca dua verdim
Nuri-eyni Zəhraya oğlumu fəda verdim
Axdı qanı damanə ey Rübabın Allahı

Doymuşam bu dünyadan Əsğərin fəraqında
Getdi gözlərim qaldı xoşk ola dodaqında

Ağlaram o qədər ölləm isti gün qabaqında
Ver bu ömrü payanə ey Rübabın Allahı

Mən bu qədər yanmazdım Əsğərim dil açsaydı
Xeymədən çu Əbdullah qətligahə qaçsaydı
Xırda əlləri şahın boynuna dolaşsaydı
Dilsiz öldü dürdanə ey Rübabın Allahı

Razdar idi oğlum, ox bu sirri faş etdi
Hey beşikdə pər çaldı, uçmağa təlaş etdi
Mən alanda ağuşə sinəmi xəraş etdi
Pər çalırdı pərvanə ey Rübabın Allahı

Mən yanan oda Allah, heç ananı yandırma
Heç ananı oğlundan mən kimi utandırma
Heç balasız ahunu çöllərdə dolandırma
Mən ki, yandım hicranə ey Rübabın Allahı

Doxti imrəl-Qeysəm banuyi əzizəm mən
Şahzadə olsamda Zeynəbə kənizəm mən

Qan axır bu gözlərdən gərçi əşgrizəm mən
Göz yaşım dönüb qanə ey Rübabın Allahı

Bir yanan çadır əlan mənzilimdi biyarəm
Gözlərin yumub qızlar mən beylullah bidarəm
Su səsin eşitdikcə ağlaram dil əfakaram
Dil olub əzaxanə ey Rübabın Allahı

Mən Kəlamiyəm dildən yanmışam neçə dərdə
Gizlədib çox əsrari dərdə çəkmişəm pərdə
Qəm çəki əsir oldum ruzigari namərdə
Var niyazım ehsanə ey Rübabın Allahı

## Şami qəriban növhəsi

**“Munacati Kəlami” kitabından**

Fələklər ağlar – mələklər ağlar
Geyibdi Zeynəb – qara Hüseynə
Qara yel əsdi – bu səs nə səsdi
Tutubdu Zəhra – əza Hüseynə
*****

Talandı bağlar – sönüb çıraqlar
Çəməndə bülbül – gülün soraqlar
Yanan çadırda – bənati Zəhra
Susuz şəhidə – yavaşdan ağlar
Nəva dilində – bəla çölündə
Yatıb qonaqlar – yətim uşaqlar
Ürəkdə vəhşət – əsiri qürbət
Edir Rüqəyyə – nəva Hüseynə

Gəlib fəğanə - o nazidanə
Özün yetirdi – hüzuri yarə
Dedi qəribəm – baba əsirəm
Günüz yorubdu – məni səvarə
Su oldu azad – Rübab edər dad
Nə südəmər var – nə gahivarə
Yanır cigərdən – behali şivən
Deyir bu canım – fəda Hüseynə

Dəvayi hicran – bu dərdə dərman
Nə məndə vardı – nə səndə baba

Pozuldu halım – daşıb məlalım
O qorxulu yel – əsəndə baba
Hava qaraldı – bibim qocaldı
Başını qatil – kəsəndə baba
Eşitdim onda – deyirdi Zəhra
Tutubdu matəm – Xuda Hüseynə

Bu zarə səs ver – mənə nəfəs ver
Ki, morği ruhum – çıxır bədəndən
Yatıbsan üryan – çu mahi Kənan
Ədu libasın – soyubdu təndən
Necə gedim mən – bu əncüməndən
Məgər həzarə - doyar çəməndən
Anam verə səs – o ya Hüseynə

Budur Kəlami – Hüseyn mərami
Ki, baş verib din – səlamət olsun
O şahi bisər – tutar əlindən
O gün ki, istər – qiyamət olsun
Adın yazıblar – geda Hüseynə

## Xulinin təndirində Zəhranın (s.ə) sözləri

**“Rahiyani Kərbəla” kitabından**

Dur anan əfğanə gəlib, Hüseynim – Hüseynim

Şami qəribanə gəlib, Hüseynim – Hüseynim

*****

Görüşünə gəldim bala didə giryan – pərişan

Bikəs anan qəmdən olubdu nalan – ürək qan

Roşən elə bəzmi çu şəmi suzan – füruzan

Yanmağa pərvanə gəlib Hüseynim – Hüseynim

Ey sitəm ilə dağılan calalı – yaralı

Ayineyi həqq, rüxi bimisal – camalı

Dur qonağın Fatimədir əzalı – nəvalı

Kufeyi viranə gəlib Hüseynim – Hüseynim

Badə verən ey şühədayi məstə – əl üstə

Olmaz o dil ki, sənə oldu bəstə – qusəstə

Yatma əzizim bala belə xəstə – kül üstə

Sinəmə aya nə gəlib Hüseynim – Hüseynim

Məqtəlini gəzdim əlimdə məcər – mükəddər

Ağladım ağlaşdı o hala yeksər – mələklər

Onda nə gördüm kəfən əldə müztərr – Peyəmbər

Dəfni şəhidanə gəlib Hüseynim – Hüseynim

Noldu o yarani-sütudə kirdar – vafadar

Hardadı Əbbas o sipahə sərdar - ələmdar

Qızlarına Zeynəb olubdu qəmxar – pərəstar

Qəmli bacın canə gəlib Hüseynim – Hüseynim

Ey başı xakistərin üstə tənsiz – bədənsiz

Peykəri qodalidə pirəhənsiz – kəfənsiz

Fatimə bülbülləri qaldı sənsiz – çəmənsiz

Hər biri bir yana gəlib Hüseynim – Hüseynim

Zeynəbin əlan sənə sinə dağlar – qan ağlar

Xeymeyi suzanda yatıb qonaqlar – uşaqlar

Nazlı Rüqəyyə səni dildə ağlar – sorağlar

Dərdə o dürdanə gəlib Hüseynim – Hüseynim

## İtmiş gül

**“Aşinayi məhəbbət” kitabından**

Dolanır Əli qızı məqtəli

Qan içində bir bədən axtarır

Yolun üstə qafilə ləng olub

Bacı qardaşa kəfən axtarır

*****

Əli başda dörd tərəfə qaçır

Qayıdır çuxur yerə baş vurur

Bu nə yerdi doxti Əbu Turab

Qədəmin türabə yavaş vurur

Yadına o səhnə düşübdü ki

Hamı bir yaralıya daş vurur

Pozulubdu gülşəni arizu

Gülü bülbülü çəmən axtarır

Deyir Allah izzət hümasının

Nədən aşinası qalmayıb

Qolu bağlı quşlarının evi

Talanıbdı lanəsi qalmayıb
Soyulub vücudu Hüseynimin
Başı yox nişanəsi qalmayıb
Görürəm haraya anam gəlib
O da qanlı pirəhən axtarır

Yorulub oturdu yerə dedi
Alıb ətrin odlanıram Hüseyn
Bu qədər ki, daş tökülüb bura
Keçə bilmirəm yanıram Hüseyn
Bədənin nüması pozulsa da
Yenə mən səni tanıram Hüseyn
Məni sən çağır yerini bacın
İtirir dubarədən axtarır

Hərəkət zamanı qəm əhlinə
Yaranıbdı qüssəli mənzərə
Özünü çəməndə hər əndəlib
Yetiribdi bir güli pərvərə
Analar sürudi vida oxur

Biri Qasimə, biri Əkbərə
Elə bil Rübab itirib özün
Əli başda süd əmən axtarır

Üsərayi xəsteyi Neynəva
Anadı başında qara gedir
Bacıdı ürəkdə yara gedir
Dözülüb nizamə kəcavələr
Şühəda qalır üsəra gedir
Doludu ürək qəmi-dərdilən
Vəli xəlvət əncümən axtarır

Gedir Səkinə yavaş-yavaş
Üzünün tozun yuva Əlqəmə
Diyə şərhi halnı mubemu
Su yanında sahibi pərçəmə
Əmucan dur əllərinə fəda
Kömək eylə qüssəli əmməmə
Çağırır hərayə bibim səni
Gözü yoldadı gələn axtarır

Olub əhli-beytə zəmanə tar

Hərəmin sönübdü çırağları

Bala qızlar istəyir naqəyə

Minə leyk titrir ayaqları

Kimə mehman gedir ey Xuda

Gözü yaşlı Kufə qonaqları

Görəsən Mədinə hayandadır

Gözü Zeynəbin vətən axtarır

## Köç növhəsi

**“Pəyami Kəlamı” kitabından**

Kərbəla bağında solan güllərim laylay

Gözüzü qan tutub mənim ellərim laylay

Zeynəb gedir Kufəyə – Hüseyn vay deyə deyə

*****

Uca boy Əbəlfəzl yıxdı səni düşmənin

Bu qanlı biyaban oldu sənin məskənin

Qolları fədası can Hüseynin can sənin

Ələmdari Quran miri ləşgərim laylay

Əkbər ey Leylanın gözlərinin ziyası
Əzan səsin gəlmir ey dərdimin davası
Zəhranı ağlatdı peykərinin yarası
Bikəs əmmən deyər laylay Əkbərim laylay

Ey Qasim ey güli pərpəri Rəsulullah
Özün həm qardaşın olduz yari Sarəllah
Bir tərəfdə sən yat, bir tərəfdə Əbdullah
Əlan Həsən deyər iki gözlərim laylay

Əli Əsğər balam sən feyzin aldın bala
Rübabın başını qoğayə saldın bala
Səslir bikəs anan hayanda qaldın bala
Nə tez dildən düşdün dilsiz Əsğərim laylay

Zeynəbəm ürəkdə daği hicranım vardı
Mənim də bu çöldə bir cüt qurbanım vardı
Hardasız qəmizdə qəlbi suzanım vardı
Ey Ovnum, ey Fəzlim iki dilbərim laylay

Ey hamı səhabə yaxşı mərama çatdız

Hüseynin yolunda meydanda qanə batdız

Dünyada üqbadə öz başızı ucatdız

Məhşərdə əcrizi versin davərim laylay

Ey qanlı Kərbəla yaxşı qonaq saxladın

Əkbəri doğradın, Əsğəri oxladın

O gün mehman olduq, yaxşı bizi yoxladın

Sən də de Hüseynə ey taci sərim laylay

## Bacı naləsi

**“Aşiqani şəhadət” kitabından**

Ey başı əllərdə qalan Hüseynim, Hüseynim

Peykəri çöllərdə qalan Hüseynim, Hüseynim

*****

Tacı sərim əfsərinə nə gəldi

Pərpər olan peykərinə nə gəldi

Ləşgər -o- sərləşgərinə nə gəldi

Peykəri çöllərdə qalan Hüseynim

Dağı qəmin dildə Hüseyn qalandı
Sağəri səbrim yaralı calandı
Dur necə gör xeymələrim talandı
Peykəri çöllərdə qalan Hüseynim

İtrətinin fikrinə qal yaralı
Dur gedirəm könlümü al yaralı
Zeynəbi Şama yola sal yaralı
Peykəri çöllərdə qalan Hüseynim

Ayrılıqa dildə məgər dözüm var
Dur mənə səs ver sənə çox sözüm var
Qanlı gözündə bilisən gözüm var
Peykəri çöllərdə qalan Hüseynim

Ruhu-rəvanım bacına rəvan ver
Lütfünü əhli hərəmə nişan ver
Dur dalımızca yaralı azan ver
Peykəri çöllərdə qalan Hüseynim

Ey bədəni çöldə qalan kəfənsiz
Başı çıxan nizələrə bədənsiz
Nəğməli bülbüllər olub çəmənsiz
Peykəri çöllərdə qalan Hüseynim

Qafiləmiz düşsə yola yubanmaz
Yolları sürətlə gedər dayanmaz
Şimrü-Sinan məndən Hüseyn utanmaz
Peykəri çöllərdə qalan Hüseynim

Mən ki, bu yerdən gedirəm kənarə
Xuni dilim gözdən axır üzarə
Kim qoyacaq peykərini məzarə
Peykəri çöllərdə qalan Hüseynim

Nitqə gəl ey aşiqi dil şikəstə
Yox sözüm hər zülm olı həqpərəstə
Bəs niyə nəşin yıxılıb üz üstə
Peykəri çöllərdə qalan Hüseynim

Güllərini dəsti qəza apardı

Rayihəsin badi səba apardı

Bəs başını Xuli hara apardı

Peykəri çöllərdə qalan Hüseynim

## Qətligahdan hərəkət növhəsi

**"Ərizeyi Kəlamı" kitabından**

Qaldı şahi məzluman isti qumlar üstündə

Həm yaralı, həm üryan, isti qumlar üstündə

*****

Tapdı qardaşın Zeynəb daşlar altda məqtəldə

Qət olan damarlardan vurdu busə əvvəldə

Var gözüm dedi qardaş sariban kəsən əldə

Yatmısan bacın qurban isti qumlar üstündə

İsti qum əgər dəysə yarəni kəbab eylər

Kim o səhnəyə baxsa qəlbi iltihab eylər

Hansı yarəli aşiq bu bəlayə tab eylər

Yox yarasına dərman isti qumlar üstündə

Karvan gedir Şamə gətligah məsirindən
Qalmayıb nişan hətda xeymələr həsirindən
Ruzigar alıb taqət ayrılıq əsirindən
Qan axıb yatıb canan isti qumlar üstündə

Əvvəl cənazəni Zeynəb qibləyə dolandırdı
Eylədi günə şikvə seyridən dayandırdı
Çox hərarətilən salma gün bu cismi yandırdı
Yandı bu susuz mehman isti qumlar üstündə

Bacılar hərasandı yox yanında qardaşlar
Məqtələ düşüb peykər nizəyə çıxıb başlar
Bəs haçan susuz ləblər “Kəhf”in ayəsin başlar
Var vərəq-vərəq Quran isti qumlar üstündə

Ağlaşır hamı amma göz yaşın biri silmir
Vay Rübabi məzlumə dildə dərdi əsirgəmir
Bu cənazələr üstə Əsğərin tapa bilmir
Yoxdu qönçeyi xəndan isti qumlar üstündə

## Köç növhəsi

**“Zəxireyi Kəlami” kitabından**

Qol bağlı Zeynəb məqtəli – canandan ayrıldı

Xəncər yarasından öpüb – qurbandan ayrıldı

*****

Kərbübəladan köç edir dilxəstə mehmanlar

Zülfi Əli Əkbər kimi halı pərişanlar

Başsız şəhidlər cisminə puşeş verib  qanlar

Hər qəmli bülbül bir güli xəndandan ayrıldı

Mahi Məhərrəm on bir gün ki, tülu etdi

Qarətgərani-Kərbəla məqsudunə yetdi

Hər qatil öz məqtulunun balininə getdi

Meydanda başlar peykəri bicandan ayrıldı

Sultani məzluman başı qəblən kəsilmişdi

Çün zöhri Aşura qara yellər əsilmişdi

Bilmən hədisi mətbəxi Zeynəb nə bilmişdi

Kufə adı gəldi gözü Zeynəbdən ayrıldı

Ərz etdi ayrılmaz Hüseyn səndən bu yoldaşın
Məqtəldə sən qal bikəfən, nəhr üstə qardaşın
Mən də rəvanəm Kufəyə bəlkə tapam başın
Qoydun məni getdin əlim damandan ayrıldı

Əhd etmişəm qardaş olam ayininə hami
Aləmlərə nəşr eylərəm fərhəng İslami
Nitqimlə allam ya Hüseyn həm Kufə, həm Şami
Sərbazınam Zeynəb demə fərmandan ayrıldı

Zeynəb sukut etsə Hüseyn haqqın əda olmaz
Əbbasimin qanı batar dərdə dəva olmaz
Mən çəkməsəm qəm əhli həqq qəmdən rəha olmaz
Bidad edib ümmət rəhi Qurandan ayrıldı

Aləm gərək bilsin bizim bərnaməmiz həqdi
Hər bir əsiri Kərbəla bir qanlı beyrəqdi
Qəm səhnəsində ləşgəri Quran müvəffəqdi
Bilsin bunu hər firqə ki, bürhandan ayrıldı

## Əsirlərin Kufəyə daxil olma növhəsi

**“İradətnameyi Kəlami” kitabından**

İlahi qəmli Kufənin həvayi Kərbəlası var

Hüseyn başı cidadadı üzündə qəm naməsı var

*****

Kəsildi yarımın başı cənazə qaldı bikəfən

Əmiri kainatidi o məqtələ düşən bədən

Onun başında var yara mənim qolumda var rəsən

Nə bu qolun qüvası var, nə ol başın davası var

İlahi qəmli Zeynəbəm diyari qəm səfiriyəm

Bir iddə ibtila çəkən əsirlər əmiriyəm

Əsiri düşmən olmaram mən ol başın əsiriyəm

Bu qəlbin Allaha görə nə qəm gələ rizası var

Əlim yetişmir ey Xuda əzizi aləmeynimə

Gözüm dolur baxanmıram cidada nuri eynimə

Xarab oleydi ruzigar atılla daş Hüseynimə

Biri demir daş atmayın qonağızın yarası var

Bu payitəxti Mürtaza beş il mənə müqam idi
Başı qılınclanan Əli bu şəhridə imam idi
Gülürlər indi Zeynəbə bular nə bədməramidi
Məsacidində Kufənin hənuz Əli sədası var

Gecələri bu şəhridə babam gəzərdi evləri
Qəza verib yetimlərə alardı qəlbi müztəri
Çıxar yaddan əhli kin nə tez o şiri davəri
Yanır Əli balaları nə ab o nə qəzası var

Oxurdum indi xütbə mən Hüseyn himayət eylədi
Cidadə "Kəhf"in ayəsin mənə tilavət eylədi
Biladi səbrə Zeynəbi o ayə dəvət eylədi
O haqq deyən dodaqlara bacısının duası var

Bəni Üməyyə qoymadı tutam Hüseyn əzasını
Gərək gedəm Dəməşqidə pozam Yezid əsasını
Əsarətimdə qaldıram şəhadətin livasını
Hamı bilə bu Zeynəbin mərami Mürtəzası var

## Bacının qardaş başı ilə söhbəti

**“Aşiqani şəhadət” kitabından**

Yandı ürəyim qardaş az qaldı kabab olsun
Nifrin elə bu şəhrə qoy Kufə xarab olsun

*****

Ağlatdı bizi əhli Kufə qəmi hicranda
Keçmiş gecəni olduq mehman hərə bir yanda
Sən mənzili Xulidə mən quşeyi zindanda
Əldən gedir aramim – dildə necə tab olsun

Bir yerdi bu yer xabi qəflətdə yatan çoxdu
Vicdanları yox dinin dünyaya satan çoxdu
Qorxur balaca qızlar əzbəs daş atan çoxdu
Allah, belə dünyanın başına türab olsun

Baxmır bu münafiqlər sən məzhəri Yəzdansan
Quran oxu bilsinlər qurbani Quransan
Sən Həmzədən əfzəlsən salari şəhidansan
Qurbanın o sərdari ərzəndə məab olsun

Bir belə cəfa görməz bir baş ki, bədənsizdi
Əlan bu başın cismi məqtəldə kəfənsizdi
Pozğun vətənin qurban Zeynəb ki, vətənsizdi
Dindir bacını qoyma mujqanı porab olsun

Qəm pirəhənin təndən sanma soyaram qardaş
Canan dağı sinəmdə candan doyaram qardaş
Geysulərimi əlan qanə boyaram qardaş
Ağ saçlara qırmız qan yeri var xizab olsun

Əyyami səlasəndi hicran sözü dillərdə
Heç yas belə xar olmaz başın qalıb əllərdə
Zeynəb şəbi həftində ağlar sənə çöllərdə
Gəl yoxdu səpəm bari göz yaşı gülab olsun

Alnın yaralı gördüm diskindim anam canı
Yarram başımı mən də xar eylərəm ədanı
Qoy zülfü pərişana axsın başımın qanı
Görsün sənədi eşqi biganə mücab olsun

Neydə nigəran gözlər ahvalıma qan ağlar
Nisgillidi bu səhnə Zeynəb ürəyin dağlar
Dil dağlı əlim bağlı bəs kim yaramı bağlar
Neylim ki, yəmi səbrim az qaldı sərab olsun

Biganəni kor eylər nurum əgər açsam baş
İtrət misli gündür bu kufəlilər xuffaş
Şəxsiyyəti Zəhranı mən hifz edərəm qardaş
Hər yerdə gərək bizdən təbliği hicab olsun

Bamə çıxıb orətlər dil kinə sorağında
Bəzisi həna əldə, ya tifli qucağında
Bilmillə Rübab ağlar şeşmahə fərağında
Ver bir xəbər Əsğərdən təskini Rübab olsun

Gözdən anamın oğlu gəl atma səbayanı
Bu nazlı balan halı pozdu məni nalani
Mənlən ki, danışırsan dindir bu pərişanı
Al könlünü təkmili ehsanu səvab olsun

## İmamın (ə) başı Kufədə

**“Ərizeyi Kəlami” kitabından**

Zeynəb bacı səbr elə sən hafizi Quransan

Quran səsimə səs ver bilsinlə müsəlmansan

*****

Ey Fatimənin canı pozma dili viranı

Billəm olub eşqimdə könlün quşu zindanı

Mən mənzili Xulidə gördüm gecə Zəhranı

Şərh elədim əhvalın bildi necə nalansan

Bu şəhridə Zeynəb sən beş il elədin sükna

Heç görmədi həmsayə başın tükünü hətta

İndi mənə baxdıqcan məhmildən, de ya Zəhra

Mən Allaha mehmanəm sən də mənə mehmansan

Ey peyrəvi isar və rahi şühəda Zeynəb

Neydən sənə nazirdi şahi şühəda Zeynəb

Əbbasi çağır gəlsin mahi şühəda Zeynəb

Qanlı ələmi saxla sən dinimə nigəhbansan

Bilsəydi əgər halın əhli vətən ağlardı
Mənlən sənə Yəsribdə yoldan keçən ağlardı
Görsəydi Hüseyn başın, bikəs Həsən ağlardı
Mən nizədə məhzunəm sən naqədə giryansan

Ey aşiqi mümtazım məşuqunu ağlatma
Mən qanıma batdım sən dəryayi qəmə batma
Ol hami əsiranə Zeynəb gecələr yatma
Bimarə pərəstar ol sən dərdlərə dərmansan

Ey müxlis əzadarım eşqində riya yoxdu
Keç təziyə fikrindən dünyada səfa yoxdu
Taha mənə yas saxlar ümmətdə vəfa yoxdu
Bəsdir şəbi həftimdə sən zaru nəvaxansan

Biganədə iman yox ey yari vəfadarım
Daş vurdu cəbinimdən əğyari dilazarım
Siddiqə anam qoymaz qanlı qala rüxsarım
Bu qanı yuyar Zəhra, Zeynəb nə hərasansan

Eylə yaralı saziş başındakı yarəylə
Baş toxdar, ürək amma toxdar necə çarəylə
Bəski, edisən söhbət başımla işarəylə
Düşmən deyir ağzında dil yox belə heyransan

Təbliği hicab eylə ey natiqi ərzəndə
Bilsinlə dəmi Zeynəb İslamı edər zində
Sən nabiğəsən olmaz bu natiqə hər zəndə
Küfr əhlini məbhut et sən hamiyi imansan

Əsğər mənə mehmandı, Möhsünlə olub yoldaş
Eylə anasın aram, qoyma tökə gözdən yaş
Neydə südəmər başın görməydi Rübab ey kaş
Görsə deyəcək oğlum gəl, süd verim ətşansan

Çək qızlarımın nazın Zeynəb köməyim sənsən
Bir ruhuq iki təndə əlan sən elə mənsən
Mən güllərə mənusam, sən hafizi gülşənsən
Mən şahi şəhidanəm, sən yari əsiransan

## Həzrət Zeynəbin (s.ə) qardaşının nezədəki başına xitabı

**“Asari Kəlami” kitabından**

Yoruldu canım – qızışdı qanım
Oxu Hüseyncan – cidada Quran
Qəm aşinası – dilin fədası
Oxu Hüseyncan – cidada Quran

*****

Qəsəm o  canə – o tazə qanə
Bu kufiyanın – vəfası yoxdu
Bizə camaət – edir şəmatət
Mənə bu şəhrin – səfası yoxdu
Vurubla bir daş – bu başa qardaş
Mənim əlmdə – dəvası yoxdu
Olubdu Zeynəb – qəmində giryan
Oxu Hüseyncan – cidadə Quran

Edim nə çarə – fəraqi yarə
Vurubdu qatil – cidayə başın
Bacın qan ağlar – səni sorağlar

Çatıbdı əhli – cəfayə başın

Ölüb dirildim – elə ki, bildim

Gedibdi mətbəx – səraya başın

Xarab olubdu bu çərxi dövran

Oxu Hüseyncan – cidadə Quran

Başımda qarə – ürəkdə yarə

Dilimdə nalə – dalınca gəlləm

Nədəndi ölməm – hayanda bilməm

Çatam vüsalə – dalınca gəlləm

Özün bilirsən – ki, aşiqəm mən

O məh camala dalınca gəlləm

Bu cani xəstə – o başa qurban

Oxu Hüseyncan – cidadə Quran

### Zeynəbin (s.ə) qardaş başı ilə söhbəti

**“Şəmi şəhadət” kitabından**

Çəkdin əcəb itrətinə baş Hüseyn

Nizədə Quran oxu qardaş Hüseyn

Şəhidi məktəb – əzizi Zeynəb

*****

Sən rəhi İslamidə can vermisən

Gülşəni hürriyyətə qan vermisən

Eşqini dünyaya nişan vermisən

Şəhidi məktəb – əzizi Zeynəb

Eşqinə, isarına qurban olum

Dideyi xunbarına qurban olum

Məktəbi əhrarına qurban olum

Şəhidi məktəb – əzizi Zeynəb

İtrətinin mən də Hüseyn yarıyam

Zeynəbinəm eşq xəridarıyam

Qafilənin qafiləsalarıyam

Şəhidi məktəb – əzizi Zeynəb

Zeynəbinin yarı, nə qəmxarı var

Qəlbi həzin, dideyi xunbarı var

Vay mənə başında kül asarı var

Şəhidi məktəb – əzizi Zeynəb

Sən şərəfi əhli vilasan Hüseyn

Rəhbəri orduyi vəfasan Hüseyn

Məşəli bəzmi şühədasan Hüseyn

Şəhidi məktəb – əzizi Zeynəb

Mən gedirəm vəlvələ Şama salam

Qanını düşməndən Hüseynim alam

Fəth ələmin qəlbi Dəməşqə salam

Şəhidi məktəb – əzizi Zeynəb

Sən gülü-gülzari mühibban idin

Bürci vəfada məhi taban idin

Bu gecə qardaş kimə mehman idin

Şəhidi məktəb – əzizi Zeynəb

## Həzrət Zeynəbin (s.ə) qardaş başına xitabı

**“Mubahati Kəlami” kitabından**

Səninlə bacın Hüseyncan dolanır qara başında

Nigəran gözün fədası mənə bax cüda başında

*****

Sənə mən fəda, fədayi rəhi dini davər oldun
Şərəfi şəhadətinlə şühədayə sərvər oldun
Elədin namazı ehya atama bərabər oldun
Ki, bu tacidən göründü şəhi la fəta başında

Baxır cidayə Leyla, deyir Əkbərim gözəldi
Özü cəddinin şəbihi, üzü hüsnü ləm yəzəldi
Nə qədər ədəblidir gör, mənə pişivazə gəldi
Gülü sorxi eşqə bənzər, balamın yara başında

Yaralı buyur bu dərdi deyim hansı bir təbibə
Sədəqə gedib götürsün mənə madəri Həbibə
Tanımır hələ kənizim məni oxşadır qəribə
Mənim üzdə məqnəm yox o gəzir əba başında

Bu camaatın əlindən kimə eyləyim gilayə
Ox atan şəri vurubdu südəmər başın cidayə
Ürəyi yanır Rübabın darıxıb gəlir nəvayə
Sözü var ürəkdə gizlin gözü var bala başında

Gəzirəm bu Kufə şəhrin ürəyim məlal alıbdı
Necə qurtular bu yollar hələ Şama çox qalıbdı
Ələ damənin yetişmir başa sayə qəm salıbdı
Anamın əzizi, çoxdu bacının bəla başında

Hanı qardaşım Əbulfəzl niyə bəs bu hala yanmır
Nə gəlib bu qəhrəmana başı nizədə dayanmır
Başını yarıb babam tək yenə qatili utanmır
Varidi həmən yaranın tayı Mürtəza başında

Niyə bağiban gəzirsən güli pərpərindən ayrı
Necə düşdün günəşim məhi ənvərindən ayrı
Gecə küllər üstə yatdın Əli Əkbərindən ayrı
Hələ var  qübari mətbəx gülü Mustafa başında

## Darıxmaq növhəsi

**“Munacati Kəlami” kitabından**

Nədən cida başında, başın dayandı qardaş
Balam qalıbdı çöldə dayan amandı qardaş

Əmiri karivanım – Hüseyn əzizi canım

*****

Deməm gözündən ey şəh hərəmlərin atıbsan
Sən öz məramın üstə qızıl qana batıbsan
Yaman günümdə daim harayıma çatıbsan
Yenə inayət eylə çətin zamandı qardaş

Sən olmasan bu yolda bacın düşər ayaqdan
Gözüm baxır cidaya səsin allam uzaqdan
Öpəmmirəm səd əfsus o yaralı dodaqdan
Gözüm yarı görürsən necə rəvandı qardaş

Çıxınca Kufə şəhrin Hüseyn ölüb dirildim
Kimə qonaq gedibsən üzün görəndə bildim
Bağışla gül camalın nə bir yudum, nə sildim
Mənə bu naqə məskən, sənə sənandı qardaş

Bu çöldə saribanlar qərarımı alıblar
O nəzənin balanı kəcavədən salıblar
Gör itrəti Peyəmbər nə günlərə qalıblar

O dağlanan ürəklər qəmində qandı qardaş

Qəsəm o nizələrdə üruc edən şəhidə
Qəsəm minayi həqdə şəhidi rusefidə
Başım da getsə qardaş, baş əymərəm Yezidə
Səin məhəbbətində qəddim kamandı qardaş

Bu Şam yollarında canım da çıxsa çıxsın
Gərək sipahi ahım bənayi küfrü yıxsın
O başın eşqi qoymaz Əli qzı darıxsın
O tələtin, o hüsnün səfayi candı qardaş

Nə edim Hüseyn əsirəm bu qomi biimanə
Yol üstə var nigəhban əlində taziyanə
Gəlir bu qəm qatarı dalınca yanə-yanə
Kim ağlasa vurullar qəmim gerandı qardaş

## Şam yolunun əhvalatı

**“Yadigari Səid” kitabından**

Qətari qəm məsiri Şama düşdü

O yolda əhli-beyt alama düşdü

Gülü Zəhra saraldı

Rüqəyyə çöldə qaldı

*****

Dayandı nizədə başı Hüseynin

Axıb rüxsarə göz yaşı Hüseynin

Biliblər yoxdu yoldaşı Hüseynin

Qopub tufan çölə həngamə düşdü

Deyirsən düşdü girdaba səfinə

Xanım Zeynəb əlin vurdi əlinə

Xəbər çatdı İmamul-Səccadinə

Başından həzrətin əmmamə düşdü

Əsirləri buyurdu əmməcan say

Xanım saydı görüb yox bir gözəl ay

Dedi bir qız qalıb çöllərdə ey vay

Yəqin yolda maralım dama düşdü

İlahi qaytaran yox karivanı

Özün qaytar mənə ol mehribanı
Nə edim çöldə balamın çıxsa canı
Yenə qəlbim qəmi əyyamə düşdü
Rüqəyyə, əmmə səslə can deyim mən
Nə dərdin var gəlim dərman deyim mən
De ya Zəhra gözün qurban deyim mən
Balamın könlü hansı bamə düşdü

Oxur Zəhra qızı hacət duası
Hüseynin çöldə sərgərdan balası
Qulağına çatıb Zəcrin sədası
Qübar ayineyi İslama düşdü

Dilin açdı xanım, Zəcrə, salama
Vəli heyf ol məhəbbətli kəlama
Əsər etməz salam əskik qulama
Göriban pənceyi züllamə düşdü

Şirin dilli bala etdi iradə
Ənanin verməsin dəsti inadə

Dedi sən get səvarə mən piyadə

Şərarə qəlbə lərzişi qamə düşdü

Görüb bacı uzaqdı qardaşından

Xəcalət çəkmədi bir göz yaşından

Vurub bilməm necə qəmçi başından

Ki, rəxneyi rükn istehkamə düşdü

Xudaya qoyma çölə heç əsiri

Hümanı etmə kərkəs dəstgiri

Dayanmışdı cidada eşq əmiri

Gözü neydə o xoş fərcamə düşdü

Gəlib gördü bala rəsi imamı

Dedi Zəcr almadı sən al salamı

Bu söz qoy parə qalsın Kəlami

Yanıb dəftər əlindən xamə düşdü

## Az yaşlı uşağın sözləri

**“Mubahati Kəlami” kitabından**

Karivan getdi ilahi

Məni tərk etdi ilahi

Bipənahəm ey Xuda

Qərqi ahəm ey Xuda

*****

Yox salan başıma sayə

Gəlmədi əmməm harayə

Gəlmişəm ahu nəvayə

Var salamım şühədayə

Nəşilər aradadı

Başları cidadadı

Ayrılıb qafilə getdi

Açdı çox fasilə getdi

Məni atdı çölə getdi

Vurdu şölə dilə getdi

Alışıb yanır ürək

Neyləyib bu çöldə tək

Güli bağı möhnətəm mən

Əndəlibi çəmənəm mən
Doxtəri Bul-Qasiməm mən
Baba dağı görənəm mən
Çöldə sinə dağlaram
Səs gələndə ağlaram

Ey mənim yavərim Allah
Xaliqi davərim Allah
Yoldadı gözlərim Allah
Hardadı Əkbərim Allah
Qana döndü göz yaşım
Hanı nazlı qardaşım

Sariban sürdü qatarı
Salmadı yada bu zarı
Tapmıram yaru diyarı
Neylim Allah gecə yarı
Dil gəlibdi şivənə
Yoxdu səs verən mənə

Nə ələmdara çatır səs

Oldu səhra mənə məhbəs

Biqəraram məni bikəs

Kimi dadə çağırım bəs

Könlüm istər Əsğəri

Süd əmən kəbutəri

## Üsəranın kəfilinin sözləri

**“Aşinayi məhəbbət” kitabından**

Qüssə qəlbimi alıb sariban yavaş yeri

Çöldə bir balam qalıb sariban yavaş yeri

*****

Axər ol yətimin cürmi yox günahı yox

Məndə özgə dəhridə yarı yox pənahı yox

Vay mənə bu qorxulu çöldə dadxahı yox

Çöldə bir balam qalıb sariban yavaş yeri

İndi başını açıb zülfünü yolar balam

Yel əsəndə diskinər gül kimi solar balam

Mən həraya getməsəm qüssə mərg olar balam

Çöldə bir balam qalıb sariban yavaş yeri

Naqələr dayanmasa qıllam aləmi kabab
Ya Hüseyn deyə-deyə kovna sallam inqilab
Ağlır Ali-Mustafa öldürür özün Rübab
Çöldə bir balam qalıb sariban yavaş yeri

İndi sinəmin gülü hali qəmfəzadadı
Neynəva müsafiri ney tək nəvadadı
Ey səvarələr durun sevgilim piyadadı
Çöldə bir balam qalıb sariban yavaş yeri

Yolda qəm qatarımı saxlayın yavaş-yavaş
Qorxuram balam ölə əmməsi öləydi kaş
Naqədə mən ağlaram nizədə yaralı baş
Çöldə bir balam qalıb sariban yavaş yeri

And ola Hüseynin qəlbinin yarasına
And ola əzizimin xar olan əzasına
Ta nəfəs varım mənim yaram Ali-Yasinə

Çöldə bir balam qalıb sariban yavaş yeri

Aldın ey fələk nədən əldən ixtiyarımı

Dəsti bəstə çöllərə salmısan güzarımı

Rəhimsizdi sariban saxlamır qatarimi

Çöldə bir balam qalıb sariban yavaş yeri

### Həzrət Rüqəyyə (s.ə) gecə vaxtı atasını axtarır

**“Peyami Kəlami” kitabından**

Ey yari qomşudəqan – şahi cahan – baba yetiş dadə

Yox məni yadə salan – qaldı balan – bu qəmli səhradə

Sınıbdı balu-pərim – gedibdi əmmələrim

Cidadə sən dayan ey – vəfalı həmsəfərim

Haray baba adamsızam mən

Səni çox istəyən qızam mən

*****

Gör düşmən qəmli gecə – saldı necə - bu başı qoğayə

Var nə qardaş, nə əmi – səs verə bu – qəribi tənhayə

Kimə deyim sözümü – hanı silən gözümü

Sınıbdı balu-pərim – gedibdi əmmələrim

Cidadə sən dayan ey – vəfalı həmsəfərim

Məndən kəsmə nəzərin – var xəbərin – qəmi nihanlardan
Mən dildən qüssəliyəm – şikvəliyəm – bu saribanlardan
Deyəndə nohə sənə – vurullar qəmçi mənə
Sınıbdı balu-pərim – gedibdi əmmələrim
Cidadə sən dayan ey – vəfalı həmsəfərim

Naziridi yolda bizə - halımıza – başın cida üstə
Bir yol aç qanlı gözün – saxla özün – qatari ahistə
Dalımda yox dayağım – qabar olub ayağım
Sınıbdı balu-pərim – gedibdi əmmələrim
Cidadə sən dayan ey – vəfalı həmsəfərim

Ya Zəhra səsləmişəm – bəsləmişəm – ürəkdə min nəcva
Yel əsdikcə əsirəm – müntəzirəm – gələ anam Zəhra
Tapar yol üstə məni – se sale Fatiməni
Sınıbdı balu-pərim – gedibdi əmmələrim
Cidadə sən dayan ey – vəfalı həmsəfərim

## Əsirlərin Şama daxil olması

**“Aşinayi məhəbbət” kitabından**

Şam əhli görüb neydə qanlı şühəda başın
Hər baş eləyib gün tək nurani cida başın

*****

Puşidədi alullah məhmildə hicabatə
Zinət vurulub şəhrə, nifrin belə adətə
Sərgəştə qaçır millət dərvazeyi saatə
Var vədələri guya didaru mulaqatə
Zeynəbdi gələn daşdan gözlür üsəra başın

Hər şəhrə qədəm qoysa bir seyyidi ruhani
Saxlar züəmayi qovm göz üstə o mehmanı
Gördün necə ya Zəhra Səccadi pərişanı
Şali gərdənə oxşurdu boynundan axan qanı
Zəncir ağır ,əl bağlı, salmış aşağa başın

Düşdü nəzəri Səhlin ol səhneyi qəmnakə[2]
Baxdı rüxi bimara ahı çıxıb əflakə

---

[2] . Səhl Sailinin İmam Səccadla (ə) qəmli görüşünə işarədir.

Caridi topuqlardan qan qətrələri xakə
Əmmamə yanır su yox xamuş edə ta başın

Qəm mənzərəsi Səhli bir özgə hala saldı
Ahistə salam etdi ahistə cavab aldı
Ərz eylədi siz kimsiz aya bu necə haldı
Birdən tanıdı, əldən canın verə az qaldı
Öpdü, yudu əşgilə məhbubi Xuda başın

Vaveyla dilim yansın gör xamə nələr yazdı
Etdi məni divanə bainki xəbər yazdı
Can dəftərinə sözdən od tökdü şərər yazdı
Bu səfhədə cöhərdi ya xuni cigər yazdı?
Tutma yazana irad tutmuşdu hava başın

Abidlər ağasından bir raviyi nikunam
Aldı xəbər ahilə ki, munisi hər alam
Oldu sizə hər qəmdən baş hansı qəmi əyyam
Doldu gözü mövlanın üç dəfə dedi əş-Şam
Tək Kufə ağartmazdı bu Ali-Əba başın

Guya buyurub həzrət ağlatdı məni ol dəm

Bir riştəyə bağlıydı ovladi Əli bahəm

Başda mən idim dilxun axırda bibim por qəm

Bir qəmçi səsi gəldi əyləşdi yerə əmməm

Ovcuyla tutub gördüm məclisdə yara başın

Tarixə yazılmaydı bu qəmli kəlam ey kaş

Üzr istə Kəlami yaz viran qala Şam ey kaş

Bir söz buyurub Səccad dillər ola ram ey kaş

Sevilib məni dünyada doğmaydı anam ey kaş

Saldı aşağa bu söz sükkani səma başın

## Yezidin acı məclisi

**“İnqilabi Huseyni” kitabından**

Gərçi tənaba ey Yezid bağlıdı əllərim mənim

Fəxr edirəm baş əyməyib düşmənə rəhbərim mənim

*****

Pərtoyi tələti Hüseyn məşəli rahidir mənə

Kərbübəla həmasəsi lüfti ilahidir mənə

Həqqə görə bu imtahan izzətu cahidir mənə
Təndə libas rəzmi bu rəxti siyahımdır mənə
Sərsipəhəm, şəhid olub cəngidə əfsərərim mənim

Əl-ayağın öpən qoşun həqqə cəsarət etdilər
Əsrin imamın öldürüb dinə xəyanət etdilər
Malu-mənali itrəti Heydəri qismət etdilər
Gərçi o gün hücumilə xeyməmi qarət etdilər
Qoymamışam vəli düşə əllərə məcərim mənim

Baxma bu kaxi səbzinə, baxma cəlalu cahınə
Kibrilə təkyə qılma çox təxti kəsifi şahına
Nəng bu təmtərağına, mərg hamı sipahına
Ar belə hökumətə, lən bu dadiqahına
Qasibi səltənətsən, ey düşməni davərim mənim

Mötəqidani inqilah etdi əleyhinə cihad
Məhv ola ta zəmanədə zülmu şikəncə və fəsad
Bizdə gələndə yolları eyləmişik fəğanu dad
Tək bu idi şüarımız hakimi Şam mordə bad

Miri təzahüratidi neydə bəradərim mənim

Nuri dili Həsən mənəm, şuri hər əncümən mənəm
Rəhbəri bütşikən Hüseyn, yavəri bütşikən mənəm
Sən tüləqanın oğlusan, doxti Əbul Həsən mənəm
Qolları bağlı naqədə Şamə qonaq gələn mənəm
Yorğun əsiri cəngiyəm, xəstədi ləşgərim mənim

Xəsmi sitəmgəran mənəm, şirizəni zaman mənəm
Fatimədən nişan mənəm, fateh o qəhrəman mənəm
Xəncərə əl atan mənəm, Kufədə baş yaran mənəm
Məktəbi inqilabidə rəhbəri banəvan mənəm
Tuli zamanda olmayıb düşmənə xəm sərim mənim

Həmdəmi hər ələm mənəm, düşməni hər sitəm mənəm
Tayiri ovci həqq mənəm, rəhbəri fovci qəm mənəm
Pərçəmi din yıxılmayıb hamili bu ələm mənəm
Teşnə ölən Hüseynimə xahəri həmqəsəm mənəm
Haqtələbəm, xərabədə cəhbə o səngərim mənim

Əhsən o radmərdə ki, hökmi Həqqə rizası var
Konqreyi qiyamidə yetmiş iki fədası var
Həşrə kimi hər əsridə cünbişi Kərbəlası var
Ölməz o kəs ki, qanlı təndə şərəf libası var
Nehzət üçün Hüseynimi bəslədi madərim mənim

Gərçi imami ümmətin sinəmə çəkdilər dağın
Gərçi balamın hərmələ qanə batırdı qundağın
Leyk bu sözlərim tökər başına Şam toprağın
Baş sənə əymədi Hüseyn, Bəcdələ verdi barmağın
Bu əməlilə başımı qozadı sərvərim mənim

Kim şühəda qanın töküb Həqqilə qıldı karizar
Kim Əli oğlun öldürüb başını etdi neysəvar
Kimdi ki, Şimri qatilə verdi medali iftixar
Kim özü evində həqq deyən ləblərə xeyzəran vurar
Sən bu işi görürsən ey xəsmi Peyəmbərim mənim

Pərdə dalında əyləşib öz hərəmin, uşaqların
Məclisi amidə vəli pərdəneşin qonaqların

Dəsti cinayətin salıb sərvi həqqin budaqların
Şil olasan Hüseynimin parçalama dodaqların
Vurma şikəst eyləmə heyfidi gövhərim mənim

Cüz rəhi həqq biz əhli-beyt özgə məsirə getmərik
İzzətilə Xuda yolun teyy edərik qayıtmarıq
Gər bu məsiri getməsək qəsdu mərамə yetmərik
Həqqi yetirrik aləmə xəsmilə saziş etmərik
Qətli Hüseyndi bu sözə şahid behtərim mənim

Mən ki, əzəldən intixab etdim Hüseyn məramını
Müntəşir eyləyim gərək qardaşımın pəyamını
Sakit oturmaram əgər almasam intiqamını
Fikr eləmə yıxıb əlin yer üzünün imamını
Kaxını vajiqun edər ahi por azarim mənim

Verdi ürək qanın Hüseyn qoymadı nəxli din sola
Məsləkinə dürud ola məktəbinə salam ola
Səy elə get Kəlami səndə Hüseyn gedən yola
Söylə imamımız qoyub nam məzəllə sağ ola

Qeyri sirati müstəqim yox rəhi digərim mənim

## Əli (ə) qızının sözləri

**“Avayi Kəlami” kitabından**

Qəlbim doludu ahu vadan anam oğlu

Bir bax bacına təşti təladan anam oğlu

Ey şahi şəhidan – Zeynəb sənə qurban

*****

Ey şöhrəti qeyrətli bəni-Adəm içində

Qərq oldu bacın gör necə bəhri qəm içində

Aç gözlərini gör məni naməhrəm içində

Halım xəbər al, Ali-Əbadan anam oğlu

Min tənə Yezid itrəti Peyğəmbərə vurdu

Sınsın əli sədmə şəcəri Heydərə vurdu

Məclisdə ağam cəddim öpən ləblərə vurdu

Şimr eyləmədi şiri Xudadan anam oğlu

Ey peykəri üryan yıxılan Kərbübəlada

Əmmaməsi soqat gedən ibni Ziyadə

Qanlı başına zərbə dəyir bəzmi cəfadə
Yandı ürəyim nari bəladan anam oğlu

Şamatə Hüseyn nitqimilə vəlvələ sallam
Əllərdə qalan köynəyini mən özüm allam
Sən öldün ucaldın danışıb mən də ucallam
Yox vəhşətim inbi tüləqadan anam oğlu

And olsun Hüseyn isməti Zəhrayi şəhidə
İsmətli bacın hamidi Qurani məcidə
Nitqim salacaq təntənə dərbari Yezidə
Var hökmü difayim şühədadən anam oğlu

Ey cani cahan başdakı peymanına qurban
Davudi Əli, nəğmeyi Quranına qurban
Canım o dodağından axan qanına qurban
Qatil başını kəsdi qəfadan anam oğlu

## Öz eşqinin əsiri

**“Peyami Kəlami” kitabından**

Ey gülü bağı ədəb zinəti əb – Bətulə reyhanə

Doxtəri şiri Xuda – kani vəfa – Hüseynə pərvanə

Mübəlliği şühəda – müdafeyi üsəra

Sən olmasaydın əgər – ölərdi Kərbübəla

Öz eşqiin əsiri Zeynəb

Ürəklərin əmiri Zeynəb

*****

Dərs aldın Fatimədən – himmətilən – bəlalara dözdün

Dildə ahəngi əza – başda qara – Hüseyndən əl üzdün

Dedin ənisi qəməm – müdafeyi hərəməm

Əlimdə qanlı ələm – Hüseynə həmqəsəməm

Şəhadətin səfiri Zeynəb – ürəklərin əmiri Zeynəb

*****

Ey irfanda ucalan – dildə qalan – məhəbbət avası

Çöllərdə xeymə quran – Şama vuran – livayi Əbbası

Göhri nisar eylədin – həqq aşikar eylədin

Hüseyni tutdun əziz – Yezidi xar eylədin

Diyari qəm bəşiri Zeynəb – ürəklərin əmiri Zeynəb

*****

Ey şiva məntiqilən – xəlqə verən – peyami agahi

İslamı rütbələrin – xütbələrin – diriltdi vəllahi

Ucaldı qaldı ələm – yıxıldı kaxi sitəm

Sənilə cilvələnib – o altı quşə hərəm

Zəmanənin bəsiri Zeynəb – ürəklərin əmiri Zeynəb

*****

Sən yar məktəbindən – Zeynəb idin – münadiyi Quran

Ey yari haşimiyan – cani cahan – cəlalına qurban

Talandı xeymələrin – olub şikəstə pərin

Bu qəmli lalə kimi – döndüb qana ciyərin

Yox izzətin nəziri Zeynəb – ürəklərin əmiri Zeynəb

*****

## Zeynəbi ülyanın (s.ə) həzrət Rüqəyyəyə (s.ə) təskinlik verməsi

**“Aşiqani şəhadət” kitabından**

Eyləmə neytək nəva – laylay əzizim bala

Dərdinə əmmən fəda – laylay əzizim bala

*****

Ağlama sən ağlasan ağlar gözüm

Gəlmə belə şivənə getdi dözüm

Bu nigəran gözlərə qurban özüm

Xəsteyi rənci bəla, laylay əzizim bala

Ey çəməni Fatimə reyhanəsi
Şəmi qəmin qüssəli pərvanəsi
Qardaşımın sevgili dürdanəsi
Dərdi olan bidəva, laylay əzizim bala

Səbr elə ta müjdə zəfərdən gələ
Tazə xəbər peyki səhərdən gələ
Bəlkə baban qəmli səfərdən gələ
Müntəzil ol bax yola, laylay əzizim bala

Nalə səsin incidib əhriməni
Ağlam nalə oyadar düşməni
Düşmənimiz çoxdu vurullar səni
Yoxdu bizə aşina, laylay əzizim bala

Əkbəri hardan çağırım dadıma
Kim gələcək Şamidə fəryadıma
Salma keçən günlərimin yadıma

Ey vətənindən cüda, laylay əzizim bala

Əşgini rüxsarə qızım bağlama

Nohə deyib sinələri dağlama

Ağlama qurbanın olum ağlama

Səbrimi etmə fəna, laylay əzizim bala

Gər səni tək dil yarası incidib

Əmməni nisgil yarası incidib

Başımı məhmil yarası incidib

Baş yaradı, əl yara, laylay əzizim bala

## Üç yaşlı qızın növhəsi

**"Aşinayi məhəbbət" kitabından**

Yenə axşam oldu əmmə xəbər olmadı babamdan

Nə qədər təvəssül etdim nəzər olmadı babamdan

*****

Səni and verrəm əmmə ləhəzati intizara

Buyur Əkbərilə getdi babam hansı bir diyara

Eyləyib zəmanə yoxsa bu gülü niaşanə xara

Ki, yəqin uzaq bəla və xətər olmadı babamdan

Nə rəva bibi şikəstə ürəyim qəmilə dolsun
Hanı bir həzarə mən tək gülü gülsitanı solsun
Başım üstə sayəban yox babmın başı sağ olsun
Ölərəm bu şəhrə barı güzər olmadı babamdan

Necə səxt ola bu günlər dolanıb keçib gedəndi
Babam olsa bu xərabə mənə behtərin vətəndi
O gözüm ziyası gözdən salıb ellərin nədəndi
Hara getdi agəh əhli nəzər olmadı babamdan

Babam əksərən vətəndə bilisən oruc tutardı
Ürəyi zamani iftar darıxardı qan utardı
Səhər oldu şami Aşur dəxi qüssədən qutardı
Eşidə biri duayi səhər olmadı babamdan

O ricali Ali-Haşim nə gəlib uzaq gediblər
Nə həvadisi qəməngiz düşüb ittifaq gediblər
Kimimiz var özgə yerdə hara bəs qonaq gediblər

Niyə bu diyarə meyli səfər olmadı babamdan

Yanıram müsafirimdən nə xəbər gəlir nə namə
Onun eşqi Kərbəladən məni çəkdi rahi Şamə
Yola naqədə düşəndə verə bilmədim idamə
Çölü çox dolandım amma əsər olmadı babamdan

Atam ilə morği ruhum uçub aləmi fəraqə
Gələ-gəlməyə azalmaz bu məhəbbət və əlaqə
Dəxi Şamidə darıxdım məni göndərin İraqə
Niyə baxəbər bu xunin cigər olmadı babamdan

Xoş o günlərə ki, Əkbər məni zarə can deyərdi
Başım üstə sübh vəqti gözəlim oyan deyərdi
Ata dəstəmaz alanda bala azan deyərdi
Uzaq heç zaman o niku seyr olmadı babamdan

Nec olardı ömr olaydı gülümə baxıb güləydim
Babam ölsə də əqəllən yerini gedib biləydim
Üzünü öpüb deyəydim sən ölüncə mən öləydim

Əcəba yanıb kül oldum şərər olmadı babamdan

Gələ gər müsafirimdən xəbər Ali Bu Turabə
Deyərəm Səkinə müjdə verə Leyla və Rübabə
Hamı müntəzirdi guya o nəhoftə ləli nabə
Bu elin biri xəbərdar məgər olmadı babamdan

Babam ayrılanda məndən baxıb ağladı diləfkar
Dedi yanə yanə getdim gözəlim Xuda nigəhdar
O da ah çəkdi mən də, o da yandı mən də zinhar
Niyə bu zəmanə ziri-zəbər olmadı babamdan

## Şamın xarabası

**"Kəlami Kəlami" kitabından**

Eyləmə əfğan – laylay Rüqəyyə
Yat sənə qurban – laylay Rüqəyyə
*****
Ey gülü ziba – bülbülü şeyda – göz yaşı dərya
Aşiqi şeyda – həmdəmi Leyla – zikri vaveyla
Dərdi bidərman – laylay Rüqəyyə

Yorğun Rüqəyyə – yorğun Rüqəyyə - Əkbər qəmində
Məhzun Rüqəyyə – Leylanı etmə – məcnun Rüqəyyə
Aram ol bir an  – laylay Rüqəyyə

Mehriban Əkbər – gəlsə səfərdən – qurtarar səni
Viranələrdən – qardaş bacısın – salmaz nəzərdən
Olma pərişan – laylay Rüqəyyə

Rəngin solubdu – gözün dolubdu – qəm sili nəxli
Səbrin yolubdu – topraqlar sənə – bəstə olubdu
Yat didə giryan – laylay Rüqəyyə

Qəmxarım bala – dildarım bala – zülmilə solub
Gülzarım bala – səsləmə gəlməz – sərdarım bala
Yox yaru əvan – laylay Rüqəyyə

Var dildə yara – yox məndə çarə – tökmə göz yaşın
Bu gül üzarə – axır çatarsan – didari yarə
Aşiqi nalan – laylay Rüqəyyə

Qəlbim səfası – qardaş balası – vardı qolunda
Qəmçi yarası – qorxudub səni – Zəcrin cəfası
Olma hərasan – laylay Rüqəyyə

Qəlbi yaralı – eldən aralı – ahu baxışlı
Yəsrib maralı – oturma gündə – rəngin qaralı
İstəkli tərlan – laylay Rüqəyyə

Rəngin atıbdı – səsin batıbdı – az nalə eylə
Anan yatıbdı – qara tellərin – toza batıbdı
Əsiri hicran – laylay Rüqəyyə

Gəlmə nəvayə – etmə gilayə – əlim yetişmir
Kərbübəlayə – kimimiz vardı – gəlsin hərayə
Cüz Həyyi Subhan – laylay Rüqəyyə

Şirin söz balam – ala göz balam – ağlatma məni
Dərdə döz balam – anam şəbihi – mənim öz balam
Morği xoş əlhan – laylay Rüqəyyə

Bax bir Rübabə – ol dilkəbabə – salma özünü

Çox piçi tabə – gəlməz Əsğərin – Şami xərabə

Az bu qəmə yan – laylay Rüqəyyə

Ey qəmli bülbül – telləri sünbül – sözün şirindi

Ziba üzün gəl – pozma halımı – ağlama bir gül

Olma nəvaxan – laylay Rüqəyyə

Yanar lalələr – qəlbin dincələr – darıxma baban

Səfərdən gələr – görsə ağlırsan – göz yaşın ələr

Bağrım olar qan – laylay Rüqəyyə

### Rüqəyyənin (s.ə) qonaqpərvərliyi

**“Yadigari Səid” kitabından**

Gəldi baba mehman mənə gör neylərəm əmmə

Aldım başını damənə gör neylərəm əmmə

Laylay de yatım mən

Məqsudə çatım mən

---

Kaş əmmə babamı elə röyada görəydim

Gözlər yolumu qəbrə bu az ömrü soraydım
Nə qanlı təbəqdən oyanıb baş götürəydim
Bir bax bu sər bitənə gör neylərəm əmmə

Bir guşədə dur əmmə fəqət eylə tamaşa
Ol Səyyidi Səccadilə pişvazə mühəyya
Qanlı başa baş çəkməyə şayəd gələ Zəhra
Gəlsə deyərəm can nənə gör neylərəm əmmə

Düşmən belə fikr eylər biçarə qızam mən
Biçarə olardı demərəm ac-susuzam mən
Viranə gəldim ki, bu dərbari pozam mən
Zəngi xətərəm düşmənə gör neylərəm əmmə

Aşiq deyil onlar ki, qoyub öz adın aşiq
Məşuqə verər muzdi qədəm hər zadın aşiq
Şoqində ölər bilsə vüsalın dadın aşiq
Ruhum çıxacaq əymənə gör neylərəm əmmə

Biganə məni eşqidə naqis bilə şayəd

Bəzi eşidib ağlaya bəzi gülə şayəd

Göndərdilə bu başı Rüqəyyə ölə şayəd

Ölləm, gülən əhrimənə gör neylərəm əmmə

Ahım oxu bu qəmçi vuran düşmənə dəysin

Kim qəmçi vurub səy eləyibsən sənə dəysin

Sən çox yorulubsan yaralar qoy mənə dəysin

Baxdıqca utannam sənə, gör neylərəm əmmə

Bilməm dəxi ölləm gecə vəqti məni xəstə

Viranədə qaz qəbrimi ey qəlbi şikəstə

İmkan ola gər qoy bu başı sinəmin üstə

Rahat gedərəm mədfənə gör neylərəm əmmə

## Əmməcan, dərdə dərman gəlibdi

**“Avayi Kəlami” kitabından**

Əmməcan dərdə dərman gəlibdi

Sevgilim xəstə yoldan gəlibdi

Ləblərində babam qan gəlibdi

Ey mənim yari qəmxarim əmmə

Dur səfərdən gəlib yarım əmmə

Şahi aləmdi bu nazənin baş

Hardadı bəs ələmdarım əmmə

---

Kam alınca bu yorğun qonaqdan

Can gəlib təngə düşdüm ayaqdan

Sən təbəqdən götür qanlı başı

Mən öpüm parçalanmış dodaqdan

Toxtamaz qəlbi bimarım əmmə

Dərdə gəldi dili zarım əmmə

Şahi aləmdi bu nazənin baş

Hardadı bəs ələmdarım əmmə

Hey deyirdim babam kaş gələydi

Heç deməzdim kəsik baş gələydi

Gəldi yorğun babam kaş əmum da

Bu kəsik başə yoldaş gələydi

Gör nə poqğundu pərgarım əmmə

Yoldadı çeşmi bidarım əmmə

Şahi aləmdi bu nazənin baş

Hardadı bəs ələmdarım əmmə

Mən pozuldum cigər dağlamaqdan
Sən yorulma bibi ağlamaqdan
Var nə həzzi məgər ruzigarın
Müntəzir gözləri bağlamaqdan
Bağla bu çeşmi xunbarım əmmə
Bəsdi bu nimə didarım əmmə
Şahi aləmdi bu nazənin baş
Hardadı bəs ələmdarım əmmə

Mən nələr çəkmişəm bu baş üstə
Yatmışam topraq üstə, daş üstə
Sən deyərdin əzizim az ağla
Mən deyərdim göz üstə baş üstə
Gör nə gərm oldu bazarım əmmə
Xurd olub dürri şəhvarım əmmə
Şahi aləmdi bu nazənin baş
Hardadı bəs ələmdarım əmmə

Saribanlar babamı yorublar

Fatimə qəlbini yandırıblar

Allah Allah şil olsun olar ki

Bu başın alnına daş vurublar

Dildə var dərdi besyarım əmmə

Afətə düşdü gülzarım əmmə

Şahi aləmdi bu nazənin baş

Hardadı bəs ələmdarım əmmə

Sən qılınca bibi şəb namazın

Mən yuyum qoy babamın boğazın

Ver öpüm xeyzəran yarəsindən

Artırım eşqimin imtiyazın

Burda yox yari-ənsarım əmmə

Öz babamdı havadarım əmmə

Şahi aləmdi bu nazənin baş

Hardadı bəs ələmdarım əmmə

## Həzrət Rüqəyyənin (s.ə) atasının başı ilə söhbəti

**(Mütəhhəri himni ahəngi ilə)**

**“Rahiyani Kərbəla” kitabından**

Gəl vəfalı baba xoş gəlibsən

Dərdimə aşina xoş gəlibsən

Görməyə ey girami qonağım

Ləblərində yara xoş gəlibsən

*****

Aşiqəm, qəm pərişanıyam mən

Eşqinin didə giryanıyam mən

Bilmirəm heç nə təqsirin üstə

Şami viranda zindanıyam mən

Var üzündə, qan yaralı, qan yaralı

Can yaralı, can yaralı, can yaralı

Başına mən fəda xoş gəlibsən

Gəl vəfalı baba xoş gəlibsən

Sinəmi qoy – çak edim mən

Ləni əşrari zəhhak edim mən

Danə danə – əşkim ilə

Ləblərin qanını pak edim mən

Çarə yox neylərəm ağlaram mən

Aləmin qəlbini dağlaram mən
Versələr başını saxlaram mən
Qoysalar yarəni bağlaram mən
Çox sözün var, dur sənilə, getmə baba
Bu gecə sən, qal mənimlə, getmə baba
Mənzilim biriya xoş gəlibsən
Gəl vəfalı baba xoş gəlibsən

Səndən ötrü mən ey munisi dil
Gəzmişəm yolda mənzil bə mənzil
Gözlərindən iraq çox vurubdu
Başıma qəmçi məmuri məhmil
Üstüvarəm həqq yolumda, həqq yolumda
Qəmçi rəddi, var qolumda, var qolumda
Ey Vəliyyi-Xuda xoş gəlibsən
Gəl vəfalı baba xoş gəlibsən

Qəmli qəlbim – qanə döndü
Gözlərim əbri neysanə döndü
Bu səfərdən sən gəlincə

Əmməmin qəddi çoqanə döndü

Gərçi həmdəm bu məzluma yoxdu

Əmməmin həqqi boynumda çoxdu

Şamın əhli çox eylər ehanət

Dildə hər tənə bir kəskin oxdu

Qönçə misli, gündə sollam, tənlərdən

Bəs haçan mən, rahət  ollam tənələrdən

Qıl bu zarə dua xoş gəlibsən

Gəl vəfalı baba xoş gəlibsən

Mən sənə yari şəb zindədarəm

Tikmişəm göz yola intizaram

Gəl basım bağrıma qanlı başın

Yox çırağım baba şərmsarəm

Mən əsirəm, topraq üstü, məskənimdi

Əndəlibəm, bu xərabə, gülşənimdi

Ruhum eylər nəva xoş gəlibsən

Gəl vəfalı baba xoş gəlibsən

Zeynəbəm əmməm – rəhbərimdi

Bu xərabə mənim səngərimdi

Fəthi Şamə – gəlmişəm mən

Zati Yekta Özü yavərimdi

Sən yıxıldın kitabın yıxılmaz

İtrəti Bu Türabın yıxılmaz

Səndən Allahım eylər himayət

Bu gözəl inqilabın yıxılmaz

Sən bu yolda, baş veribsən, can veribsən

Nehzətinlə, nəxli dinə, qan veribsən

Ey şəhidi vila  xoş gəlibsən

Gəl vəfalı baba xoş gəlibsən

Göz yaşım gör necə aşiqanə

Gözlərimdən axır danə-danə

İstirəm məhzərində xüsusi

Ərz edəm dərdimi yanə-yanə

Çəkmərəm əl, mən bu rəsi əthərindən

Busə vurram, ləblərindən, həncərəndən

Eylərəm xoş səfa xoş gəlibsən

Gəl vəfalı baba xoş gəlibsən

Xəsm əlindən – canə gəldim

Canə gəldim bu samanə gəldim

Yolda düşmən – öldürürdü

Qurtulub Şami viranə gəldim

Qəlbimi yolda çox yandırıblar

Çölləri gəzdiriblər yorublar

Mən pərişanə xatir gələndə

Mehriban əmməmi çox vurublar

Əmməmin öz, munisi dəmsaziyəm mən

Ondan Allah, razı olsun, razıyam mən

Ol bibimdən riza xoş gəlibsən

Gəl vəfalı baba xoş gəlibsən

Bəs keçən ruzigarə nə gəldi

Ümməti həqq şüara nə gəldi

Əkbərin harda, Əbbasın harda

Qasimi gül üzarə nə gəldi

Harda qoydun, bəs yaralı, şirixarı

Bu fəraqə, yox Rübabın, heç qərarı

Döndü qəlbim qana xoş gəlibsən

Gəl vəfalı baba xoş gəlibsən

### Həzrət Rüqəyyənin (ə) sözləri

**“İradətnameyi Kəlami” kitabından**

Gəl dadimə əmməcan – gəl dodağə can gəlib

Mənim yaralı babam – ləblərində qan gəlib

Vay mənə – vay mənə – mehriban qonağa bax

Mən baxa bilmirəm – yarəli dodağə bax

Allah, müsafirləri – salmasın yaman günə

Hansı müsafir düşər – bu babam qalan günə

Hey dedim getmə bu – yol xətərlidir baba

Kərbəla yolları – dərdi sərlidi baba

Mən bu başın əmməcan – üz-gözün gərək yuyam

Haqdən ölüm istərəm – müstəcab olar duam

Dərdimin səhmini – heç kəs ilə bölmərəm

Qoyma getsin babam – getsə rahat ölmərəm

Badi səba dərdimi – yarıma yetirmədi

Gəldi babam heyf ola – Əsğəri gətirmədi

Müntəzirdi gözüm – qanə döndü göz yaşım

Qurtar Allah məni – harda qaldı qardaşım

Mən bilirdim sevgilim – axtarar tapar məni

Gəldi yuxuma gecə – gəl dedim apar məni

Əmmə Zəhra canı – yar apardı səbrimi

Əkbərim gəlmədi – qaz mənim də qəbrimi

### Həzrət Zeynəbin (s.ə) Rüqəyyəyə (s.ə) cavabı

Yorğun balam ağlama – Fatimə qonağına

Öp babanın alınını – baxma çox dodağına

Ağlama – ağlama – qana qatma göz yaşın

Qoy qala sinədə – macərası bu başın

Sən dedin hanı babam – mən dedim səfərdədi

İndi səfərdən gəlib – öz canın xətərdədi

Sən baba istədin – baş gətirdilər sənə

Qolların süst olur – qanlı başı ver mənə

Gəldi baba görşünə – ta görə nə haldasan

Bildi nəfəsdən düşüb – həsrəti vüsaldasan

Sən də getsən bala – iş nəva olar mənə

Şam viranəsi – Kərbəla olar mənə

Gül tək görürsən bala – rəngi yarının solub

Alma xəbər Əsğəri – Kərbəlada dəfn olub

Cənnətin quşları – Əsğərə dil öyrədir

İndi Zəhra ona – gəhvarə tərpədir

Ey yuxudan diskinən – salma vəhşətə məni

Sən qucaqla bu başı – mən qucaqlayım səni

Mən bu qəm nohəsin – dəftərə yazanmaram

And ola canına – qəbrini qazanmaram

### Həzrət Rüqəyyənin (s.ə) can vermə növhəsi

**“Mubahati kəlami” kitabından**

Ağla ey şahi şəhidan balama

Çıxdı canı oxu Quran balama

Qana döndü göz yaşım

Öldü naqə yoldaşım

---

Can Hüseyn ey gülü iştiyaqımız

Şamidə bir gecəlik qonağımız

Sübhəcən yanmayacaq çırağımız

Ta tutaq şami qəriban balama

Qana döndü göz yaşım

Öldü naqə yoldaşım

Balamın çarəsiz oldu müşgülü

Yuxuda gördü səni yandı dili

Sinəmi dağladı sinəmin gülü

Neyləyim olmadı dərman balama

Qana döndü göz yaşım

Öldü naqə yoldaşım

Ünsü dirinə var idi sən ilə

Qorxulu yolları gəldi mən ilə

Sinə vurdu qara pirəhən ilə

Mən dedim nohə nəvaxan balama

Qana döndü göz yaşım
Öldü naqə yoldaşım

Ayrılıqdan tələsər vüsala qız
Babasız qalsa düşər məlalə qız
Vay qocaltdı məni bu üç yaşlı qız
Diyərəm qəlbimə hey yan balama
Qana döndü göz yaşım
Öldü naqə yoldaşım

Üzə göz yaşı nisar oldu bunun
Ayağı yolda qabar oldu bunun
Gözdə roşən günü tar oldu bunun
Qəmçi çox dəydi hərasan balama
Qana döndü göz yaşım
Öldü naqə yoldaşım

Gərək Əbbasa deyəm öz qəmimi
Pozdular daireyi matəmimi
Sərniqun eylədilər pərçəmimi

Göz dəyiblər gözü giryan balama

Qana döndü göz yaşım

Öldü naqə yoldaşım

### Həzrət Zeynəbin (s.ə) sözləri

**“Nalehayi Kəlami” kitabından**

Laylay gözümün nuru, qərqi mühənim laylay

Ey qəmçilər altında, dildən düşənim layalay

Dərdimin dərmanı layalay Rüqəyyə

Gözlərin qurbanı layalay Rüqəyyə

*****

Sən bil babanın canı məni bikəsi ağlatma

Qəlbin kimi mən yandım bəxtim kimi sən yatma

Döndü qana göz yaşım gözdən bibini atma

Ey Əsğərə gizlində laylay diyənim layalay

Dərdimin dərmanı layalay Rüqəyyə

Gözlərin qurbanı layalay Rüqəyyə

Düşmən bu başa xatir yolda sənə daş vurdu

Bəzisi vurub möhkəm bəzisi yavaş vurdu

Gəldin dilə ta dilbər gəldi sənə baş vurdu
Mehmanı gələn vəqtdə əldən gedənim layalay
Dərdimin dərmanı layalay Rüqəyyə
Gözlərin qurbanı layalay Rüqəyyə

Nisgildi anam canı cismin arada qalsın
Əmmən gecənin vəqti hansı qapını çalsın
Qəbrin bala kim qazsın xələt bala kim alsın
Qalsın qara əynində yox ağ kəfənim layalay
Dərdimin dərmanı layalay Rüqəyyə
Gözlərin qurbanı layalay Rüqəyyə

Məzlum baban ol gün ki, əsli vətənə getdi
Öpdü səni təll üstə tapşırdı mənə getdi
Bilməm gözəlim verdi nə sözü sənə getdi
Gəldi yasına yoldan yorğun gələnim layalay
Dərdimin dərmanı layalay Rüqəyyə
Gözlərin qurbanı layalay Rüqəyyə

Ey türfə gülüm mən də sənsiz saralıb sollam

Tozlu telə baxdıqca yannam başımı yollam

Neynək gözəlim neynək qəssalən özüm ollam

Dursan demə qürbətdə yox qəbir qazanım layalay

Dərdimin dərmanı layalay Rüqəyyə

Gözlərin qurbanı layalay Rüqəyyə

Bu Şamə gələn gündən baxdın yola hər gün sən

Öz hacıtini aldın əzbəs qapı döydün sən

Dur bir öpüşək bir bari məndən niyə küsdün sən

Sili acısından de, şirin süxənim layalay

Dərdimin dərmanı layalay Rüqəyyə

Gözlərin qurbanı layalay Rüqəyyə

## Ayrılıq növhəsi

**“Asari Kəlami” kitabından**

Başında qara – ürəkdə yara – gedən məzara

Rüqəyyə laylay

Məni atıbsan – nə xoş yatıbsan – edim nə çarə

Rüqəyyə laylay

*****

Gülüm saraldın – nə halə qaldın
O qanlı başı – qucağə aldın
Halın pozuldu – qolun yoruldu
Məni qəmində – bəlaya saldın
Rəməq qurtuldu – səsin tutuldu
Qənariyi təkpər – qəfəsdə çaldın
Bilirsən indi – qəmin çətindi
Bu biqərara – Rüqəyyə laylay

Gözəl nigarım – üç yaşlı yarım
Xəzanə döndü – mənim baharım
Özün bilirsən – ki, biksəm mən
Nə var muinim – nə qəm qüsarım
Hicazə getsəm – dubarə gəlləm
Fəraqə dözməz – bu qəlbi zarım
Dur eylə əfğan – yenə yat ey can
Deyim dubarə - Rüqəyyə laylay

Varım nə qardaş – nə yaru yoldaş
Köməksizəm mən – öləydi ey kaş

Dəmi nəvada – şəbi əzada

Gətirdi qasid – təbəqdə bir baş

Gözünü sildin – baxanda bildin

Dəyib cidada – o başa bir daş

Murada yetdin – nəvaziş etdin

O tacidara – Rüqəyyə laylay

Açılsa yollar – bu bağlı qollar

Gedər məzari – Hüseynə zəvvar

Soruşsa Əkbər – nec oldu xahər

Gözüm qan ağlar – ürək sızıldar

Rüqəyyə canı – bu karivanı

Aparsam ollam – özüm ələmdar

Sən olmusan gər – bu qəlbi müztər

Çəkər şərarə – Rüqəyyə laylay

Bacın Səkinə – gülü Mədinə

Vurar əzizim – qəmində sinə

Sən ol gohərsən – ki, mötəbərsən

Xərabə oldu – sənə xəzinə

Hərəmlər ağlar – cahanı dağlar
Gedəndə sənsiz – biz Ərbəinə
Deyir bu dəstə – məzarın üstə
Gözəl həzarə – Rüqəyyə laylay

Nə fürsətim var – nə taqətim var
Ürədə dağ – müsibətim var
Hicaza getsəm – Bəqiyə getsəm
Anam Bətula – şikayətim var
Soruşsa Suğra – nə deyim dəriğa
Gözümdə əşki – xəcalətim var
Dur ey yeganə – bu bağrı qana
Elə nəzarət – Rüqəyyə laylay

Sinəm medalı – hərəm qəzalı
Öz ellərindən – düşən aralı
Firiştə sima – sesalə Zəhra
Ürək nəvalı – başı bəlalı
Vurubla sili – üz oldu nili
Gözün cidada – özün yaralı

Qədəm götürdün – özün yetirdin

Vüsali yarə – Rüqəyyə laylay

## Həzrət Zeynəbin (s.ə) Rüqəyyəni oxşaması

**“Nalehayi Kəlami” kitabından**

Ey üç yaşlı qəhrəmanım

Məni etmə bağrı qan

Gözünü aç Rüqəyyəcan

*****

Sən mənim həmsəfərimsən

Morği bibalu pərimsən

Qasidi xoş xəbərimsən

Dürrü vala gövhərimsən

Dur gedək gözəl balam

Sürüdən qalma dala

Sənə çatdı qanlı bir baş

Mənə qəmlər oldu yoldaş

Tökərəm ölüncə qan-yaş

Sən ölüncə mən öləm kaş

Niyə açmırsan gözün

Anan öldürür özün

Qəlbim oldu qan Rüqəyyə

Qamətim kaman Rüqəyyə

Səslirəm oyan Rüqəyyə

Can Rüqəyyə, can Rüqəyyə

Sən hərəm qəzalısan

Əkbərin maralısan

Ey yətimi dilşikəstə

Qolları tənaba bəstə

Səni qəmlər etdi xəstə

Başını qoy sinəm üstə

Sübhəcən oyaq qalım

Sənə laylay çalım

Elimin dilbəri laylay

Dilimin əzbəri laylay

Anamın bənzəri laylay

Fatimə mənzəri laylay
Lən ola bu düşmənə
Qəmçi vurdular sənə

Kərbəlada qarət oldu
Toz qopub qiyamət oldu
Hər kəs öldü rahat oldu
Qisməti şəhadət oldu
Ey mənə qalan bala
Niyə qaldın bu hala

Atanın başın görəndə
Qanlı ləblərin öpəndə
Düşdü dili hamısı bəndə
Qalmadı rəməq bədəndə
Balu pər vurammadın
Yıxılıb durammadın

Ey xərabə günəşi
Üzə salma qəm niqabı

Dərdin ağladar Rübabı

Pozma çox o dil kababı

Qəmlər aşinasıdı

Əsğərin anasıdı

Gözlərim ölüncə ağlar

Üzə seyli əşki bağlar

Ürəyimdə qaldı dağlar

Səni ellərim sorağlar

Rəhm elə Səkinəyə

Dur gedək Mədinəyə

### Üç yaşlı qızın matəmində

**“Çəhardəh məsum (ə)” kitabından**

Ey əmməsin mələr qoyan balam oyan, gülüm oyan

Rüqəyyə bağrım oldu qan balam oyan gülüm oyan

*****

Sənə nə gəldi ay bla bu hala zarə yanmısan

Nə qədər səslirəm səni göz açmırsan oyanmırsan

Batıbdı ağlamaq səsin ayağa day durammısan

Dur ey yətim xəstə can balam oyan gülüm oyan

Gözün fədası sevgilim gözümdən atmaram səni
Əgər yatıbsan indi yat hələ oyatmaram səni
Cahanı versələr mənə bu dəhrə satmaram səni
Ki, bivəfadı bu cahan balam oyan gülüm oyan

Həmişə rəsmidir qızım bəla çəkir bəlalı baş
Səni qutardı qüssədən bu cismidən aralı baş
Hammı deyir Rüqəyyə qonaq gəlib yaralı baş
Dur ey vəfalı mizban balam oyan gülüm oyan

Nədən qonağının başın qucaqda saxlayanmadın
Qolda taqət olmadı onu qucaqlayanmadın
Ürək sözün deyənmədin doyunca ağlayanmadın
Yumuldu çeşmi xun-fişan balam oyan gülüm oyan

Xudayi-Kəbədən sənə inayət oldu bu gecə
Baban gəlib xərabəyə səadət oldu bu gecə
Görəndə qanlı ləblərin qiyamət oldu bu gecə

Var idi zəxmi xeyzəran balam oyan gülüm oyan

Çıxıbdı quş kimi canın fəda o dağlı sinəyə
Nə noyi təsliyət deyim Rübabə, ya Səkinəyə
Sən olmasan anan canı getmərəm Mədinəyə
Utannam ey şirin zəban balam oyan gülüm oyan

Gecə zamanı bilmirəm kimə deyəm məlalımı
Batıbdı ellərim qana fələk pozub cəlalımı
Anam Bətulu səslərəm gələ görə bu halımı
Dilimdə zikri əl-aman balam oyan gülüm oyan

Xuda bilir haçan bizi bu əhli kin xilas edə
Sən olmasan qatarımı Hicaza qoymaram gedə
Rəva deyil ki, mən gedəm balam qala xərabədə
Qırıldı zəngi karivan balam oyan gülüm oyan

Yola baxırdın hər gecə baba gələ sorağına
Təbəqdə gəlirdin can dedin o mehriban qonağına
Öpəndə daş yarasını yaxıldı qan dodağına

Gözün yumuldu nagəhan balam oyan gülüm oyan

Səsimə səs ver aç gözün yoxumdu taqətim naza

Çətindi bir bala ölə məzarın əmməsin qaza

Gərək bu qəmli səhnənin Kəlami nohəsin yaza

Yana dedikcə nohəxan balam oyan gülüm oyan

## Seyidlər bibisinin (s.ə) həzrət Rüqəyyənin (s.ə) matəmində növhəsi

**“Səlami Kəlami” kitabından**

Sinədə medalım bala, izzətu-cəlalım bala

Çox yana-yana ağlama, qorxulu qəzalım bala

Can Hüseynimin balası, nazlı gözlərin fədası

*****

Əkbərin səfərdən gəlir, olma bir belə xuncigər

Pozma halımı bu qədər, macaranı alma xəbər

Bacılar olar didə tər, əldə var nə çarəm məgər

Çoxdu başımın bəlası, nazlı gözlərin fədası

Mən fəda ala gözlərə, qəlbi yandıran sözlərə

Hər gecə edirsən nəva, gəlmir yuxu gözələrə

Qara salmışam başlara, qəm tozu qonub gözlərə
Var qəriblərin Xudası, nazlı gözlərin fədası

Şam yoxdu viranədə, bu bəlalı kaşanədə
Şam tək yanırsan bala, yox tavan bu pərvanədə
Başına dolandıqca mən, ağlaram bu əzaxanədə
Getdi qəlbimin qüvası, nazlı gözlərin fədası

Yolda çox vurublar sənə, ömrünün solur gülşəni
Haqlısan bala heç qızın, yanmayın belə daməni
Yumma gözlərin nazənin, öldürər fəraqın məni
Ey bəlalar aşinası, nazlı gözlərin fədası

Naləni qatırsan gecə, nəğmə münacatına
Ahilə olursan səbəb, inqilab halətimə
Rəbbəna deyəndə düşür, yadıma anam Fatimə
Dildə Fatimə duası, nazlı gözlərin fədası
*****

## Yaralı ayaq

Mənəm Rüqəyyə ki, dur əz nigaru yaru diyarəm

Şikəste qəlbəm, nəşikəstə iqtidaru vəqarəm

Se sale seyri-suluki hezar sale numudəm

Zədənd buse məlaik be payi abiledarəm

## Həzrət Rüqəyyənin (s.ə) qəbrinə xitab

**"Kəlami Kəlami" kitabından**

Gözüm doymadı səndən – anam canı Rüqəyyə

Verib can, vətən etdin, bu viranədə Rüqəyyə

*****

Duayi zəfər eylir əsirlər sənə xatir

Verir müjdeyi rəhmət bəşirlər sənə xatir

Ki, abad olacaqdı bu viran sənə xatir

Mələklər bu qəbrin nigəhbanı Rüqəyyə

Xudahafiz əzizəm yola qafilə düşdü

Bibin getdi araya əcəb fasilə düşdü

Vəli getməz ürəkdən bir ad ki, dilə düşdü

Ki, məczub edib eşiqinin mühibbanı Rüqəyyə

Sənin Şamə gələndə qabar oldu ayağın
Bu yerdə şəbi vəslə dönüb sübh fəraqın
O qədri yola baxdın baban oldu qonaqın
Durub bağrına basdın o mehmanı Rüqəyyə

Demə qürbətə düşdüm bu qəbrə gələn olmaz
Cəlalın elə artar ki, mislin görən olmaz
Bibin Zeynəbə sənsiz Mədinə vətən olmaz
Atar morği xəyalım o samanı Rüqəyyə

Qızım Yəsribə getsəm dubarə gələrəm mən
Bu qəbrin öz əlimlə qubarın silərəm mən
Sənin tək vətənimdən uzaqda ölərəm mən
Çəkər Şama əlaqən bu nalani Rüqəyyə

Gedib qalmadın axır məni bikəsə sən də
Anam yadıma düşdü səni dəfn edəndə
Baxıb sili nişanın camalında görəndə
Dağıtdım üzə zülfü pərişanı Rüqəyyə

Gözəl həmsəfərim dur gəl ahilə nəvayə

Ki, yoldaşların indi gedir Kərbübəlayə

Gedək Zəcridən elə Əbəlfəzlə gilayə

Töküb göz yaşın ağlat o Səqqanı Rüqəyyə

## Vida növhəsi

**"Çəhardəh məsum (ə)" kitabından**

Gedirəm Rüqəyyə canım aman ayrılıq əlindən

Dur ayağa bağrı qanım aman ayrılıq əlindən

*****

Gözü yaşlı bağibani çəməni Peyəmbərəm mən

Gələrəm dubarə getsəm səni tərk etmərəm mən

Balam olmasa yanımda vətənə getmərəm mən

Gözünü aç ki, xəstə canam aman ayrılıq əlindən

Demə gülşəni vəfanı gözəlim ayaqladım mən

Səni Şamacan əzizim qucağımda saxladım mən

Yel əsib edəndə bərhəm telini daraqladım mən

Sənə yari mehribanəm aman ayrılıq əlindən

Məni qürbət içrə gözdən nə tez atdın əmmən ölsün
Gecə gündüzü sireşki qəmə batdın əmmən ölsün
Üzü tozlu topraq altda necə yatdın əmmən ölsün
Belə yatma nagiranəm aman ayrılıq əlindən

Açılıb tənabi bidad üsəra olubdu azad
Qayıdıb əsasi qarət səni əmmələr edir yad
Qalıb əldə guşvarən ucalıbdı ərşə fəryad
Necə görə qəmə nişanəm aman ayrılıq əlindən

Gedirəm diyari eşqə tapam aləmi vüsalı
Yanıram kəcavələrdə yerini görəndə xali
Nə deyim soruşsa Əkbər bacımın necəydi halı
Sənə miri karivanəm aman ayrılıq əlindən

Bu sözü Kəlami yazdı gecənin həman zamanı
Ki, sitarələr sipahı bəzəmişdi asimanı
Mələkutu bir səsilən verilirdi sübh azanı
Dedi mən də xəstə canəm aman ayrılıq əlindən

## Həzrət Zeynəbin (s.ə) Rüqəyyədən (s.ə) ayrılıq növhəsi

**“Şəmi şəhadət” kitabından**

Dur sənə qurban gedirəm Rüqəyyə – Rüqəyyə

Gör nə pərişan gedirəm Rüqəyyə – Rüqəyyə

*****

Dur bala əmmən qolunu açıblar – açıblar

Həm sağını həm solunu açıblar – açıblar

Kərbübəlanın yolunu açıblar – açıblar

Əkbərə mehman gedirəm Rüqəyyə – Rüqəyyə

Dur özüm allam o gözün qadasın – qadasın

Əldə qalıb qarət olan əsasın – əsasın

Mən kimə soqat aparım libasın – libasın

Didəsi giryan gedirəm Rüqəyyə – Rüqəyyə

Gün kimi batar roşən olar çıraqlar – çıraqlar

Kim səni qürbətdə görüb soraqlar – soraqlar

Qəbrin üstə oturub kim ağlar – kim ağlar

Mən ki, yanından gedirəm Rüqəyyə – Rüqəyyə

Getdin özün qaldı adın dilimdə – dilmidə

Yoxdu fəraqində təvan dilimdə – dilimdə
Xırdaca guşvarə qalıb əlimdə – əlimdə
Qəlbim olub qan gedirəm Rüqəyyə – Rüqəyyə

Vay mənə gözdən niyə bəs atıbsan – atıbsan
Xuni dilim göz yaşıma qatıbsan – qatıbsan
Qəbridə yorğun yaralı yatıbsan – yatıbsan
Mən vəli nalan gedirəm Rüqəyyə – Rüqəyyə

Vadiyi Bətha yolunu gözətlir – gözətlir
İtrəti Taha yolunu gözəltlir – gözətlir
Qəmzədə Suğra yolunu gözətlir – gözətlir
Eylərəm əfğan gedirəm Rüqəyyə – Rüqəyyə

Gözlərini aç bir-birə vur dodağın – dodağın
Söylə əzizim necədi ayağın – ayağın
Vay bala öldürdü məni fərağın – fərağın
Munisi hicran gedirəm Rüqəyyə – Rüqəyyə

## Həzrət Rüqəyyənin (s.ə) cavabı

**“Şəmi şəhadət” kitabından**

Əmmə solubdu çəmənim gedin siz – gedin siz

Oldu xərabə vətənim gedin siz – gedin siz

*****

Əmmə bulud tək bilirəm dolarsan – dolarsan

Göz yaşınla ətəyin bularsan – bularsan

Kərbübəlanın yolunu sularsan – sularsan

Burda yerim xoşdu mənim gedin siz – gedin siz

Səndən ayırdı məni bu zəmanə – zəmanə

Məndən otrü gəlmə belə fəğana – fəğana

Saxla qara köynəyimi nişanə – nişanə

Topraq olub pirəhənim gedin siz – gedin siz

Var necə yoldaş mənə bu məkanda – məkanda

Yada salarlar məni gün batanda – batanda

Yellər əsib qəbrimi toz tutanda – tudanda

Görməyimə var gələnim gedin siz – gedin siz

Sinədə guşvarəmə sən məkan ver – məkan ver

Bağrına bas göz yaşına aman ver – aman ver
Əldə onu Əkbərimə nişan ver – nişan ver
Dillərə düşsün mühənim gedin siz – gedin siz

Əmmə sən Allah gözünün tozun sil – tozun sil
Tozludu qəbrim daşı dur üzün sil – üzün sil
Ağlama qurbanın olum gözün sil – gözün sil
Day yumulubdu dəhənim gedin siz – gedin siz

Bir də bu tozlu saçımı hörənməm – hörənməm
Bəzmi əhibbayə səfa verənməm – verənməm
Mən daği Suğra bacımı görənməm – görənməm
Qaldı o yol gözləyənim gedin siz – gedin siz

Gərçi pozub əmmə səni fəraqim – fəraqim
Bir-birə dəyməz yumulan dodağım – dodağım
İndi də heç toxtamayıb ayağım – ayağım
Xəstədi yorğun bədənim gedin siz – gedin siz

## Hüseynin (ə) Ərbəini növhəsi

**“İradətnameyi Kəlami” kitabından**

Kərbəlayə gəldi bir qafilə ərbəin günü

Qardaşı bacı sələdi ahilə ərbəin günü

*****

Ey mənə naz edən Hüseyn müştəriyəm bu nazına

Qüssə çəkən canım fəda xəncən öpən boğazına

Etdi mələklər iqtida əzəmətli namazına

Eşqinlə bacın qılar nafilə ərbəin günü

Ey başı əllərdə düşən yerdə qalan cənazəsi

Heyf ola yoxdu orətdə cəngu cihad icazəsi

Yoxsa axardı Zeynəbin məqtəldə xuni tazəsi

Ölmədim eyləyəm kimə mən gilə ərbəin günü

Pirəhənin götürdüm ey Yusifi Ali-Mustafa

Dur al onu gey əyninə yarəli cisminə fəda

Əldə qalıb əmanəti həzrəti Xeyrətun-Nisa

Köynəyin almışam mənə ver silə ərbəin günü

Səndən üzüldü ta əlim qəm sipər oldu Zeynəbə

Şama kimi kəsik basin həmsəfər oldu Zeynəbə
Yolları təsliyət deyən qəmçilər oldu Zeynəbə
Gəlmişəm indi qollarım abilə ərbəin günü

Kim inanardı Zeynəbin bir də gələ ziyarətə
Əhli dil eylər arizu ta çata bu səadətə
Mülhəq olaydı kaş anam qafileyi məhəbbətə
Onda çatardı vəslimiz kamilə ərbəin günü

Var yeri səs gələ bacı salma dilin təlatümə
Yanma qəm fəraqindən, burdadı qəmli Fatimə
Onda mələklər gəlir baş çəkə qəm bəsatimə
Ortaya düşməyib bacı fasilə ərbəin günü

Qoymadı Fatimə qəm firqətinə yanam bacı
Çünki bilirdi talibi vəsləti mehmanam bacı
Xuli evində də mənə gəldi qonaq anam, bacı
İndi də qəbrimi gəlib ta silə ərbəin günü

## Həzrət Zeynəbin (s.ə) İmam Hüseynlə (ə) dərdləşməsi

**“Rahiyani Kərbəla” kitabından**

Müddətdi qardaş həsrəti didarınam mən

Yorğun pərişan gəlmişəm zəvvarınam mən

*****

Səndən sonra mən atəşi möhnətdə yandım

Başın dalınca Kufə və Şamı dolandım

Azadələrə dəhridə izzət qazandım

Sərbazi nehzət hamıyi peykarınam

Qəbrin yanında bar açıb qəm karivanı

Eşqin bu məvaya çəkib mən bağrı qanı

Sinəmdə qanlı köynəyin izzət nişanı

Bu karivanda qafilə salarınam

Ey canını bəzl eliyən Qurana qardaş

Sənsiz olub qəlbim evi qəmxana qardaş

Şəmi vəfa qəbrindi mən pərvanə qardaş

Görsət camalın aşiqi rüxsarınam mən

Qurbanın ollam qəbridən dur bir ayağa

Yandırma qəlbi Zeynəbi nari fərağa
Xoş gəldin elə üz-gözü tozlu qonağa
Dindir yaralı məhrəmi əsrarınam mən

Qoy vüsalə göz yaşım damənə gəldim
Dil bağladım eşqi rüxi dilbəndə gəldim
Ey kaş öləydim Şamidən şərməndə gəldim
Halımı soruş qəmxarım ol, qəmxarınam mən

Seyd oldu ahuyi hərəm səyyad əlində
Öldü Rüqəyyən hakimi cəllad əlində
Ömrü tamam oldu onun bidad əlində
Ondan xəcalət Zeynəbi biyavərinəm mən

### Ərbəin növhəsi

**“Nəvayi Kəlami” kitabından**

Yoldan yetişdi – qəm karivanı
Zeynəbin gözdə - əşgi rəvanı
Səsləndi qardaş – dur pişivazə
Qəlbimin yoxdu – tabu-təvanı

Vəfalı qardaş – yaralı qardaş
Başı bədəndən – aralı qardaş
*****
Şamata getdim – gəldim didarə
Xoş gəldin elə – yorğun zəvvarə
Sənə yar oldum – ələmdar oldum
Yıxdım Yezidi – başımda qarə
Vəfalı qardaş – yaralı qardaş
Başı bədəndən – aralı qardaş

Var dildə dərdim – həm ahu sərdim
Axır hicranı – vəslə döndərdim
Gəldim salama – qəbri – imama
Bağından gülü – arizu dərdim
Vəfalı qardaş – yaralı qardaş
Başı bədəndən – aralı qardaş

Səndən əl üzdüm – hər dərdə dözdüm
Başın dalınca – çöllərdə gəzdim
Gətdim qızları – oğulsuzları

Məzarın üstə - nizama düzdüm

Vəfalı qardaş – yaralı qardaş

Başı bədəndən – aralı qardaş

Bu Kərbəlada – kuyi-bəlada

Bir gün qalmışdı – nəşin arada

İndi kəfənsiz – yatıbsan mənsiz

Mən ahu-vada – sən buriyada

Vəfalı qardaş – yaralı qardaş

Başı bədəndən – aralı qardaş

## Bacı növhəsi

**“Pəyami Kəlami” kitabından**

Ey şahi şəhidan az qəlbimi alışdır

Gözlərin qurbanı dur Zeynəbi danışdır

Mən doxti-Mürtəzayəm, zəvvari Kərbəlayəm

*****

Başına dolanım ey şəmi cavidanə

Misbahi huda sən, Zeynəb sənə pərvanə

Aşiqin dərdini hardan bilər biganə

Məni yari aşinayam – zəvvari Kərbəlayəm

Bu həmən məqtəldi sən burda can verirdin
Mələkut əhlinə eşqini nişan verirdin
Düşmüşdün səcdəyə xoş imtahan verirdin
Eşqinə mən fədayam – zəvvari Kərbəlayəm

Salam olsun sənə ey başı cüda təndən
Mən həmən Zeynəbəm heç ayrılmazdım səndən
Əlim sinəmdədi dur bir salam al məndən
Səri heyəti əzayam – zəvvari Kərbəlayəm

Kəbədən bağladın Kərbübəlayə ehram
Məscidul-hərama qan tökməyə ta züllam
Ləbbəyk Hüseyn ləbbəyk, ey iftixari İslam
Sənsiz qərqi nəvayam – zəvvari Kərbəlayəm

Rəsmidir hər bacı getsin qardaş dalınca
Sən getdin xuni dil tökdüm göz yaş dalınca
Çöllərdə gəzmişəm yaralı baş dalınca

Eşqimdə biriyayəm – zəvvari Kərbəlayəm

Kufədə röyayi eşqi təbir eylədim

Sən Quran oxudun mən də təfsir eylədim

Qolu bağlı getdim Şami təsxir eylədim

Fərmaneyi qüvayəm – zəvvari Kərbəlayəm

Şamı fəth etmişəm ey qəhrəman əmirim

Əhyayi Qurandı bu fəthi binəzirim

Qaldı viranədə üç yaşında səfirim

Mən qəzaya rizayəm – zəvvari Kərbəlayəm

## Ərbəin ziyarəti

**"Şəmi şəhdət" kitabından**

Anam oğlu Hüseyn aşiqi didarınam mən

Al xəbər halımı qüssəli zəvvarınam mən

Dur pişvazə – Tahaya xatir

Xoş gəldin elə – Zəhraya xatir

*****

Dolanıb çöllərdə gəlmişəm kuyi vəfaya

Ola canım fəda bu gözəl xaki şəfaya

Lütfün isbat elə Zeynəbi biaşinaya

Dur pişvazə – Tahaya xatir

Xoş gəldin elə – Zəhraya xatir

Sənə xatir Hüseyn atəşi firqətdə yandım

Xırda qızlar ilə Kufə və Şamda dolandım

Nizədə qanlı başın görüb səndən utandım

Dur pişvazə – Tahaya xatir

Xoş gəldin elə – Zəhraya xatir

Ey mənim izzətim, şokətim, Zəhra nişanım

Yetişib qəbrinin üstünə qəm karivanım

Sənə qurban ola Zeynəbin bu xəstə canı

Dur pişvazə – Tahaya xatir

Xoş gəldin elə – Zəhraya xatir

Dəm verir dəmbedəm aşiqi mədhuşə qəbrin

Məni məczub edib ya Hüseyn şeşguşə qəbri

Şovqi didar ilən almışam ağuşə qəbrin

Dur pişvazə – Tahaya xatir

Xoş gəldin elə – Zəhraya xatir

Gərçi dildən Hüseyn vəslinin xürsəndiyəm mən

Aşiqi sadiqəm eşqinin pabəndiyəm mən

Üç yaşında balandan vəli şərməndəyəm mən

Dur pişvazə – Tahaya xatir

Xoş gəldin elə – Zəhraya xatir

## Həzrət Zeynəbin (s.ə) sözləri

**“Rahiyani Kərbəla” kitabından**

Dur ayağa ya Hüseyn – eylə istiqbal

Şamidən Zeynəb gəlir – çox pərişan hal

Həmdəmim qəmdi Hüseyn

Qamətim xəmdi Hüseyn

Yorğunam qardaş

*****

Zeynəbi ey sərfəraz – sərfəraz eylə

Aşiqi məhcuruna – kəşfi-raz eylə

Karivani eşqimi – pişvaz eylə

Mokəbə sərdəstəyəm

Halıma bax xəstəyəm

Yorğunam qardaş

Qana batdın sən adın – dillərə düşdü

İtrətin səndən sonra – çöllərə düşdü

Vay mənə qardaş başın - əllərə düşdü

Baş düşüb əldən ələ

Zeynəbin çöldən çölə

Yorğunam qardaş

Ey şəhidi səngər – məktəbi Quran

Altı guşə qəbrinə – gözlərim qurban

Gəldim etsin türbətin – dərdimə dərman

Eşqinin bimarıyam

Ərbəin zəvvarıyam

Yorğunam qardaş

Möhnəti əyyamidən – sanma dincəldim

Tiri ahımla dili – aləmi dəldim

Kaş öləydim neyləyim – ölmədim gəldim

Can olub ruha qəfəs

Az qalır batsın nəfəs

Yorğunam qardaş

Kufədə yandım Hüseyn – nari hicranda

Bir gecə yatdı bacım – küncü zindanda

Daği hicrin göynədi – qəlbi suzanda

Qərq idim göz yaşıma

Qəm yağırdı başıma

Yorğunam qardaş

Qana döndə Şamidə - gözdə göz yaşım

Gördü qoğa dəmbedəm – porbəla başım

Verdi can viranədə - naqə yoldaşım

Hicri aramim olub

Bax qucağım boş qalıb

Yorğunam qardaş

Bir gecə durdu balam – yatmadı əslən

Məndən istirdi səni – dildə vaveyla

Başına döndü Rübab – ağladı Leyla

Sevgilin ram olmadı

Qəlbi aram olmadı

Yorğunam qardaş

### Qafilənin Kərbəlaya gəlməsi

**“Aşiqani şəhadət” kitabından**

Yetişdi qəbrin üstə bu qəmli karivan Hüseyn

Sinəmdə oxlu köynəyin gətirdim ərməğan Hüseyn

*****

Yaralı istirəm sənə səfər güzarişin verəm

Gözümə türbətin çəkib özüm bu qəbrə zairəm

Məni dur eylə pişvaz şikəstədil müsafirəm

Deyim sənə başımda var nə qəmli dasitan Hüseyn

Hezar şükr ölmədim yetişdim ərbəininə

Canım fəda ola Hüseyn bu qəbri nazəninınə

Dur indi bahəm ağlayaq məlali Abidininə

Düşübdü gör nə halətə imami insu-can Hüseyn

Xəzan görən güləm Hüseyn sənin qəmində solmuşam
Vurulmuşam, soyulmuşam əsiri düşmən olmuşam
Dönüb hilalə qamətim anam canı yorulmuşam
Verir ərizə halımı bu qaməti kaman Hüseyn

İcazə ver edim bəyan müsibətin işarəsin
Ölənlərin adın deyim qalanların şümarəsin
Nişan verim özüm sənə başımda Kufə yarəsin
Nişani eşqidir mənə başımda bu nişan Hüseyn

Diyari qürbəti gəzib məlalilən qayıtmışam
Xuda bilir necə gedib nə halilən qayıtmışam
Cəlalına qəsəm Hüseyn cəlalılan qayıtmışam
Cəlalu izzət artırıb mənə bu imtahan Hüseyn

Həmasə yıxdı düşməni cəhuli bəd məabını
Özümə ləşgər eylədim bənati dilkəbabını
Yetirdim əhli aləmə pəyami inqilabını
Cahana sadir oldu bu qiyami cavidan Hüseyn

Sözümlə bəzmi amidə Yezidi sındıran mənəm
Sərayi küfridə əza mərasimi quran mənəm
O səqfsiz xərabəyə qara ələm vuran mənəm
Qurtardı ömrümü mənim o qüssəli məkan Hüseyn

O yerdə yandı qəlbimiz Rüqəyyənin fəraqına
Gözünü yumdu düşmədi Mədinə iştiyaqına
Bir ağ kəfən tapammadım xərabənin qonaqına
Qaraya bükdüm əvvəl qızı ürəyim oldu qan Hüseyn

Ayağa durdu bir gecə o ağladı mən ağladım
Məhəbbətilə boynumu qucaqladı mən ağladım
Səfər sözündə tez məni qabaqladı mən ağladım
Soruşdu bu müsafirət başa gələr haçan Hüseyn

O halda qanlı başını təbəqdə qoydular yerə
Vüsalə çatdı aşiqin fəraq çıxdı zahirə
Nə gördüm eşqi vəslidən balam yaxındı can verə
Şirin dilin ürəklənib dil açdı nagəhan Hüseyn

Kəsik boğazına baxıb canın sənə fəda dedi
Yanıqlı ahilər çəkib yanıqlı oxşama dedi
Gözaltı baxdı sağ-sola dilaltı xoş səfa dedi
Girami tutdu məqdəmin o xırda mizban Hüseyn

Başını basdı bağrına nəvaziş etdi yarına
İşarə qıldı bax baba ayağımın qabarına
Gecəylə düşdü ömrünün günü əcəl mədarına
Xüləsə, batdı gün kimi o vəslə gün sayan Hüseyn

Dilində qaldı natamam gilayəsi şirin sözü
Yumuldu nazdanəmin sənə çox oxşayan gözü
Yıxıldı topraq üstünə həm qonağı həm özü
Rüqəyyəm öldü yanmadı o hala şamiyan Hüseyn

Nə dəfnə gəldi qonşular nə kəfnə şirkət etdilər
Nə bir təsəlli verdilər nə bir himayət etdilər
Mən ağladım Rüqəyyəmə onlar şəmatət etdilər
Mən oldum ol yətimənin məzarını qazan Hüseyn

Ey əhli eşqə dəhridə vəfa yolun nişan verən

Nigari gülüstanına səfayi cavidan verən

Silə verəndə sailə üzün edib nihan verən

Kəlami də olub sənə dəxili asitan Hüseyn

### Ərbəin növhəsi

**"Çəhardəh məsum (ə)" kitabından**

Anam oğlu qəbrin üstə

Gəlmişəm qəlbi şikəstə

Yaralı pozulmuşam

Bacınam yorulmuşam

*****

Ey məzarı altı guşə

Getmə gülüstanda huşə

Zeynəb eylər əxzi tuşə

Dəstə-dəxtə xuşə-xuşə

Mən fəda bu gülşənə – gəlmişəm qonaq sənə

Sənə gözlərim fəda – niyə baxmırsan mənə

Ellərimdən ey nişanə
Bax bu çeşmi xun fişanə
Dil olub qəmi nişanə
Parə-parə şanə-şanə
Yana yana istərəm – dolanam bu məqtəlin
Sinəmə yapışdıram – sariban kəsən əlin

Hər nə istəsən gətirdim
Qanlı pirəhən gətirdim
Şimr apardı mən gətirdim
Dur sənə kəfən gətirdim
Sən murada çatmısan – buriyada yatmısan
Niyə durmursan məgər – məni gözdən atmısan

Şam və Kufəni dolandım
Başının qəmində yandım
Sayəsində daldalandım
Onda ki, qana boyandım
Xoşdum ki, nizədən – eşitdim azan səsin
Vurdular daş alnına – kəsdilər Quran səsin

Axər ölmədim bəradər
Gəldim ərəbinə müztər
Ver xəbər oyansın Əkbər
Hardadı yaralı Əsğər
Bax Rübabın halına – Leylanın məlalına
Ağla qəmli Zeynəbin – dağılan cəlalına

Eylərəm fəğan yaralı
Səsimə oyan yaralı
Gülşənə xəzan yaralı
Vay yaralı, can yaralı
Can baba deyə deyə – ağlaşır balaların
Sevgilim danış görüm – necədi yaraların

Sən denən nolub Rüqəyyə
Mən deyim solub Rüqəyyə
Zülfünü yolub Rüqəyyə
Qüssə mərg olub Rüqəyyə
Ayrılıqdan ol qızın – qəlbi dincələnmədi

Əmməsindən ayrılıb – qəbrinə gələnmədi

Sinəmin medalı yatdı
Əlimin qəzalı yatdı
Şamidə yaralı yatdı
Əkbərin maralı yatdı
Başını görən kimi – atdı başdan aləmi
Balan öldü dağladı – yenə dağlı sinəmi

Kullu yəvmin Aşura və kullu ərzin Kərbəla

Ərbəin bir hekayəti qəmdi
Ərbəin bir kitabi matəmdi
O kitaba yazıb xanım Zeynəb
Şiənin hər günü Məhərrəmdi

Ərbəin günü Həzrət Zeynəbin (s.) qardaşına xitabı

**"Kəlami Kəlami" kitabından**

Dur yaralı Zeynəbi biyarınam
Qırx gecə-gündüzdü əzadarınam
Gəldim Hüseyn vay deyəm
Əsğərə laylay deyəm

*****

Ey səsimə səs verənim aç gözün
Yusifi bipirəhənim aç gözün
Şəhidi xunin kəfənim aç gözün
Həm sənə mehman həmi zəvvarınam
Gəldim Hüseyn vay deyəm
Əsğərə laylay deyəm

Nəhri Fəratın suyu heyran axır
Əşgi Rübabın odu hər an axır
Vay ürəyindən bacının qan axır
Dur su verim qəmli pərəstarınam

Mən başıma qara salan Zeynəbəm
Köynəyin əllərdən alan Zeynəbəm
Həm qocalan həm ucalan Zeynəbəm
Yoxdu Əbəlfəzlin, ələmdarınam

Əhdimə ifa eləyib gəlmişəm
Kufədə qoğa eləyib gəlmişəm

Düşməni rüsva eləyib gəlməşəm
Həqqini ehya eləyən yavərinəm

Mən bu çölün aşiqi şeydasıyam
Zeynəb adım qafi qəm ənqasıyam
Kərbübəlanın qoca Zəhrasıyam
Anam kimi məhrəmi əsrarınam

Əsğərə laylay desələr min kitab
Olmaz ana laylayı ey xoş məab
Neynim uzaqda dayanıbdı Rübab
Səsləyir ağa, mən də diləfkarınam

Nazlı Rüqəyyən saçını hörmədi
Başını aldı mənə də vermədi
Qəbrini əfsus, o balan görmədi
Deyərdi hey həsrəti didarınam

Mən rəhi təqvada qədəm vurmuşam
Nəqşələrdə nəqşi ədəm vurmuşam

Kufəyə od, Şama ələm vurmuşam

Hafizi ayini mədədkarınam

Sən elədin qanilə deynin əda

Ey o axan qanına canım fəda

Olmayacaq həmaseyi Kərbəla

Mübəlliği ideyi əfkarınam

### Həzrət Zeynəbin (s.ə) qardaşının qəbri üstə növhəsi

**“Nalehayi Kəlami” kitabından**

Dur Hüseyn fəraqın – tiri qəlbi dəldi

Karivani Zeynəb – Kərbəlayə gəldi

Qəbrin üstə giryanam – dilşikəstə mehmanam

Yorğunam yaralı

*****

Morği-ruhə sənsiz bu cahan qəfəsdi

Xəstəqani hicran mənlə həmnəfəsdi

Həmdəmim nə vəqtdi naleyi cərəsdi

Qəmlərə dözüb gəldim – çölləri gəzib gəldim

Yorğunam yaralı

Kufədə yaralı başını görəndə

Taqətu təvanım qalmadı bədəndə

Batdıq orda başdan qana sən də mən də

Səslədim harayə qardaş – açdı əhli-beytin baş

Yorğunam yaralı

Mən o Zeynəbəm dil vermişəm vilayə

Çəkdiyim bəladan etmərəm gilayə

Adət edib şəmimim ətri Kərbəlaya

Balu pər çalıb gəldim – ətrini alıb gəldim

Yorğunam yaralı

Ölmədim Hüseynim hər cəfanı gördüm

Məclisi Yezidi bihəyanı gördüm

Ləblərində qardaş xeyzəranı gördüm

Vurdu xəsmi biganə – batdı ləblərin qanə

Yorğunam yaralı

Firqəti Rüqəyyə – od vurubdu canə

Döndərib məlalı – qəddimi kəmanə

Var yeri ucalsa – ahım asimanə

Qüssədən balam öldü – qəmli nohəxan öldü

Yorğunam yaralı

### Ərbəin növhəsi

**“Asari Kəlami” kitabından**

Ey mehribanım qardaş, arami canım qardaş

Dur xoş gəldin eylə Ali-Əbaya

Qəm karivanım gəldi Kərbəlayə

*****

Mən Zeynəbi həzinəm – məzunu dilqəminəm

Yari dini mübinəm – zəvvari ərbəinəm

Canım qurban bu qəbri dilrübayə

Qəm karivanım gəldi Kərbəlayə

Mənusi hicranam mən – hicrində nalanəm mən

Zaru pərişanəm mən – bu qəbrə mehmanəm mən

Qəbrin yanında gəlmişəm nəvayə

Qəm karivanım gəldi Kərbəlayə

Nuri ümidim qardaş – əzəm şəhidim qardaş
Şahi vəhidim qardaş – yari səidim qardaş
Ey rəhbəri  vala əhli vilayə
Qəm karivanım gəldi Kərbəlayə

Mən yari inqilabəm – poştibani hicabəm
Doxti Əbu Turabəm – hicrində dilkəbabəm
Yannam hicrində etmərəm gilayə
Qəm karivanım gəldi Kərbəlayə

Əzizim dur ayağa – qıl ibrazi əlaqə
Hörmət eylə qonağa – yoxdur dözüm fəraqə
Vardır əlaqəm sən tək bavəfayə
Qəm karivanım gəldi Kərbəlayə

Sən höccəti Yəzdansan – qurbani Quransan
Mülkü eşqə sultansan – sultani məzlumansan
Qıl xoş səfa övladi Mustafaya
Qəm karivanım gəldi Kərbəlayə

Bir nazənin qızından – şərməndəyəm Hüseyncan

Qaldı Şam içrə mehman – viranədə verdi can

Alma xəbər salma məni əzaya

Qəm karivanım gəldi Kərbəlayə

Zülfün Rüqəyyə yoldu – sənsiz gözləri doldu

Bəslədiyin gül soldu – öz əlimlə dəfn oldu

Tapşırdım ol gənci viransəraye

Qəm karivanım gəldi Kərbəlayə

### Həzrət Zeynəbin (s.ə) qardaşına xitabı

**“Səlami Kəlami” kitabından**

Sənə qurban qardaş, gözdən məni atma

Zəhranı ağlatma, yorğundu Zeynəb

Sən də doysan məndən, mən doymaram səndən

Dur nazilə yatma, pozulub halı Zeynəb

Hüseycanəm Hüseyncanəm

Pərişanəm pərişanəm

*****

Fəraqında yandım, hər dərdə dayandım
Çölləri dolandım, didarə gəldim
Gözüm var bağında, lalələr dağında
Güllər sorağında, gülzara gəldim
Qəlbimdə var çox qəm, ey qaidi əzəm
Bildim səni məhrəm, əsrarə gəldim
Dur özün pişvazə, dərdim etmə tazə
Getmə xabi nazə, məhzundu Zeynəb

Sinəm dağlanan gün, qolum bağlanan gün
Səni qan içində, yaralı gördüm
Gedirdim Kufəyə, Hüseyn deyə-deyə
Başın peykərindən, aralı görüm
Sən nizədə ey can, oxuyanda Quran
Qanlı bulud altda, hilalı gördüm
Alnından daş dəydi, qamətimi əydi
Axır gözdən əşgim, dilxundu Zeynəb

Şamə qoğa saldım, viranədə qaldım
Qatillər əlindən köynəyin aldım

Düşdü bir qız dildən, aralandı eldən
Rüqəyyə can verdi, solub-saraldım
Babasın istərdi, yolunu gözlərdi
Anama bənzərdi, öldü qocaldım
O qalıb qürbətdə, mən dami möhnətdə
Alami hicranə, məqrundu Zeynəb

Balam öldü qardaş, tökdü üzə göz yaş
Özüm qüslün verdim, məzarın qazdım
Oxşadım dilxəstə, həmən qəbrin üstə
Se salə Zəhranın, adın mən yazdım
Gözümdən atmazdım, yaddan çıxartmazdım
O qız yatmayınca, mən də yatmazdım
Yatdı viranədə, səfarətxanədə
Səfiri İslama, mədyundu Zeynəb

Gecələr ağlardı, sinəsin dağlardı
Deyirdi əmməcan, Əkbər nec oldu
Niyə gəlmir didə, o yari qəmdidə
Rübab anam səslər, Əsğər nec oldu

Mənə bu viranə, olubdu qəmxanə

Dağıldı pərgarım, ellər nec oldu

Vurub ədalar tənə, mənə bu matəmdə

Deyirlər Leylatək məcnundu Zeynəb

## Ərbəin növhəsi

**“Avayi Kəlami” kitabından**

Dur Hüseyn dildə bacın nalə gəlib

Zeynəbin Kəbeyi amalə gəlib

Şahi ətşan – yari Quran – can Hüseyn – canəm Hüseyn

Sərfəraz et – pişvaz et – mən pərişanam Hüseyn

Ey şəhidi Neynəva – dərdimə eylə dəva

*****

Mən Hüseyn Zeynəbi xunin cigərəm

Gəlmişəm görmədiyim qəbri görəm

Qorxulu qızlarına həmsəfərəm

Qəddi “əlf”im dolanıb “dal”ə gəlib

Can fəda bu hərəmi xəlvətinə

Al məni sayeyi əmniyyətinə

Qoy vurum busə gözəl türbətinə
Gör qalıb bacı nə əhvalə gəlib

Ey Bəni Fatiməni gözdən atan
Su kənarında susuz qana batan
Topraq altda balalarıyla yatan
Baği eşqə saralan lalə gəlib

Gəlmişəm məhşərə göz yaşım ilə
Danışam qüssəli qardaşım ilə
Var sözüm mahi Bəni Haşim ilə
Nədən ay dorəsinə halə gəlib

Başda var qəmli qəziyyə yaralı
Zülm edib Ali-Üməyyə yaralı
Öldü əllərdə Rüqəyyə yaralı
Başı üstə gecə qəssalə gəlib

Şamidə ay kimi batdı gözəlim
Xəlqi röyadan oyatdı gözəlim

Qəmli viranədə yatdı gözəlim

Ruhu bu qibleyi iqbala gəlib

## Qafilənin Kərbəlaya yetişməsi

**“Mubahati Kəlami” kitabından**

Şamidən Hüseyn qardaş – karivan gəldi

Əldə qəhrəman Zeynəb – bir qara ələm gəldi

*****

Çölləri dolandım mən hicr odunda yandım mən

Ümməti müsəlmana abiru qazandım mən

Səngəri şəhidanda canbekəf dolandım mən

Qəlbimə fəraqında qüssə dəmbədəm gəldi

Doxti Bu Turabəm mən hamiyi kitabam mən

Munisi dili Leyla həmdəmi Rübabam mən

Qəhrəmani Aşura yari inqilabam mən

Qanlı arman üstə cana min sitəm gəldi

Ey başı cida üstən başıma salan sayə

Ey üruci irfanda rəhbəri əhli mənaya

Xoş səfa eylə qardaş doxtərani Zəhraya
Əhli-beytinin qəmdən oldu qəddi xəm gəldi

Ərbəin günü qardaş su səpərlər qəbr üstə
Göz yaşı səpir Zeynəb bu məzara dilxəstə
Sən susuz qanə batdın ey şəhidi varəstə
Dur diyari qürbətdən yari həmqəsəm gəldi

Hər nə qədri ömrüm var ağlaram Məhərrəmdə
Bu şüarı yazdırram rəngi qarə pərçəmdə
Yad ola o saət ki, Əsğər ağlayan dəmdə
Getdi nəhridən Səqqa qolları qələm gəldi

Sən muini Quransan sərvəri şəhidansan
Ruhuna bacın qurban sən bu dinə qurbansan
Yusifim nə müddətdi topraq altda üryansan
Əldə köynəyin Zeynəb dildə min ələm gəldi

Gərçi dözmüşəm qardaş hər bəlaya mərdanə
Şamidə vəli düşdüm bəhri dərdi hicranə

Bir üç yaşlı məzlumu məndən aldı viranə

Qəbrinə qonaqlardan gör bir iddə kəm gəldi

**Salam və salavat olsun inqilab və müharibə şəhidlərinə ki, İslam ümmətinin nemətləridir**

### İranın şəhidləri

**"İnqilabi Xomeyni" kitabından**

Ta cəbhədə can verdilə İran şühədası

Din nəxlinə qan verdilə İran şühədası

İsaru muvasatların məktəbi eşqə

Səngərdə nişan verdilə İran şühədası

Tiri qəm dildarə dili paklarında

Eşqilə məkan verdilə İran şühədası

Qanları axıb düşdülər hərçənd təvandan

İslama təvan verdilə İran şühədası

Ləbbeyk deyib cəbhədə fəryadi Hüseynə

Ruhilə rəvan verdilə İran şühədası

Meydani şəhadətdə vüzu aldılar qandan

Can üstə azan verdilə İran şühədası

Can vermək üçün həzrəti Mehdi qabağında

İxlas ilə san verdilə İran şühədası

Öz canlarını Fatimənin oğluna hədyə

Ol qəmli zaman verdilə İran şühədası

Ömrü əbədi aldılar Həqqi Əzəlidən

Fikr etmə ziyan verdilə İran şühədası

Qurban olum imanlarına ümmətə əlhəqq

Ümmidi kəran verdilə İran şühədası

Həm özləri kam aldılar həm əhli vilayə

Kami du cahan verdilə İran şühədası

Qan peykəri Quranda düşürdü cərəyandan

Bir də cərəyan verdilə İran şühədası

Həm başları həm sinələrindən yara dəydi

Yar eşqinə can verdilə İran şühədası

Dərk eylə Kəlami ki, sənə bəzmi vəfada

Xoş nitqu bəyan verdilə İran şühədası

## Bir şəhidin vəsiyyəti

**“Kərbəlayi İran” kitabından**

Mən ana fədayi dinəm sən də başa qara bağla

Ağlama mənim qəmimdə ağlasan Hüseynə ağla

*****

Oğlunun təriqi həqdə qəlbi dincəlir anacan
Üstümə yağır güllə sinəmi dəlir anacan
Dəmbədəm yaralarımdan tazə qan gəlir anacan
Ağlama mənim qəmimdə, ağlasan Hüseynə ağla

Əhli həqq gərək ölüncə pasdari nehzət olsun
Hafizi livayi Quran, hamiyi şəriət olsun
Qoy ana şəhid olum mən, rəhbərim səlamət olsun
Ağlama mənim qəmimdə, ağlasan Hüseynə ağla

Şərhi halımı eşitsən, tökmə əşgini üzarə
İftixarə çatmışam mən, fəxr elə bu iftixarə
Yarə dəydi yarə üstən, cismim oldu parə-parə
Ağlama mənim qəmimdə, ağlasan Hüseynə ağla

Baş açıb demə dəmadəm, pasdari dinim ey vay
Söyləmə cavanım ey vay, nazlı nuri eynim ey vay
Yadına düşəndə oğlun, səslə vay Hüseynim ey vay
Ağlama mənim qəmimdə, ağlasan Hüseynə ağla

Mən ana yaralananda, dərdimin dəvası gəldi

Gözlərimə qan dolanda, gözlərim ziyası gəldi

Başım üstə rəfət ilə Fatimə balası gəldi

Ağlama mənim qəmimdə, ağlasan Hüseynə ağla

Mən fədaiyi Hüseynəm, imtiyazu izzətim var

Sinəm üstə öz qanımdan, bir gözəl əlamətim var

Sadiq aşiqəm başımda, əfsəri şəhadətim var

Ağlama mənim qəmimdə, ağlasan Hüseynə ağla

Sahib əz-Zaman gəlincə, hər zaman axar bu qanlar

Pərçəmi qiyamı saxlar, ya Hüseyn deyən cavanlar

Dillərə salar həmişə, bu kəlamı nohəxanlar

Ağlama mənim qəmimdə, ağlasan Hüseynə ağla

## Adsız şəhidlər

**“İnqilabi Xomeyni” kitabından**

Bizdən o şəhidani qomnamə salam olsun

Yarani fədakari İslamə salam olsun

*****

Ölməz o şəhidi ki, ali hədəfə yetdi
Həqq səngərin eşqilə toy hicləsi fərz etdi
Ayrıldı ərusindən Qasim yolunu getdi
Damadi  kəfənpuşi nakamə salam olsun

Səddami təcavüzgər zülmündə edib tüğyan
İstirdi o biiman İranı edə viran
Odlandı həmən odda sərtasəri Xuzistan
Əhvazilə Dezful və İlama salam olsun

İslam qalıb zində isaru şəhadətdən
Fəryad ucalıb hər dəm mərdani həqiqətdən
Həşrə kimi bu ümmət aridi əsarətdən
Mərdani sələhşuri əyyamə salam olsun

Dərs saldı Rəcai də məzlum Behiştidən
Oldu o da qurbani rahi şərəfi mihən
Etmiş onların qanı bu məmləkəti gülşən
Qurbani Quran və əhkamə salam olsun

Ey Kəbeyi amalın hüccaci niku cahi
Üşşaq minasında yad eylədiz Allahı
Şot etdiz hədəf Beytin verdiz bizə agahi
Siz bağladığız qanlı ehrama salam olsun

Ey Bahünər məzlumsan məqsədinə çatdın
Əhqaqi həqq üstündə nahaqq qanına batdın
Mərdanə şəhid oldun amma bizi ağlatdın
Bizdən sənə ey xunun əmmamə salam olsun

Hər mahi Məhərrəmdi, hər gün bizə Aşura
Azadə hüseynilər səngərdə edib qoğa
İranı əzaxana eyliblər Xudavənda
Evlərdə qalan ağlar əytamə salam olsun

## Şəhidlər növhəsi

**“Munacati Kəlami” kitabından**

Ey ya Zəhra deyənlər, qırmız xələt geyənlər
Laylay yoldaşlar laylay, məzlum qardaşlar laylay
*****

Cəbhədə tufan oldu məhşər nümayan oldu
Hicrət etdiz isarız muhyiyi Quran oldu
Siz səfərdən gəlincə ürəyimiz qan oldu
Laylay yoldaşlar laylay, məzlum qardaşlar laylay

Ərvəndin kənarında Şələmçə diyarında
Lalətək qırmız geydiz şəhadət baharında
Öz qanıza boyandız şəhidlər cəvarında
Laylay yoldaşlar laylay, məzlum qardaşlar laylay

Tozlu üzlərə qurban, qanlı gözlərə qurban
Qüssəli ürəyizdə qalan sözlərə qurban
Siz bizə izzət verdiz, canlar sizlərə qurban
Laylay yoldaşlar laylay, məzlum qardaşlar laylay

Yağdı diyari yarə yağış kimi xomparə
Siz qaçmadız meydandan əhsən belə isara
Ləb teşnə qonaq getdiz Əbbasi ələmdara
Laylay yoldaşlar laylay, məzlum qardaşlar laylay

Var yeri ana yana, ta gələ cana yana

Oğlun yada salanda, dildən odlana yana

Siz getdiz gülə-gülə, biz qaldıq yana-yana

Laylay yoldaşlar laylay, məzlum qardaşlar laylay

Ananıza can demirsiz, dərdiz əyan demirsiz

Səsiz gəlmir ellərə, razi nihan demirsiz

Qan dəstəmaz alanlar, niyə azan demirsiz

Laylay yoldaşlar laylay, məzlum qardaşlar laylay

Yandız nari vilada, çatdız gözəl murada

Gözəl imtahan verdiz, rahi sidqu-səfada

Getdiz mehman Hüseynə, eşq ilə Kərbəlada

Laylay yoldaşlar laylay, məzlum qardaşlar laylay

## Şəhidlərin öz anaları ilə vidalaşması

**“İnqilabi Xomeyni” kitabından**

Qana səngərimdə batdım

Anacan başın sağ olsun

Daxi mən murada çatdım

Anacan başın sağ olsun

*****

Sənə yazmışam ərizə ana qanlı göz yaşımdan
Məni ayrı saldı düşmən bacım ilə qardaşımdan
Ləbi yar tək öpürlər ana güllələr başımdan
Başını sənin ucaltdım anacan başın sağ olsun

Ana rahi imtahanda qana müştəridi Allah
Olur bəzli canə rağib hamı salikani agah
Odur mən də oldum əhli şərəfə ana həvaxa
Bu mətai həqqə satdım anacan başın sağ olsun

Ana sayeyi livayi həqqə eşqilə sıxıldım
Həvəsi şəhadətilə şühəda namazı qıldım
Göz açıb Hüseyni gördüm əlini öpüb yıxıldım
Yatan elləri oyatdım anacan başın sağ olsun

Anacan fərahəm olsa başım üstə gəl yubanma
Gələ bilməsəm də səbr et qəmi firqətimdə yanma
Bala vay deyib vətəndə toy otağımı dolanma

Ki, vüsali yarə çatdım anacan başın sağ olsun

Olub ümməti Hüseyni meyi vəhdətilə mədhuş
Odur cəbhəyə gedirlər hamı şövqilə kəfənpuş
Şühədayi Kərbəlanın qanı sel tək edər cuş
Qanımı o qana qatdım anacan başın sağ olsun

Mənə sən deyəndə bir söz demişəm sənə göz üstə
Ölürəm iraq gözündən hədəf üstə həqq sözü üstə
Əli Əkbərin atası başımı alıb diz üstə
Yaralı qum üstə yatdım anacan başın sağ olsun

Məni sən bu inqilaba anacan fəda veribsən
Ürəyin səfalı olsun dilimə səfa veribsən
Su səpib dalımca dildən balana dua veribsən
Odur eşqimi çoxaltdım anacan başın sağ olsun

Qəmə səbr elə bu hicran sözünü özün eşidəcək
Anam ağlama darıxma dəri mənzilə çıraq çək
Baxım iftixarilən de bu toyun oğul mübarək

Demə vay əzaya batdım anacan başın sağ olsun

Qəmi xalis şiələrin qəmi din olar və la qeyr
Odur sidq niyyətilə elədim vəfa yolun seyr
Məni aqibət yetirdi şərəfə bu niyyəti xeyr
Qəmi qeyri başdan atdım anacan başın sağ olsun

Tapa bilməz hər kəs ey dil bu cəlalı bu məqamı
Ki, böyükdü Həqq yanında şühədanın ehtiramı
Bu sözü yazıb becadı ola nohəgər Kəlami
Qana səngərimdə batdım anacan başın sağ olsun

## Ananın öz şəhid oğluna növhəsi

**“Şəmi şəhadət” kitabından**

Əzizim bala laylay, ümidim bala laylay
Batan köynəyi qanə, şəhidim bala laylay
*****
Oğul saldın ananı yanar odlara getdin
Cavanlıqda məzara başında yara getdin
Məni qoydun oğulsuz əzizim hara getdin

Batan köynəyi qanə, şəhidim bala laylay

Fəda eşqinə, eşqi Həqqi Davərə düşdün
Elindən aralandın gedib çöllərə düşdün
Yaralı bədənilən susuz səngərə düşdün
Batan köynəyi qanə, şəhidim bala laylay

Eşitdim ki, səfərdən gəlir cəbhə qonağı
Süpürdüm öz əlmilə qəm aludə otağı
Nə gördüm bacın ağlar axır əşki fərağı
Batan köynəyi qanə, şəhidim bala laylay

Özün məqsədə çatdın qoşuldun şühədaya
Şəhidan ilə getdin qonaq Kərbübəlaya
Ölüncə yeri vardı gələm ahu nəvaya
Batan köynəyi qanə, şəhidim bala laylay

Yerə sən yıxılanda olub ağlamadım mən
O halda başın üstə cigər dağlamadım mən
Xəcalət anan ölsün yaran bağlamadım mən

Batan köynəyi qanə, şəhidim bala laylay

Səni yadıma sallam ağaclar gül açanda
Gülüstanda pozullam dilin bülbül açanda
Dilim adını səslər uşaqlar dil açanda
Batan köynəyi qanə, şəhidim bala laylay

Qəmində dözə bilsəm dəxi etmərəm fəğan
Səni vermişəm oğlum Əli Əkbərə qurban
Sən öldün ki, cahanda sərəfraz ola Quran
Batan köynəyi qanə, şəhidim bala laylay